AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
Ü.HACIBƏYLİ ADINA BAKI MUSİQİ AKADEMİYASI

NAİLƏ RƏHİMBƏYLİ

# RAST LADINA ƏSASLANAN AŞIQ HAVALARININ TƏHLİLİ

## I HİSSƏ

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası Elmi Şurasının 20 may 2016-ci il tarixli iclasının qərarı ilə (protokol N 9) dərs vəsaiti kimi təsdiq edilmişdir.

BAKI – 2016

**Elmi redaktor:** **Tariyel Məmmədov**
Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Redaktor:** **Maya Qafarova**
sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Rəyçilər:** **Gülnaz Abdullazadə**
Azərbaycanın əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor
**Kamilə Dadaşzadə**
sənətşünaslıq üzrə fəlsəfə doktoru,dosent

**Nailə Rəhimbəyli. Rast ladına əsaslanan aşıq havalarının təhlili, I hissə,** Bakı, 2016, 256 səh.

Təqdim olunan dərs vəsaitindəki elmi təhlillər nəticəsində əldə edilən nəzəri mülahizələr musiqişünaslıqda və folklorşünaslığın böyük sahəsi olan dastan yaradıcılığının mətin şəbəkələrinin öyrənilməsində istifadə oluna bilər. Tədqiqatın nəticəsində əldə edilmiş materiallardan şifahi xalq yaradıcılığının kompleks şəkildə, yəni həm tarixi, ədəbi-bədii abidə kimi, həm də musiqişünaslıqda mühüm əhəmiyyət kəsb edən aşıq yaradıcılığının spesifik xüsusiyyətlərinin öyrənilməsi aspektindən istifadə edilə bilər, o cümlədən, təhlillərin ümumi məğzi aşıq yaradıcılığı ilə bağlı mühazirələr, eyni zamanda ali məktəblərdə «Aşıq sənəti», «Aşıq yaradıcılığı», «Xalq yaradıcılığı» fənləri üzrə keçirilən kurslar üçün nəzərdə tutulur.

folklorinstitutu.com

R $\frac{3202050000}{098 – 2016}$ Qrifli nəşr

© N.Rəhimbəyli, 2016

# GİRİŞ

Aşıq musiqisinin genetik kökləri xalq yaradıcılığı ilə sıx bağlı olduğu üçün onun melodik, metro-ritmik və lad-intonasiya xüsusiyyətləri xalq təfəkkürünün məhsulu kimi hər bir insana doğma və əzizdir. Aşıq sənəti ölməməlidir – deyən dahi Ü.Hacıbəyov yazır ki, bu sənət xalqa, kütlələrə daha yaxındır, xalqın həyəcan və arzularını xalq musiqisinin başqa növlərinə nisbətən daha parlaq əks etdirir. Sazəndədən fərqli olaraq, aşıq ictimai mövqeyinə görə kəndliyə, zəhmətkeş xalqa yaxındır… Aşıq sənəti xalqın öz yaradıcılığıdır; xalq yaradıcılığı texniki və ya metodiki vasitələrlə deyil, öz-özünə, xalqın mədəni və ictimai yüksəlişi ilə yanaşı inkişaf edir.

Aşıq sənətinin nüfuzu və milli mədəniyyətimizdə oynadığı böyük rolu digər görkəmli sənətkar Bülbül belə qeyd edir: «Aşıqlar xalq mahnısının yaradıcıları və improvizatorlarıdır. Biz milli musiqi mədəniyyətinin hər bir sahəsində aşıq yaradıcılığı təsirinin silinməz izlərinə rast gəlirik… Onlar hər dəfə öz ifalarına yaradıcı elementlər daxil edirlər. Aşıqların improvizasiya qabiliyyəti olduqca dərin xarakter daşıyır. Ən yaxşı aşıqlara əsil poetik tribun keyfiyyətləri – təsvir ehtirası, fikir kəskinliyi, səciyyələrdə tutarlıq və cəsarət kimi keyfiyyətlər xasdır. Eyni zamanda aşıq əsərləri orijinallığı ilə fərqlənir.

Aşıq yaradıcılığının diapazonu son dərəcə böyükdür... Onların poeziyası sözün əsil mənasında hər şeyi əhatə edir». Aşıq musiqi repertuarına məxsus havacatların musiqi janrının bütün sahələrində, o cümlədən, müasir estrada və caz musiqisində də öz əksini tapması aşıq yaradıcılığına xas musiqi nümunələrinin xalq arasında və məişətdə aktuallığını və geniş kütlə tərəfindən sevildiyini nümayiş etdirir. Nəzərə alsaq ki, aşıq musiqi yaradıcılığı YUNESKO kimi Beynəlxalq Təşkilatın bəşəriyyətin qeyri-maddi, mənəvi abidələr siyahısına salınmaq üçün diqqət mərkəzinə alınmışdır, onda aşıq musiqisinin aktuallığının təkcə Azərbaycan coğ-

rafi məkanında yox, bütün dünya musiqi mədəniyyəti üçün böyük əhəmiyyət kəsb etməsi öz zəruriliyini bir daha təstiq etmiş olur.

Aşıq yaradıcılığının sinkretik sənət olması onun xalq yaradıcılığında və məişətində bütün mərasimlərdə geniş vüsət almasına zəmin yaratmışdır. Aşıq yaradıcılığı folklorşünaslığın, şifahi və sonraki yazılı ədəbiyyatın nüfuzlu sahələrindən biri kimi də öz aktuallığını göstərmişdir. Aşıq poeziyası öz melo-poetik, melo-semantik xüsusiyyətlərinə görə milli təfəkkürün və milli mədəniyyətin ahəngdar, xalq yaradıcılığı süzgəcindən süzülərək bizə çatmış unikal bir sənət çeşməsi kimi folklorumuzun nadir incisidir. Aşıq yaradıcılığı həm folklor yaradıcılığının, həm də musiqi folklorunun öyrənilməsində aktual bir problem kimi həmişə tədqiqatçıların diqqət mərkəzindədir.

Aşıq havalarının nəzəri baxımdan təhlili bir sıra musiqişünas alimlərin aşıq sənəti ilə bağlı tədqiqatlarında yer almışdır. Bu sənət haqqında ilk böyük monoqrafiyanın müəllifi Ə.Eldarova «Azərbaycan aşıq sənəti» elmi əsərində aşıq havalarını janr, melodiya, ritm, intonasiya və s. baxımdan təhlil etmiş və aşıq havalarının klassikfikasiyasını vermişdir. Daha sonra aşıq havalarının təhlili T.Məmmədovun tədqiqatlarında yer almışdır. O cümlədən alimin «Azərbaycan aşıqlarının ənənəvi havaları», «Azərbaycan xalq professional musiqisi: aşıq sənəti», eləcə də «Koroğlu aşıq havaları» elmi əsərlərində bir çox aşıq havalarının nəzəri təhlilini verərək onları janr, lad, üslub və s. baxımdan sistemləşdirmişdir. Bir sıra aşıq havalarının təhlili aşıq sənətinin tədqiqatçısı İ.Köçərlinin «Azərbaycan xalq musiqi yaradıcılığında şikəstə», «Aşıq sənəti: musiqili poetik janrlar» elmi əsərlərində yer almışdır.

Təqdim etdiyimiz dərs vəsaitində rast ladına əsaslanan bir sıra aşıq havalarının lad, melodiya, ritm, forma baxımdan təhlili verilmişdir. Təhlil zamanı aşıq havalarının sadəcə musiqi materialı deyil, onun mətn əsası və bu iki əsas komponentin bir-birilə əlaqələri də araşdırılır.

Dərs vəsaitində havacatların təhlili musiqişünas professor Nazim Hidayətoğlu Bağırovun Borcalı aşığı Aslan Kosalının ifasından nota salınmış "Aşıq Qərib" dastanı əsasən aparılmışdır. 1999-cu il Türkiyənin Trabzon şəhərində nəşr olunmuş kitabda musiqişünas dastanın havacatlarını fortepiano və səs üçün işləmişdir. Məhz bu xüsusdan təhlillərdə eyni zamanda tonal və modal sistemi də öz əksini tapmışdır.

Dərs vasitində havalarının hər biri ardıcıl şəkildə lad-intonasiya, melodiya, ritm və forma baxımdan ətraflı təhlil olunur. Dərs vəsaitinə adı çəkilən havaların not nümunələri də daxil edilmişdir.

## «Çuxur hava» aşıq havası

«Çuxur hava» klassik aşıq havalarındandır və klassik aşıq yaradıcılığında «Çuxur oba» adı ilə məhşurdur. Bir sıra mənbələrdə bu havaya «İrəvan çuxuru» da deyilir. Adından məlum olduğu kimi, bu hava Göyçə aşıq mühitinə məxsusdur. Bu havacatın lad-intonasiya quruluşu «Rast» muğamının «Şikəsteyi-Fars» şöbəsinin lad-intonasiyaları üstündədir. Havacatın lad quruluşunun major ladına uyğun gəlməsi ilk növbədə havacatın melodik quruluşunda öz əksini tapmışdır. Xaraktercə oynaq olan «Çuxur hava»nın melodik dili istinad pərdələrin sıçrayışlı şəkildə verilməsi nəticəsində geniş diapazonda öz həllini tapmışdır. «Şikəsteyi–Fars» şöbəsinin «as» pərdəsi əsas tonallıq kimi götürülsə burada «f, es, b» pərdələrinin istinad pərdəsi funksiyası daşıdığını müşahidə etmiş olarıq. Aşağıdakı not misalında «Çuxur hava» nın lad quruluşu göstərilmişdir.



Havacatın I hissəsinin musiqi fikirləri «f» və «es» istinad pərdələri əsasında qurulmuşdur. I hissənin sonuna yaxın, deklomasiyadan qabaq, istinad pərdəsi dəyişdirilərək «b» səsinə endirilir. Maraqlı burasıdır ki, «b» pərdəsi sonradan «f» istinad pərdəsinə keçmək üçün keçid xarakteri daşıyır. I hissənin lad quruluşunuda qeyd edilən istinad pərdələri funksional baxımdan daha böyük əhəmiyyət daşıyır. Ona görə də melodik fikirlərin yaradılmasında həmin pərdələrə istinad olunduğu üçün melodiyanın quruluşunda daha geniş diapazon əhatə olunmuşdur. Vokal partiyasının diapazonu «b, f», yəni xalis kvinta hüdudundadırsa, instrumental partiyanın diapazonu isə kiçik oktavanın «as» səsindən birinci oktavanın «b» səsinə qədərdir. Bu faktın özü təhlil edilən havacatın musiqi fikirlərinin geniş, əhatəli olmasını göstərir.

Əsərin II - ci hissəsində də musiqi fikirləri əsasən «f» və «b» istinad pərdələri ilə həyata keçirilmişdir.

III - cü hissədə isə vokal partiyasında əsas istinad pərdə «f» səsi olduğu üçün burada musiqi fikirləri bir oktava hüduduna qədər genişləndirilmişdir, yəni kisik oktavanın «b» səsindən birinci oktavanın «as» səsinə qədər.

«Çuxur hava»nın lad-intonasiya quruluşunun təhlili göstərir ki, havacatın melodik quruluşunda ladın istinad pərdələri xüsusi olaraq rol oynayır. İstinad pərdələrindən istifadə olunmaq formalarından asılı olaraq havacatın diapazonu da geniş və qısa şəkildə verilmişdir. Eyni zamanda lad-intonasiyalarının ifadə xüsusiyyətlərindən asılı olaraq havacatın melodik quruluşun xarakteri də müəyyənləşmiş və bilavasitə major xarakterli ifadə vasitələrini tərənnüm etmişdir.

«Çuxur hava»nın **melodik dilinin** quruluşunda həm metrik ritmlərin, həm də tersiya və kvarta sıçrayışlarına məxsus ifadə vasitələrindən geniş istifadə olunması nəzərə çarpır.

«Çuxur hava»nın instrumental partiyasının melodik dili ənənəvi olaraq daha zəngin koloritə ifadə vasitələrinə malikdir. Burada musiqi dilinin zənginləşdirilməsi üçün tremolalardan, mordentlərdən, qısa forşlaqlardan geniş istifadə olunmuşdur. Melodik dilin zənginliyində qeyd etdiyimiz kimi, metrik ölçülərin də böyük əhəmiyyəti vardır. Əsasən, 6/8 metrik quruluşda olan melodik dilin formalaşmasında xanədaxili müxtəlif qruplaşmalardan istifadə olunması özünü göstərir. Not nümunəsində ayrı-ayrı xanələrdən verilmiş misallarda bunun şahidi olmaq olar (bax: 1; 3; 5; 6; 8; 9; 11; 13 -cü xanələr).

Not nümunəsində göstərilən eyni ölçüyə əsaslanan, lakin müxtəlif ritmik şəkillərdə verilmiş ritmik komponentlər melodik dilinin oynaqlığına, ritmik zənginliyinə geniş zəmin yaradır. Bu havanın ifasında sazın texniki imkanlarından tam şəkildə istifadə olunması nəticəsində harmonik dilin daha da zəngin çalarlarla tərənnüm olunmasına nail olunmuşdur.

İnstrumental partiyanın 20-xanəlik girişindən sonra vokal partiya başlayır. Maraqlısı burasıdır ki, son dərəcə zəngin çalarlar-

la dolu olan instrumental giriş partiyasının ifasından sonra vokal partiyası başlayarkən müşayiət partiyasınından istifadə olunmur. Burada zəngin çalarlarla sakit, mono səslənmə arasında təzadlıq yaranır. Həmin sükunəti, yenə də instrumental partiyanın 4-xanəli harmonik dili pozur. Və bundan sonra, vokal-instrumental partiyanın əsas mövzusu eşidilir. Vokal partiyanın melodik dilinin formalaşmasında ladın mayə pərdəsi olan «b» səsindən və istinad pərdələri sayılan «f, es, c» səslərindən geniş istifadə olunur.

Vokal partiyanın melodik dili instrumental partiyanın melodik dilindən fərqli olaraq səsin interval sıçrayışlarından yox, yaxın istinad pərdələrin həlli ilə həyata keçirilir. Vokal partiyanın melodik dilində qısa forşlaqların istifadə olunması aşıq melodiyasının spesifik boğaz səslərinin imitasiyasını yaradır. Bunu, not misalında da görmək olar (bax: 36-37-ci xanələr).

Vokal partiyanın musiqi dilində «Ad libitum» deklomativ ifa üslubundan da istifadə olunur. Əsərin I hissəsinin musiqi dili II hissədə dinamik cəhətdən bir az da inkişaf etdirilir. I hissənin giriş partiyasının melodik dili dörd xanəlik metrik ölçülərin tərənnümü ilə başlayırsa, II hissənin girişi isə mövzunun bir başa ifasını təmin edir.

«Çuxur hava»nın melodik dilinin təhlilində həm kantilen xarakterli lirik uzanan səslərin, həm də metrik cəhətdən dəqiq və xüsusi boğaz texnikasının geniş istifadə olunmasının şahidi oluruq (bax: 41-43-cü xanələr).

Təhlil göstərir ki, burada müxtəlif rəngarəng səslənmələri yaratmaq üçün melodik dilin ayrı-ayrı struktur formalarından istifadə olnmuşdur. Yəni melodiyanın inkişaf strukturunu bir tərəfdən dəqiq ritmik ölçülərə əsaslanan melodik dilin kantileni, digər tərəfdən isə harmonik cəhətdən daha zəngin olan melodik dil əvəz edir. Təhlillər göstərir ki, melodik dilin formayaradıcı amillərində ritmik komponentlərin də böyük əhəmiyyəti vardır. Melodik dilin formalaşmasında aşıq ifa üslubunun xarakterik xüsusiyyətləri, boğaz texnikaları və müxtəlif intervallara sıçra-

yışlardan da istifadə olunması melodiyanın formayaradıcı xüsusiyyətlərini təzadlı, oynaq xarakterdə olmasını təmin etmişdir.

«Çuxur hava» aşıq havasının **metro-ritmik** xüsusiyyətləri sırf aşıq havalarına xas formada həyata keçirilmişdir. Əsər bütövlükdə, əsasən, 6/8 metrik ölçüyə əsaslansa da, burada epizodik olaraq 3/8, 9/8 quruluşlu ölçülərə də rast gəlirik. Metrik ölçülərin sayı çox olmasa da təhlil etdiyimiz havacatın zəngin ritmik quruluşa malik olması, milli aşıq yaradıcılığından irəli gəldiyi üçün, bir sıra ritmik komponentləri özündə ehtiva etmişdir. Metrik ölçülərin kiçik uzunluqlara bölünərək müxtəlif şəkillərdə istifadə olunması nəticəsində, aşıq yaradıcılığına xas zəngin ritmik ənənə qorunub saxlanılmışdır. Maraqlı burasıdır ki, müxtəlif ritmik şəkillərdə olan arı-ayrı xanələr, ümumi ifada vahid ritmik quruluşa xas şəkildə səslənmə təəssüratı yaradır. Not misalında 6/8 metrik ölçüyə əsaslanan, lakin müxtəlif ritmik şəkillərdə olan ayrı-ayrı ritmik komponentlər göstərilmişdir. Həmin ritmik şəkillər xanədaxili zərbələrin müxtəlif notlar üzərinə düşməsi nəticəsində aşıq musiqisinə xas ritmlərin üzə çıxarılmasına xidmət edir (bax: 1-ci; 3-cü; 5–6-cı; 9-cu; 11-ci; 13-cü; 17-ci xanələr).

«Çuxur hava»nın instrumental müşayiət partiyasının ritmik komponentləri yuxarıda qeyd etdiyimiz kimi, eyni kökə və müxtəlif ritmik quruluşlara bağlı olmuşdur. İnstrumental partiyanın ritmik quruluşlarını təhlil edərkən həm melodik simin ifa etdiyi melodiyanın ritmik quruluşu, həm də müşayiət simləri adlandırılan kök simlərinin ritmik komponentlərinin bir yerdə müqayisəli şəkildə araşdırılması fikirimcə maraq doğuracak. Bu həm ifa texnikasının kamilliyini göstərir, həm də müxtəlif ritmik şəkillərin ümumi səslənmədə xanənin ölçüsünün ifadəçisinə çevrilərək onun təzahürü olduğunu göstərir (bax: 13-14-cü; 30-cu; 36-cı; 42-43-cü xanələr).

«Çuxur hava»nın vokal-instrumental partiyası həm dəqiq metrik ölçülər əsasında, həm də «Ad libitum» sərbəst metrik ölçüyə əsaslanır. Hər iki halda vokal partiyasının metrik quruluşları instrumental ifada təkrarlanır. Vokal partiyanın metrik qurulu-

şunda dəqiq ölçülərlə «Ad libitum»un ardıcıl şəkildə verilməsi ritmin dinləyici tərəfindən qavranılmasını bir növ sadələşdirilmiş formasını xatırladır. Yəni, bir tərəfdən melodiya ritmik bünövrəyə əsaslanırsa, digər tərəfdən reçitativ xarakterli «Ad libitum» melodik dili sanki danışıq dilinin ifadə üslubuna bənzətmiş olur.

«Çuxur hava»nin ritmik təhlili göstərir ki, havacatın metrik quruluşunun əsasını aşıq yaradcılığına xas ritmik formullar təşkil edir. İstər instrumental partiyanın ritmik quruluşlarında, istərsə də vokal partiyanın ritmikasında, milli ifa ənənəsi üslubundan kənara çıxılmamışdır. Havacatın ritmik quruluşundakı rəngarənglik xanədaxili ritmik şəkillərin müxtəlif səpkilərdə qurulması hesabına əldə edilmişdir.

«Çuxur hava»nın **musiqi forması** üç hissəli formada yazılıb. Hər bir hissə **A+A1+A2** kuplet formasındadır. Hissələrin əvvəlində geniş instrumental giriş verilir. I hissə (**A**) ənənəvi olaraq giriş və vokal partiyalardan ibarətdir. İyirmi səkkiz xanəli instrumental girişdən sonra dörd bölməni (**a+b+c+d**) özündə birləşdirən vokal partiya bışlayır. Birinci **a** bölməsi, iki cümlədən ibarət olan period formasındadır. Burada birinci cümlə dörd xanə, ikinci cümlə isə beş xanədən ibarətdir. İkinci **b** bölməsi 9/8, 6/8, 3/8 kimi dəyişkən metrik ölçülərlə keçir, yeddi xanəli üçüncü **c** bölməsindən sonra, «Ad libitum» deklamasiya üslublu dördüncü **d** bölməsi öz yerini tutur. Beləliklə, I hissənin formasını bu şəkildə göstərmək olar:

________A________
G + vok part.
a+b+c+d

II hissəni (**A1**) 16 xanəlik (74-89-cu xanələr) giriş və üç bölmədən ibarət olan vokal partiya təşkil edir. Bölmələrin mövzusu, I hissənin vokal partiyasının bölmələrinin mövzusuları ilə oxşardır. Birinci bölmə 6/8 metrik ölçüdə deklamasiyalı və reçiativlidir. İkinci və üçüncü bölmələr birinci bölmə ilə oxşar olsa da, bunlarda bir qədər mövzu dəyişkənliyi müşahidə olunur.

________A1_________
G + vok. part.
a+b+c

III hissə (**A2**) girişlə başlayır və II hissədə olbuğu kimi üç bölmədən ibarət olan vokal partiyaya keçid alır. Bölmələr, əsasən, I hissənin vokal partiyasının bölmələrinin mövzularının üzərində, lakin bir qədər dəyişdirilmiş şəkildə, qurulmuşdur.

________A1_________
G + vok. part.
a+b+c

Beləliklə, «Çuxur hava»nın musiqi forması bu şəkildədir.

| _______A_______ | + ________A1_______ | + _______A2_______ |
|---|---|---|
| G + vok. part. | G + vok part | G + vok. part. |
| a+b+c+d | a+b+c | a+b+c |

«Çuxur hava»nın musiqi formasının nəzəri təhlili göstərir ki, bu havanın da əsl musiqi forması bir hissəlidir. Dastanın melo-poetik xüsusiyyətlərini və mətnin məzmununu əhatə etmək məqsədi ilə havacatın ikinci, üçüncü hissələri əsas-birinci hissənin forması əsasında onun başqa bir variantında yaradılmışdır.

## «Dastanı» aşıq havası

«Dastanı» klassik aşıq havacatlarından biridir. Aşıq repertuarında bir o qədər də tez-tez ifa olunmayan, lakin özünəməxsus yer tutmuş havacatlardandır. Formaca geniş, əhatəli olan «Dastanı» «Rast» muğamının lad bünövrəsi üzərində qurulmuşdur. «Rast» muğamının lad quruluşu major ladı ilə uyğunluq təşkil etdiyi üçün səslənmə çalarlığına görə eyni mahiyyət kəsb edir. Tonallıq baxımından «Des dur» tonallığına uyğun gələn «Dastanı»nın instrumental partiyasının fakturası oktava həcmindədir. Vokal-instrumental partiyanın strukturu isə xalis kvinta həcmindədir.

Aşığıdakı not misalında «Dastanı»nın lad quruluşu göstərilmişdir.



Göstərilən not misalında «des» mayə pərdəsidir, «es, f» səsləri isə istinad pərdəsi funksiyası daşıyır. «Dastanı»nın fakturasından göründüyü kimi major mahiyyətli lad strukturu özünü bütün əsər boyu geniş şəkildə göstərir. «Dastanı»nın birinci xanəsində aşıq «Ad libitum»dan istifadə edərək «Mahur» muğamının lad xüsusiyyətlərini muğam ifaçılığına xas formada göstərməyə müvəffəq olmuşdur. Əsas mövzu isə «Des dur» tonallığında işlənmişdir. Havacatın həm «Moderato» tempi, həm fakturanın onaltılıq notlarla verilməsi əsərin mahiyyətini bir qədər nikbin, şən olmasını ortaya çıxardır.

Havacatın I hissəsinin melodik mövzuları, əsasən, «Des dur» tonallığına istinad edir. II hissədə isə «f» istinad pərdəsindən mövzunun başlanğıcında istifadə olunur. Sual cavab formasında yazılmış musiqi cumlələri ilkin olaraq «f» səsinə istinad edirsə, musiqi fikrin tamamlanması yenə əsas tonallığa gətirib çıxardır. II hissədə «Ad libitum» deklomatik ifa üslubundan istifadə edilərkən ladın əsas mayə pərdəsindən yararlanılmışdır.

Havacatın III hissəsində musiqi cümlələrin formalaşmasında və ərsəyə gətirilməsində «es» istinad pərdəsindən də istifadə olunmuşdur. Beləliklə, ifaçı ayrı-ayrı hissələrdə müxtəlif istinad pərdələrə müraciyət etməklə tonal effektlərini qabartmaqla bir növ dinamik səs çalarlığı yaratmışdır. Bu da havacatın monoton səslənməsinin qarşısını almışdır.

«Dastanı» havasının lad quruluşunun təhlili göstərir ki, ladın major mahiyyəti bütünlüklə mövzuların, musiqi fikirlərin xarakterində öz əksini tapmışdır. Melodiyaların inkişafı istinad pərdələrin tonal yüksəkliyinə görə qurulmuşdur. Havacatın nəzəri təhlilində bir məsələni də qeyd etmək istərdim. Burada, ladın major xarakterik xüsusiyyətlərinin formalaşmasına havacatın bir qədər ritmik formullarının aktivliyi təsir etmişdir. Yəni xanələrdə

ritmik formulları qabarıq şəkildə göstərən aksentlərin yerini tez-tez dəyişməsi prinsipi havacatın metrik ölçüsünü müəyyənləşdirmişdir. Bu xüsusda E.Nazaykinski yazır ki, lad ilə ölçünün əlaqəsi göstərir ki, ölçüdə istinad və qeyri istinad pərdələrinin keyfiyyət differensasiyası musiqidə lad və harmoniyanın əsasını təşkil edən spesifik səsyüksəklikləri münasibətlərinin yaranması və möhkəmlənməsinə təsir edə bilər (19, s.247).

I hissədə «Des dur» tonallığı xüsusi əhəmiyyət kəsb edirdisə, sonrakı hissələrdə «f, es» istinad pərdələridən istifadə edilməklə havacatın melodik səslənməsində dinamik rəngarənglik əldə olunmuşdur.

Borçalı aşıq mühitində bu havacatı əksər aşıqlar sevə-sevə ifa edirlər. Onun melodik dilinin təhlili bu havacatın musiqi dilinin zənginliklərini üzə çıxarmaqla yanaşı, bir sıra musiqi fikirlərinin ənənəvi şəkildə formayaradıcı amillərinin spesifik cəhətlərinin də özəlliklərini meydana çıxarmış olur.

«Dastanı»nın **melodik dilinin** nəzəri təhlilini iki aspektdən araşdırmaq daha məqsədəuyğundur. Bu havacatın müşayiət partiyasının melodik dili, əlbəttə ki, digər havacatlarda olduğu kimi, daha zəngin və çoxplanlıdır. Vokal partiyasının musiqi dili isə öz ifa texnikasına, milli çalarlığına və boğaz texnikalarının işlədilməsi aspektindən musiqi dilinin araşdırılmasını zəruri edir.

Havacat 25 xanədən ibarət geniş instrumental partiyanın ifası ilə başlayır. Birinci xanənin musiqi materialı «Ad libitum» formasında həyata keçirilmişdir. Onun musiqi dili dinləyicini ifa ediləcək havacatın lad-intonasiya xüsusiyətləri, diapazonu ilə tanış etmək xarakteri daşıdığına görə bir növ əsas melodik mövzudan öncə gələn tanışlıq mahiyyəti daşıyır. Havacatın əsas mövzusu ikinci xanədən başlayır. 9/8 və 6/8 metrik ölçüyə əsaslanan əsas mövzunun melodik dilinin bünövrəsini birinci xanədə verilmiş ritm-intonasiya formulları təşkil edir. Müşayiət partiyasının sonraki inkişaf xəttində biz bu formulları ümummelodik bünövrənin konstruksiyasını yaradan ritm-intonasiya formulları kimi daima görürük. Təhlil

edilən müşayiət partiyasının 3, 7, 8, 9, 10, 11, 12 və digər xanələrində onun bariz nümunəsini görmək olar. Əsas mövzunun melodik quruluşuna diqqət yetirsək burada da həmin formulların böyük əhəmiyyət daşımasının şahidi olarıq (bax: 6-9-cu xanələr).

Müşayiət partiyasının melodyası geniş diapazona malik olub çoxplanlı şəkildə qurulmuşdur. Əsas mövzunun birinci musiqi cümləsi dörd xanədə cəmləşmişdirsə, ikinci musiqi fikri həmin elementlər əsasında sonrakı dörd xanədə özünü göstərmişdir. Burada melodik dilin zənginləşdirilməsi üçün ifaçı müxtəlif metrik ölçülərdən yararlanmaqla yanaşı, tremolo, qısa forşlaqlar, mordent və digər ifa üslublarından da geniş istifadə edir. Havacatın melodik dili texniki ifa baxımından cəlddir. Müşayiət partiyasının xanədaxili metro-ritmik quruluşlarına dəqqət yetirsək, onaltılıq notların üstünlük təşkil etdiyini görərik. Melodiyanın inkişafı əksər hallarda enən xətt üzərində verilmişdir. Məsələn 14-19-cu xanələrə qədər olan melodik quruluşa fikir versək, burada birinci oktavanın «b» səsindən həmin oktavanın «d» səsinə qədər, yəni septima intervalı səviyyəsində melodiyanın enən xətt üzrə inkişafını müşahidə etmiş olarıq. Təhlil etdiyimiz havacatın melodik bünövrəsini təşkil edən ritmoformullar həm 9/8, həm də 6/8, 2/4 və 3/8 metirk ölçülərdə verilmişdir. Bu onu göstərir ki, melodik bünövrənin əsas formayaradıcı amili məhz onun metro-ritmik formullarıdır.

«Dastanı»nın I hissəsinin son musiqi fikri, on xanəlik texniki cəhətdən inkişaf etmiş melodik quruluşla tamamlanır. I hissənin melodiyasının zənginləşməsində sazın müşayiət simlərinin rolunu da xüsusi olaraq qeyd etmək lazımdır. Melodik dili fasiləsiz olaraq akkordlu şəkildə müşayiət edən ikinci, üçüncü simlər melodiyanın harmonik dilinin zənginləşməsini təmin etmişdir. Belə ifa tərzini biz sonrakı hissələrin ifa tərzində də görə bilərik.

II hissənin melodik dili də texniki cəhətdən inkişaf etmiş ifadə xüsusiyyələrindən, ibarələrdən, tezislərdən təşkil olunmuşdur. İnstrumental partiyanın 13 xanəli giriş hissəsinin altı xanəsi sanki, texniki cəhətdən inkişaf etmiş etyud xarakterli me-

lodik frazaların ifasından ibarətdir. I hissədə, qeyd etdiyimiz metro-ritmik formullar müşayiət partiyasının sonluğunda özünü göstərir. Bu hissənin melodik dili harmonik cəhətdən rəngarəng çalarlarla zəngindir. II hissədə vokal partiyalar arasında istifadə edilən epizodik müşayiət partiyasının melodik dili də həm harmonik, həm də texniki cəhətdən zəngin çalarlara əsaslanır. Bütün bu qeyd olunan faktlar «Dastanı» havasının dinamik cəhətdən yüksək, inkişaf etmiş şəkildə olmasına dəlalət edir.

«Dastanı»nın III-hissəsi həcmcə qısa olsa da, onun melodik dili əvvəlki və sonrakı hissələrin musiqi dilindən fərqlidir. I və II hissələrdə texniki cəhətdən inkişaf etmiş melodik strukturla rastlaşsaq da, burada 9/8 metrik ölçüdə olan, lakin daha sadə, təmkinli melodiya ilə qarşılaşırıq. Sözsuz ki, III hissənin müşayiət partiyasının melodik dilində qeyd etdiyimiz əsas metro-ritmik formullar yoxdur. Bu özü sübut edir ki, bu hissənin musiqi dili avtonom xarakter daşıyır. Not misalında bunu aydın şəkildə görmək olar (bax: 122-125-ci xanələr»).

III hissənin 18 xanəlik melodik dilinin iki hissəyə bölməklə təhlil edək. Birinci musiqi fikri 6 xanədən ibarətdirsə (122-127-ci xanələr), ikinci musiqi fikri (128-133-ci xanələr) də 6 xanədən tərtib olub tam melodik dilin strukturunu tərənnüm edir. 134-138-ci xanələrdə verilmiş musiqi, sonuncu bölmənin elementləri əsasında yaradılmışdır. Məhz bu parçalar III hissənin bir qədər oynaqlığını təmin edir. Birinci 6 xanənin musiqi dili kantilen xarakterlidirsə, ikinci və sonrakı bölmələrdə ifa edilən musiqi obrazları daha çevik və oynaqdır. Əvvəlki hissələrdən fərqli olaraq, burada 12/8, 9/8 kimi metrik ölçülər, melodik dilin formalaşmasında əsaslı rol oynamışdır.

«Dastanı»nın IV hissəsinin melodik dili daha oynaq xarakterlidir. 3 xanədən ibarət olan giriş müşayiət partiyası əvvəlkilərdən struktura görə fərqlidir. Ümumiyyətlə, qeyd edim ki, III və IV hissələrin melodik dilinin fakturası, struktur quruluşu, I və II hissələrə ziddir. IV hissədə vokal-instrumental partiyalar ara-

sında verilmiş müşayiət partiyasının melodik dili texniki və harmonik cəhətdən I və II hissələrə nisbətən əks qütbdə dayansa da, onun melodiyası ənənəvi aşıq yaradıcılığına məxsus formada həyata keçirilmişdir. IV hissənin sonu, vokal ifa ilə bir yerdə bitir.

«Dastanı»nın vokal-instrumental partiyasının fakturasına diqqət yetirsək, bu, bütün hissələrdə mahiyyətcə bir-birinə bənzəyən formada olduğunun şahidi olarıq. Burada melodik dilin formalaşmasında iştirak edən metrik ölçülərlə yanaşı, «Ad libitum» və digər məziyyətlər olan mordentlər, tremolalar, forşlaqlar və sairə vokal ifa texnikaları ilə rastlaşırıq. Vokal ifada olan boğaz texnikaların not yazısına diqqət yetirsək və bunları qarşılıqlı şəkildə təhlil etsək, bu ifa tərzinin Borçalı aşıq mühitinə məxsus olduğunu görərik.

«Dastanı»nın müşayiət partiyası ilə vokal-instrumental partiyasının melodik dilinin nəzəri təhlili göstərdi ki, burada ənənəvi aşıq yaradıcılığı ifa tərzindən geniş istifadə edilsə də, havacatın xarakteri və məzmunundan irəli gələn texniki baxımından cəld, dinamik cəhətdən isə yüksək intonasiyalardan istifadə olunması, onun özəlliyini qabarıq şəkildə gösətrmiş olur.

«Dastanı» havasının **metro-ritmik** quruluşunun nəzəri cəhətdən təhlil olunması onun aşıq yaradıcılığında ənənəvi olaraq 6/8, 2/4, 3/8, 12/8 metrik ölçülərdən və «Ad libitum»dan geniş istifadə olunmasını ortaya çıxarmış olur. Havacatın birinci xanəsi «Ad libitum» sərbəst vəznlə başlayır. Bu, əsərdə giriş mahiyyətini daşıdığı üçün dinləyicini səsləndiriləcək musiqinin lad-intonasiyasına kökləyir və onu qabaqcadan həmin emosional xarakterin təsir dairəsinə salır. Havacatın əsas musiqi materialı birinci xanədən yox, ikinci xanədən başlayır.

I hissənin müşayiət partiyasının melodik bünövrəsinin quruluşunda 9/8, 6/8, 2/4, 3/8 metrik ölçülərdən istifadə olunmuşdur. Havacatın əsas mövzusunun bünövrəsini birinci xanədə verilmiş metrik formullar təşkil edir (bax: 6-cı xanə).

Metrik quruluşun təhlili göstərir ki, havacatın xanədaxili müxtəlif planlı ritmik formulları zəngin melodik dilin formalaşmasında xüsusi rol oynamışdır. Müşayiət partiyasının ritmik strukturunu oyrənərkən həm metrik ölçülərin quruluşuna, həm də melodik dil ilə müşayiət partiyaların ritmik formulların formayaradıcı amillərinə xüsusi olaraq diqqət yetirmək lazımdır. Verilən ritmik formulların nümunəsində sazın səslənməsində mövcud olan zəngin harmonik çalarların hansı ritmformayaradıcı ünsürdən istifadə olunması fakt olaraq özünü göstərmiş olur (bax: 9-11-ci xanələr).

Ümumiyyətlə, qeyd edim ki, burada metrik ölçünün 6/8 əsasında olmasından asılı olmayaraq, melodik quruluşu yaradan ritmik formulların müxtəlif şəkillərdə, qruplaşmalarda təzahür etməsi, melodik dilin zənginləşdirilməsinə təsir etmişdir. Ayrı-ayrı xanələrin melodik dilinin formullarını təşkil edən ritmik strukturlar deyilən fikrin təsdiqi kimi götürülə bilər (bax: 12-ci; 17-19-cu; 20-21-ci xanələr).

«Dastanı»nın II hissəsinin metrik ölçüsü 6/8-ə əsaslansa da, onun xanədaxili ritmik şəkilləri I hissədən fərqlidir. Sözsüz ki, bu da melodiyanın formayaradıcı amilində özünü göstərməyə bilməzdi (bax: 59-cu; 62-69-cu xanələr).

Ritmik şəkillər, II hissənin vokal partiyaları arasındakı epizodik müşayiət partiyalarında da özünü göstərir.

«Dastanı»nın III hissəsinin metrik quruluşu 9/8-lik ölçüsünə əsaslanır. Havacatın xarakterindən asılı olaraq buradakı metrik ölçünün ritmik şəkili I hissədən fərqlidir. I hissədə 9/8-lik ritmik formulları ritmikanın əsas rol oynamasını qabardırdısa, burada ritm, melodiyaya tabe olaraq melodik dilin qabardılmasına xidmət edir. Not nümunəsində III hissənin müşayiət partiyasında, ayrı-ayrı xarakterləri formalaşdıran ritmik formulların nümunələri göstərilmişdir (bax: 122-124-cü; 128-130-cu; 134-135-ci xanələr).

III hissənin melodiyasının xarakterinin bir sıra cizgilərini təsdiq etmək üçün burada 12/8 və 9/8-lik metrik ölçülərin ardıcıl

verilməsi də diqqəti cəlb edir. Not nümunəsində, vokal və müşayiət partiyalarının ritmik formulları göstərilmişdir. Burada, metrik ölçülər eyni olsa da, onların ritmik şəkillərinin müxtəlif olması ilk növbədə diqqəti cəlb edir. Sözsüz ki, bunlar da, ayrı-ayrı ifadə vasitələrinin formalaşmasını təmin edir ki, bu da melodik dilin yeni cizgilərdə tərənnümünü təmin edir (bax: 144-145-ci; 155-156-cı xanələr).

«Dastanı»nın IV hissəsinin melodik dilinin formalaşmasında 9/8, 12/8, «Ad libitum», 6/8, 3/8, 3/4 metrik ölçülərdən geniş istifadə olunmuşdur. Bu hissənin melodik dilinin formalaşmasında, əsasən, 9/8-lik metrik ölçüdə olan ritmik formullar təşkil etmişdir. Onu da qeyd edim ki, vokal partiyanın müşayiətində bu ritmik formulu ikinci nümunədə göstərilən ritmik formullar əvəz etmişdir (bax: 164-cü xanə – 1-ci nümunə; 168-ci xanə – 2-ci nümunə).

IV hissənin melodik dilinin formalaşmasında 9/8-lik ölçüsünün müxtəlif ritmik quruluşları ilə də rastlaşırıq ki, bu da melodik dilin çoxplanlı variantlarının meydana çıxmasına zəmin yaratmışdır (bax: 164-cü; 167-ci; 177-ci; 182-ci xanələr).

«Dastanı»nın metro-ritmik quruluşunun nəzəri təhlili göstərdi ki, burada müxtəlif metrik ölçülərdən istifadə olunması ilə yanaşı, eyni metrik ölçülərin müxtəlif metrik şəkillərindən də geniş istifadə olunmuşdur. Havacatın əsas mövzusunun və ayrı-ayrı hissələrin melodik bünövrəsinin əsasını təhlildə qeyd edilən ritmik formullar təşkil etmişdir.

«Dastanı» aşıq havası əvvəlki havacatlardan **forma** baxımından daha genişdir, belə ki, o, **A+B+C+D** dörd hissəli vokal və instrumental partiyadın ibarətdir.

I hissə (**A**) geniş instrumental giriş partiyası ilə başlayır. Sərbəst aşağıya doğru hərəkət edən qammavari musiqidən sonra 9/8, 6/8, 2/4, 3/8 ölçülü iyirmi üç xanəli giriş verilir. «Moderato» tempində ifa olunan bu epizodun formayaradıcı strukturunda istifadə edilən forşlaq, mordent, trel, xırda ritmik konfiqurasiyalar və müşayiətdə verilən kvarta-kvinta diapazonu girişə xüsusi oynaqlıq gətirir.

Girişdən sonra I hissənin vokal partiyası başlayır ki, burada musiqi fikiri iki cümlədə öz əksini tapır. Birinci **a** cümləsi doqquz xanəli «Başına döndüyüm» sözləri ilə başlayır. Melodika-intonasiya etibarı ilə sıx, yəni tersiya diapazonunda yazılıb. Müşayiət partiyasında isə sadə, ritmika cəhətdən isə girişin intonasiyaları eşidilir. İkinci **a1** cümləsi isə, birinci cümləni bir qədər ritmik ölçülər baxımından dəyişdirilmiş şəkildə təkrar edir. I hissə 10-xanəli instrumental ifa ilə tamamlanır və onun ümümi musiqi formasını bu şəkildə vermək olar.

______A________

G +vok. part.

a+a1

Havacatın II hissəsi (**B**) 10-xanəli instrumental girişlə başlayır. Ritmika və melodika baxımındın I hissənin girişi ilə oxşarlıq təşkil edən II hissənin girişindən sonra beş bölmədən ibarət vokal partiya başlayır. Bölmələr bir-biri ilə instrumental ifa vasitəsi ilə bağlanılır. Birinci bölmə **a** on iki xanədə öz inkişafını tapır və I hissənin melodiyasına bir qədər oxşardır. İkinci **a1** bölməsi on xanə içərisində birinci bölməni çox da nəzərə çarpmayan metro-ritmik dəyişikliklərlə təkrar edir. Doqquz xanədən ibarət olan üçüncü **b** bölməsi «Ad libitum»la keçir. Melodika və ritmika dəyişkənliyi və bir qədər yeniləşən dördüncü **c** bölməsi on bir xanədən ibarətdir. Birinci bölməni təkrar edən sonuncu beşinci **a** bölməsidir ki, onun da ifası on xanə çərçivəsində verilir.

_______B_______

G + vok. part.

a+a1+b+c+a

Havacatın 18 xanəli III hissəsi əvvəlki hissələrin giriş partiyasından mövzu və melodika baxımından tamami ilə fərqlənən girişlə başlayır. Vokal partiya isə, iki cümlədən ibarətdir, birinci **a**–on xanədən ibarətdirsə, ikinci, **a1** cümləsi isə birinci cümləni səkkiz xanədə təkrar edir. III hissə 5-xanəli instrumental ifa ilə bitir.

______C________

G + vok. part.

a + a1

Havacatın IV hissəsi, (**D**) «Des dur» tonallığında kiçik üç xanəli girişlə başlayır. Vokal partiyası isə üç bölmədən ibarətdir. Orta bölmə «ad libitum» sərbəst ölçülü və deklamasiya üslubunda verilib. Digər bölmələrdə melizmlərdən geniş istifadə olunub:

_____D_______

G + vok. part.

a+b+c

Beləliklə, «Dastanı»nın musiqi forması bu şəkildə verilib.

| _____A_____+ | _____B_____+ | _____C_____+ | _____D_______ |
|---|---|---|---|
| G + vok. part. | G + vok. part. | G + vok.part. | G + vok. part. |
| a+a1 | a+a1+b+c+a | a + a1 | a+b+c |

«Dastanı» havasının musiqi formasının nəzəri təhlili göstərdi ki, dastanda ifa edilən digər havalarla müqayisədə o, formasına görə geniş və mürəkkəbdir. Dörd müstəqil hissələrdən ibarət olan bu havacatın əsas melodik özək bünövrəsini və bütün hissələri vahid lad-intonasiya çərçivəsində birləşdirən a+a1 musiqi epizodlarıdır. Havacatın geniş əhatəli təqdimatı mətnin poetik semantikasından irəli gəlməsi də təbiidir.

### «Gülabi» aşıq havası

«Gülabi» aşıq havası «Rast» muğamının «Şikəsteyi-Fars» şöbəsinin lad-intonasiyaları üstündə bəstələnmişdir. Öz melodik strukturuna görə digər aşıq havacatlarından fərqlənən «Gülabi» nin melodik dilində xalq mahnısından da istifadə olunmuşdur. Havacatın ilk xanələri sırf aşıq yaradıcılığına xas metro-ritmik formullar əsasında verilməsi ona aşıq ənənəsi ilə başlandığını göstərirsə sonraki yeddinci xanədən sonra xalq mahnısına məxsus melodik dilin ifaya daxil edilməsi lad-tonal baxımından öz gözəl təcəssümünü, ifadəsini tapmışdır. Havacatın melodiyasının bu səpkidə qurulması onu göstərir ki, eyni lad bünövrəsi əsasında

müxtəlif ifa üslüblarını tərənnüm edən melodik fikirləri ifa etmək mümkündür. Bu Azərbaycan milli lad-intonasiyaların geniş imkanları göstərir. Onu xüsusi olaraq qeyd edək ki, milli ladlarda intonasiyaların mayə və istinad pərdələri əsasında elə bir səpkidə qurulması mövcuddur ki, onun potensial imkanlarından düzgün istifadə edildikdə müxtəlif ifa üslüblarını, fikir və obrazları həmin lad quruluşu əsasında ifadə etmək olar. Bu da onu göstərir ki, təhlil etdiyimiz havacatda verilmiş nümunəyə oxşar ifa formalarının eyni melodik dildə işlədilməsi «Şikəsteyi-Fars» şöbəsinin intonasiya çeşidlərinin zənginliyi ilə bağlıdır. Aşağıdakı not nümunəsində «Şikəsteyi-Fars»ın səsdüzümü və lad quruluşu verilmişdir.



Lad quruluşuna görə əvvəlki strukturlardan o qədərdə fərqlənməyən «Şikəsteyi-Fars»ın lad bünövrəsi zahiri görünüşcə fərqli olmasa da, tonlar arasındakı məsafələrə və tonal xüsusiyyətlərinə görə fərqlidir. Yuxarıda göstərilən lad quruluşuda səslər aralarındaki məsafələrin 1+1+1/2 traxordu üzrə qurulması «Rast» muğamının lad quruluşunu vermiş olur.

«Gülabi»nin vokal, instrumental partiyalarında melodik quruluşlar ladın müxtəlif pərdələri əsasında verilməsi eyni lad quruluşunda həm «Rast», həm də «Şikəsteyi-Fars»ın lad-intonasiyalarının qarşılıqlı şəkildə işlədilməsi ilə nəticələnmişdir. Məsələn, I hissənin əvvəlində verilmiş doxsanıncı xanəyə qədər melodik fikirlər «Rast» ladının intonasiyalarına istinad edirsə, ondan sonrakı xanələrdə istinad pərdəsininin yeri dəyişdirilərək «e» səsinə keçirildiyi üçün burada «Şikəsteyi-Fars» şöbəsinin intonasiyaları üstünlük təşkil edir. Həm I- ci hissənin əvvəlində, həm də II hissənin instrumental partiyalarında birinci oktavada «gis» səsinin işlədilməsi nəticəsində «Segah» muğamının intonasiyalarının eşidilməsi laddaxili «Rast-Segah» muğamlarının intonasiyalarının qarşılaşdırılmasını xatırladır.

Havacatın II hissəsində «e» və «h» istinad pərdələrindən melodik fikirlərin formalaşmasında geniş istifadə edilmişdir. Bu üslubdan ifaçı havacatın sonuna qədər yararlanır. Ümumiyyətlə qeyd edək ki, «Gülabi» havacatı «Şikəsteyi- Fars» şöbəsinin üstündə olmasından asılı olmayaraq ifaçının həm «Rast», həm də «Segah» intonasiyalarından müqayisəli şəkildə, bir-birini əvəzləmə prinsipi ilə istifadə etməsi nəticəsində həm lad qarşılaşdırmasını, həm tonal effektlərini yaratmağının şahidi oluruq.

«Gülabi» havasının Onun melodiyasının lirik çalarları və «Segah» intonasiyaları («Şikəsteyi-Fars») ilə dolu olan musiqi obrazları melodik dilin ahənginə, lirizminə xüsusi təravət gətirmişdir. Havacatın **melodik dilinin** quruluşu el arasında məhşur olan «Yaxan düymə» xalq mahnısının əsas mövzusundan götürülmüşdür. Melodik dilin axıcılığı və geniş əhatəliliyi sanki elin-obanın füsünkar gözəlliyini vəsf edən musiqi obrazlarını diqqətə çatdırır. Havacatın bütün fakturası qeyd etdiyimiz xalq mahnısının əsas mövzusunun arxitektonik strukturunun elementləri əsasında yaradılmışdır. Birinci xanədən başlamış musiqi tonlarının ritmik formullar əsasında verilməsi və onun sonluğunun birinci xanədə «h» səsində, ikinci xanədə isə «a» səsində bitməsi birinci halda «Segah» muğamının, ikinci halda isə «Mahur» muğamının lad çalarlarının intonasiyalarını canlandırılması ilə diqqəti cəlb edir.

Havacatın altı xanədən ibarət instrumental giriş partiyasından sonra, əsas mövzunun melodiyası səsləndirilir. Hər biri altı xanəlik iki musiqi fikirlərindən ibarət əsas mövzu aşıq yaradıcılığından daha çox muğam üslubuna meyilli olan musiqi quruluşuna malikdir. Bunu not misalında görmək olar (bax: 7–14-cü xanələr). Maraqlı burasıdır ki, melodik dilin quruluşunda aşıq ənənəsinə xas melodik dilin formalaşdırılması üçün muğam meyilli xalq musiqi üslubundan istifadə edilməklə ifaya keçid xarakterli musiqi obrazları da daxil edilmişdir. Həmin musiqi obrazları əsas mövzunun elementəmin edilir (bax: 19–21-ci xanələr).

«Gülabi»nın melodik dilinin formalaşmasında 3/8 və 2/4 metrik ölçütlərindən götürülsə də, verilən not misalında üçüncü xanənin elementinin sekvensiyavari ton-ton aşağı enməsi nəticəsində aşıq yaradıcılığına xas melodik dilin formalaşması lərinin ritmik formullarından da geniş istifadə olunmuşdur. Məhz bu ritmik amillər havacatın melodik dilinin oynaqlığına, rəqsvari xarakterik xüsusiyyətlərinə geniş imkan açmışdır.

Vokal-instrumental partiyasının melodik dili sadə quruluşa malikdir. Vokal partiyasının melodik xəttini bir növ iki yerə ayıraraq təhlil etmək olar, çünki onun melodik dilinin quruluşunda başlanğıcda qeyd etdiyimiz kimi, «Segah» və «Mahur» muğamlarının intonasiyalarından geşin şəkildə istifadə olunmuşdur. İstinad pərdələrinin tez-tez dəyişdirilməsi nəticəsində melodik fikirlər gah kiçik oktavanın «a» səsində, gah da həmin oktavanın «h» səsində tamamlanır. Vokal partiyanın instrumental müşayiətin solo simində imitasiya şəklində təkrarlanması melodiyanın həm vokal ifada, həm də sazın ifasında, ikili formada, bütün faktura boyu səsləndirilməsinə şərait yaratmışdır.

I hissənin vokal-instrumental partiyası harmonik və texniki cəhətdən dolğun obrazlarla verilməsə də, melodik dilinin öz təravəti və gözəlliyi yadda qalan rəngarəng obrazlarla dinləyicinin zövqünə oxşayır. Vokal partiyanın ifasında aşıq ənənsinə xas zəngülə xarakterli boğaz texnikalarından da istifadə olunur. I hissənin sonluğunda verilən müşayiət partiyasının üç xanəli koda xarakterli epizodunda əsas mövzunun elementindən istifadə olunmuşdur. Bu element II hissənin və III hissənin instrumental myşayiət partiyasının əsas elementlərini təşkil edir.

II hissənin instrumental partiyası 23 xanəli giriş hissə ilə başlayır. Bu hissənin melodik quruluşu əsas mövzunun elementləri əsasında yaradılsa da, yenə də sekvensiya üsulundan istifadə edilməklə ton-ton aşağı eniş nəticəsində aşıq yaradıcılığına xas melodik dil formalaşmışdır. Həmin element göstərilən not misalında verilmişdir (bax: 134–cü xanə).

II hissənin vokal-instrumetal partiyası eyni ilə I hissədə olduğu kimi başlayır. Həm müşayiət, həm də vokal partiyalarının fakturaları prinsipcə bir-birinə oxşardır. II hissənin sonluğu 16 xanədən ibarət instrumental girişlə bitir. Bu, harmonik səslənməsinə görə əvvəlki epizodlardan fərqlidir, daha dolğun və səciyyəvidir.

III hissənin instrumental partiyasının muşayiəti I və II hissələrdə verilmiş əsas mövzunun elementləri əsasında yaradılmışdır. Melodik dilin quruluşunda texniki ifa ilə yanaşı, ritmik formullar da xüsusi rol oynayır. III hissənin vokal partiyası da I və II hissələrədə olan musiqi dil xüsusiyyətləri ilə eynilik təşkil edir. Fakturadan görünür ki, faktiki olaraq həm üslub, həm lad-intonasiya və həm də forma quruluşuna görə onlar eyni mahiyyət daşıyır.

«Gülabi»nın melodik dilinin nəzəri təhlilindən görürük ki, onun melodik dilinin əsası xalq musiqisinin və aşıq yaradıcılığının melodik dil xüsusiyyətləri zəminində yaradılmışdır. Melodik dilinin formalaşmasında ritmik formullardan, sekvensiya üsulundan formayaradıcı amil kimi geniş istifadə edilmişdir.

«Gülabi» aşıq havasının I hissəsinin **metrik** ölçüləri 3/8 və 2/4-dür. Bu ölçülər «Gülabi» havasının bütün hissələrində əsas aparıcı rol oynayır. Havacatın ritmik formulları melodik dilin formayaradıcı amili kimi çox böyük əhəmiyyətə malikdir. Nəzərə alsaq ki, havacatın melodik dilinin formalaşması xalq musiqisi və aşıq melodiyalarının xarakterik xüsusiyyətləri əsasında yaradılmışdır, onda burada, 3/8 metrik ölçünün hər iki üslub üçün xarakterik olduğu əyani olaraq ortaya çıxmış olur. Giriş hissəsində verilmiş metrik formullar bütövlükdə havacatın melodik quruluşunun özəyini təşkil etmişdir. Not nümunəsində ayrı-ayrı xanələrin ritmik formullarının quruluşları göstərilmişdir. Məhz həmin ritmik formullar, qeyd etdiyimiz kimi, havacatın fakturasında əsas formayaradıcı amil kimi böyük rol oynamışdır (bax: 1-ci; 3-cü; 9–10-cu; 13-15-ci; 18 - ci xanələr).

Vokal-instrumental partiyanın ritmik formulları da yuxarıda göstərilən ritmik formullar əsasında verilmişdir. I hissənin

sonuna yaxın ritmik formullar insturmental müşayiət partiyasında bir qədər dəyişdirilərək oynaq xarakteri təcəssüm etdirən formullar əsasında tərtib edilmişdir. Sazın ifasında olan melodik sim (I sim) və müşayiət edici simlərin ritmik şəkilləri, müxtəlif səpkilərdə qurulsa da, səslənmədə vahid çalarlığı nümayiş etdirir (bax: 90-93-cü xanələr).

Havacatın II hissəsi, 23 xanəli giriş partiyası ilə başlayır. Onun fakturasını da I hissənin girişində verilmiş birinci xanənin ritmik formulu təşkil edir. II hissənin vokal-instrumental partiyasının ritmik formulları əsasən 3/8 metrik ölçüyə əsaslanır. II hissənin son müşayiət partiyasının ifasında ritmik formullar melodik dilin formalaşmasında özünə məxsus rol oynamışdır. Not nümunəsindən göründüyü kimi, sazın müşayiət simlərinin ritmik formulları ilə melodik simdə ifa edilən ritmik formulların şəkilləri müxtəlifdir. Məhz belə rəngarənglik aşıq ifaçılıq ənənəsinə məxsus özəllikdən irəli gəlir (bax: 140-144-cü xanələr).

«Gülabi»nin III hissənin müşayiət partiyasının metrik ölçülərində 5/8-dən də istifadə olunmuşdur. Həm vokal-instrumental partiyanın, həm də müşayiət partiyasının ritmik quruluşları müşayiət prosessində bir-birini təkrar etdiyi üçün eyni şəkillərə və quruluşlara malikdir.

«Gülabi»nin metrik və ritmik quruluşunun nəzəri təhlili göstərir ki, fakturada rəngarəng metrik ölçülərdən istifadə olunmasa da, əvvəldə verilmiş ritmik formullar «Gülabi»nin melodik bünövrəsinin əsasını təşkil etmişdir. Xanədaxili ritmik şəkillərin dəyişdirilməsi nəticəsində melodik dilin ifadəliliyində müəyyət dəyişikliklər də əldə edilmişdir ki, bu da melodik dilin rəngarəngində öz əksini tapmışdır.

«Gülabi» havasının **musiqi forması** böyük həcmdə yazılıb. Üç **A+B+C** hissədən ibarət olan «Gülabi» havasının hər bir hissəsi özünə məxsusluğu ilə fərqlənir.

I hissə (**A**) «h moll» tonallığında 35-xanədən ibarət verilən geniş instrumental girişlə başlayır. Burada ritmik formul əsasən

3/8-lik ölçü ilə verilsə də ifaya digər ölçünün 2/4 də daxil olması istisna olunmur. Girişin inkişaf prossesində müəyyən alterasiyalardan da istifadə olunur (VI pərdə artır, XI pərdə əksilir). «Moderato-Alleqro» tempində ifa olunan giriş partiyasının melodiyasına müxtəlif melizmlər (trel, mordent) zənginlik gətirsə də, bir qədər mürəkkəb faktura, sinkopalı xanələr onun xarakterinə ciddilik verir.

I hissənin vokal partiyası üç **a+a1+a2** vokal bölmədən ibarətdir. Birinci **a** bölməsi girişin mövzusuna oxşardır və onun melodik strukturunun formayaradıcı amillərində səkkizlik, onaltılıq notlardan geniş istifadə olunub. Doqquz xanəli birinci bölmənin davamı 11-xanəli ikinci **a1** və on xanəli üçüncü **a2** bölmələrində davam etdirilir.

__________A__________

G + vok. part.

a+a1+a2

Havacatın II hissəsi (**B**) ənənəvi olaraq instrumental giriş və vokal partiyalardan ibarətdir. İyirmi üç xanəli (130-152-ci xanələr) instrumental giriş I hissənin giriş partiyası üzərində qurulub. Giriş partiyalarının tematik oxşarlıqları ayrı-ayrı hissələri bir vahid kompozisiyada böirləşdirmək məqsədinə yönəldilmişdir. Vokal partiyaların hər üç bölməsi isə sanki yenə də I hissənin vokal partiyasının təkrarıdır.

İkinci hissənin musiqi formasını aşağıdakı şəkildə vermək olar.

_______B_______

G + vok.part.

a+a1+a2

III hissə (**C**) 12-xanəli (154-165-ci xanələr) instrumental girişlə başlayır. Girişin əvvəlki hissələrin giriş partiyalarından fərqi ondadır ki, burada son xanələrdə «Ah yar ey» sözləri ilə vokal səslənmə verilir. III hissənin vokal partiyası əvvəlki hissələrdə olduğu kimi üç bölmədən ibarətdir ki, burada da bölmələr arasında fərqlilik yoxdur. Melodika-intonasiya, ritmika, faktura

hər bölmədə olduğu kimi saxlanılıb. Havacat, demək olar ki, vokal partiya ilə tamamlanır.

_______C_______

G + vok.part.

a+a1+a2

Beləliklə, «Gülabi» aşıq havasının musiqi forması bu sxem üzrə verilib.

| _____A______ + | _______B________+ | _______C_________ |
|---|---|---|
| G + vok. part. | G + vok. part. | G + vok. part. |
| a+a1+a2 | a+a1+a2 | a+a1+a2 |

«Gülabi» aşıq havasının musiqi formasının təhlili göstərdi ki, o, üç hissəli formada təqdim olunsa da, klassik ifa formasında o bir hissəli formada özünü göstərir. Dastanın semantikasını, mətninin poetik çalarlarını dinləyiciyə çatdırılması üçün ifada havacatın musiqi forması geniş, əhatəli şəkildə təqdim olunmuşdur. Hər üç hissənin girişinin, vokal partiyalarının, o cümlədən a+a1+a2 musiqi epizodlarının təkrarlarla verilməsi yuxarıda deyilən fikrimizi bir daha təsdiq edir.

## «Güllü Göyçə» aşıq havası

«Aşıq Qərib» dastanında «Güllü Göyçə» adı ilə verilmiş havacat «Göyçə gülü» klassik aşıq havasıdır. Bu havacat aşıqsevərlər arasında o qədər məşhurdur ki, Azərbaycanın bütün aşıq mühitlərində ifaçılar onu öz repertuarına salıb böyük məşarətlə ifa edirlər. Havacat «Rast» muğamının lad-intonasiya quruluşu əsasındadır. Havacatın aşağıdakı lad quruluşu həm instrumental, həm də vokal partiyalarının diapazonunu özündə cəmləşdirmişdir.



Vokal partiyasının əksidilmiş kvinta («c–qes») intervalı həcmində olması təhlil edilən havacatın qədim ənənəyə söykəndiyini

nümayiş etdirir. «Rast» muğamının lad quruluşunda «es, f» və «c» səsləri özünü funksional baxımdan göstərir. Burada «c» səsi «Rast» ladının mayə tonal yüksəkliyini göstərirsə, digər iki səs onun istinad pərdələridir. Havacatın bütün melodik quruluşu ayrı-ayır musiqi fikirləri, cümlələri məhz bu üç səs ətrafında formalaşdırılmışdır.

«Güllü Göyçə» intonasiya xüsusiyyətlərinə görə «Rast» muğamını xarakterizə etsə də, ladın major mahiyyəti musiqi dilinin canlı, təmtəraqlı olmasına geniş imkanlar açmışdır. Havacatın melodik quruluşunda ostinatlı metro-ritmik quruluşdan istifadə olunması ladın xarakteristikasını qabarıq şəkildə ortaya çıxarmış olur.

«Güllü Göyçə»nin lad-intonasiya quruluşunun nəzəri təhlilindən görünür ki, bütün faktura boyu lad məkanı dəyişməz qalır. «Rast» muğamı əksər aşıq havacatlarının lad quruluşunda özünü göstərdiyi üçün bu havacatın ladintonasiyaları özünü digər havacatların melodik dilinin intonasiya xüsusiyyətləri ilə doğmalaşdırır və yaxınlaşdırır. Faktiki olaraq təhlil edilən havacat daha qədim tarixə malik olduğu üçün aşıq yaradıcılığında «Rast» üstündə yaradılan digər havacatların məhz bu havanın intonasiyalarından, ifa üslub tərzindən, metro-ritmik quruluşundan bəhrələndiyini ortaya çıxarmış olur.

«Güllü Göyçə»nin **melodik dili**, milli aşıq ənənəsinə uyğun formada həyata keçirilmişdir. İnstrumental giriş partiyasında melodik fikirdən qabaq altı xanədən ibarət ritmik quruluşlar ifa edilir. Və sanki bununla da, təsdiq edilir ki, havacatın melodik bünövrəsi məhz bu metrik ölçülərin əsasında səsləndiriləcək. Onu da qeyd edim ki, burada vurğular hər xanəyə yox, faktiki olaraq, bir xanədən bir xanələr üzərinə düşür. Belə vurğulu melodik quruluşlarda, melodiyanın xarakteri, liriko-psixoloji cəhətləri özündə əxs etdirmiş olur.

İnstrumental partiyanın melodik dili, geniş olmayan diapazon daxilində verilmişdir. Faktiki olaraq, həm müşayiət partiyasında, həm də vokal-instrumental partiyada verilən musiqi fikirlərin melodik bünövrəsi «es» pərdəsinə, bəzi hallarda isə «f»

pərdəsinə əsaslanmışdır. Melodik dilin formayaradıcı amilində ritmik komponentlər böyük rol oynayır. Bunu həm vokal partiyanın başlanğıcında və müşayiət partiyasının ifa tərzində görmək olar (bax: 36 – 38-ci xanələr).

Maraqlı burasıdır ki, vokal partiyanın ifasından qabaq və bəzi hallarda, ondan sonra ifa edilən müşayiət partiyasında, ritmik formullar qabarıq şəkildə önə çəkilir. «Güllü Göyçə»nin melodik dilinin quruluşunda qısa forşlaqlardan, mordentlərdən geniş istifadə edilir. Ümumiyyətlə, onu qeyd edim ki, qısa forşlaqların havacata tez-tez salınması Borçalı mühitinin aşıq ifa tərzinə xas cəhətdir. Not nümunəsində belə ifa tərzinə xas cəhətləri görürük (bax: 55-56-cı; 77-78-ci; 140-cü xanələr).

I hissənin orta hissəsində «Ad libitum»dan geniş istifadə olunur. «Ad libitum»un əvvəlki xanəsi 9/8 metrik ölçüyə əsaslansa da, sonrakı inkişaf prosesində, sərbəst metrik ölçülərdən istifadə olunmuşdur. İfaçı «Ad libitum»la sonrakı gələn, dəqiq metrik ölçüyə əsaslanan vokal partiyalar arasına instrumenttal partiyasını daxil edir. Həmin müşayiət partiyasında metrik ölçülərin melodik bünövrənin əsasını təşkil edilməsini aydin şəkildə görmək olar (bax: 120-129-cu xanələr).

«Güllü Göyçə»nin I hissənin son dörd xanəlik kodaya bənzər yekun musiqi fikri əsərin sonluğunda verilmiş beş xanəlik sonluqla xaraktercə eyni mahiyyət daşıyır və ritmik formulların səsləndirilməsi ilə havacat sona çatdırılır. Bu faktın özüdə sübuta yetirir ki, melodik bünövrənin yaranmasında ritmik formulalar çox böyük əhəmiyyətə malik olmuşdur.

«Güllü Göyçə»nin II hissəsinin melodik dili I hissədən fərqlidir. Lakin bu hissənin də melodiyasının formalaşmasında ritmik amillər əhəmiyyətli rol oynayır. I hissədən fərqli olaraq, II hissədə melodiyanın inkişafının izlənilməsi onun yüksələn və ya enən xətt üzrə hərəkətini müşahidə etməyə imkan verir. Not misalında melodik dilin həzinliyi, lirik mahiyyəti aydın izlənilir (bax: 177-189-cu xanələr).

II hissənin vokal partiyasının dili də I hissədən bir qədər fərqlidir. Vokal partiyanın melodik dilinin diapazonu kiçik sekstaya («c–as») qədər genişləndirilmişdir. Melodik fakturanın belə olması onun şaqraq və daha rövnəq səsləndiyini göstərir. Vokal partiyanın verilən not nümunəsində bunu bariz şəkildə görə bilərik (bax: 128-142-ci xanələr).

«Güllü Göyçə»nin melodik quruluşunun təhlili göstərir ki, onun formalaşmasında ritmik formullar böyük əhəmiyyət daşımışdır. Hər iki hissənin melodik dili bir birindən fərqli olsa da, onların formalaşmasında və inkişafında məhz ritmik amillərin xüsusi əhəmiyyəti olmuşdur. Melodik dilin quruluşunda tez-tez istifadə olunan qısa forşlaqlar Borçalı aşıq mühütinə, ifaçılıq ənənəsinə xas olduğu üçün Qərbi Azərbaycan aşıq mühütinə xas «Güllü Göyçə»nin digər bir aşıq ifa məktəbi üslubunda ərsəyə gətirilməsinin şahidi oluruq.

Aşıq yaradıcılığı repertuarında özünə məxsus yer tutan «Güllü Göyçə» Qərbi Azərbaycan aşıq məktəbinin spesifik xüsusiyyətlərinin metro-ritmik, melodik ənənələrini özündə əks etdirmişdir. Bu havanın **metro-ritmik** quruluşuna nəzər salaq.

Havacatın I hissəsi geniş və əhatəlidir. Burada istifadə olunan metrik ölçülər Göycə aşıq mühitinə xasdır. Havacatda 3/8, 2/8, 6/8, 2/4, 3/8, 9/8 və s. metrik ölçülərdən istifadə olunması, həmin ənənənin təzahürüdür. 35 xanəlik instrumental giriş partiyadan ibarət olan melodik quruluşda 3/8, 2/8, 6/8 metrik ölçülərin istifadə olunması, xanədaxili metrik qruplaşmalarda öz əksini tapmışdır. İlk baxışdan metrik cəhətdən sadə görünən bu quruluşların xanədaxili metrik şəkillərinin tez-tez dəyişdirilməsi, onun səslənməsini dəyişkən və maraqlı edir. Göstərilən not nümunəsində qeyd edilən metrik komponentlərin şahidi olmaq olar (bax: 1–2-ci; 8-ci; 11-ci; 13–14-cü; 21-ci xanələr).

«Güllü Göyçə»nin vokal partiyasının quruluşunda dəqiq metrik ölçülərlə yanaşı, «Ad libitum»dan da istifadə olunub. Vokal partiyasının əvvəlindən müxtəlif boğaz texnikalardan isti-

fadə olunması dəqiq ritmik bünövrəyə əsaslanır. Deklamativ xarakterli ifa tərzləri isə «Ad libitum»la həyata keçirilmişdir. Əvvəlki təhlildən fərqli olaraq, burada 3/8, 6/8 metrik ölçülərdən daha çox istifadə olunur.

Təhlil etdiyimiz havacatın formaca böyük olmayan II hissəsində instrumental giriş partiyası 6/8 metrik ölçüyə əsaslanır. Sözsüz ki, bu metrik quruluş əsasında yaradılan musiqi fikirləri və melodik bünövrə də əvvəlkindən fərqli olacaq. II hissənin melodik quruluşunun ritmik komponentləri not misalındaki formullarda həyata keçirilmişdir (bax: 177-179-cu; 184-186-cı; 187-ci xanələr).

II hissənin vokal partiyasının metrik quruluşları qeyd etdiyimiz kimi, 3/8, 6/8 ritmik quruluşlar əsasında yaradılmışdır. Bu metrik quruluşlar əsasında yaradılan melodik dil sadə və anlaşıqlıdır. II hissə 5 xanəlik kodaya məxsus ifa tərzi ilə bitir. Maraqlı burasıdır ki, əsərə sonluq verən bu ifada hər hansı bir melodik bünövrəyə yox, ritmik formullara əsaslanılmışdır (bax: son sətir).

Göstərilən not nümunəsindəki ritmik formullar, əsərin aşıq ənənəsinə xas şəkildə bitməsinə şərait yaratmışdır.

«Güllü Göyçə»nin ritmik komponentlərinin təhlili göstərir ki, burada istifadə edələn ritmik formullar Göyçə aşıq ənənəsinə xasdır. Həmin ritmik formullar əsasında yaradılan melodik frazalar, fikirlər müxtəlif mahiyyət daşısa da, əsərin ümumi melodik planının formalaşmasında xüsusi əhəmiyyət kəsb etmişdir. Nümunə şəkilində göstərilər ritmik formullar, havacatın oynaq xarakterinə və melodik ibarələrin dəqiq metrik ölçülər əsasında formalaşmasına geniş şərait yaratmışdır.

«Güllü Göyçə» aşıq havası iki hissəli **A+B formada** təqdim olunur. Havacatın I hissəsi II hissəyə nisbətən daha genişdir. Havacat instrumental giriş partiyası ilə başlayır və iki hissəyə bölünür. Girişin birinci hissəsi otuz beş xanəli, olduqca dəyişkən ölçülü 3/8, 2/8, 6/8, 3/8, 6/8 instrumental çalğıdan ibarətdir. O, «Moderato» tempində, şərti ölçülülərlə və kvarta-kvinta diapazonunda keçir.

Sinkopalı ritm melodiyanı oynaq və hərəkətli edir. Girişin ikinci hissəsi isə vokal ifadan ibarətdir. Ümumiyyətlə, ikinci hissəni havacatın əsas I hissəsinin başlanğıcı kimi də qəbul etmək olar.

____G____
a + b

I hissə (**A**) beş bölmədən ibarətdir. Birinci **a** bölməsi on döqquz xanəli, dəyişkən ölçülü, lakin sadə ritmikalıdır. Yeddi xanəli instrumental ifa ikinci **b** bölməsini birinci ilə bağlayır. Yeni mövzu üzərində qurulan bu bölmədə mordent, forşlaq kimi melizmlərdən istifadə edilib. On iki xanəli instrumental ifa, üçüncü **c** bölməsinə keçidi təmin edir. Bölmə reçitativ-deklamasiya üslubunda verilib. Birinci **a** bölməsinin mövzusu üzəringə verilən dördüncü **a1** bölməsi 19-xanəli instrumental ifadan sonra başlayır. Mövzunun bir qədər dəyişirilmiş halda keçirilməsi beşinci **a2** bölməsində baş verir. Aşağıda göstərilən I hissənin musiqi forması verilən təhlildən irəli gələn nəticədir.

_____A_____
a+b+c+a1+a2

Havacatın II hissəsi instrumental giriş partiyası ilə başlayır. Giriş I hissənin müşayiət partiyası ilə oxşarlıq təşkil edir. II hissənin vokal partiyası iki bölmədən ibarətdir. Hər iki bölmədə müxtəlif melizmlərdən (triol, mordent, forşlaq), şərti ölçülərdən geniş istifadə olunub. Bu isə melodiyanı hərəkətli və oynaq edir.

_____B________
G + vok. part.
a + b

Beləliklə, «Güllü Göyçə»nin musiqi forması aşağıdakı şəkildə verilmişdir.

____G____ + _____A______ + _______B_______
a + b a+b+c+a1+a2 G + vok. part.
a + b

«Güllü göyçə»nin musiqi formasının nəzəri təhlili onun sadə ikihissəli formada olmasını üzə çıxardı. Havacatın ifasında

giriş hissəsinin faktiki olaraq müstəqil hissə kimi özünü göstərməsi havacatın musiqi formasını bir qədər də genişləndirir. Giriş hissənin geniş təqdimatı dastan yaradıcılığı üçün xarakterik cəhətdir. Dastanın süjeti əsasında söylənilləcək mətnin təqdimatından qabaq məclisi qızışdırmaq, dinləyicilərin diqqətini ifa olunacaq havacata yönəltmək üçün girişi müstəqil hissə kimi təqdim etmək dastan söyləyicisinin - aşığın ifa üslubundan irəli gəlir. Birinci hissənin də geniş şəkildə ifasında **c+a1+a2** epizodları ifaya əlavə edilmişdir.

## «Kərəm köçdü» aşıq havası

«Kərəm köçdü» aşıq havası «Rast» muğamının «Şikəsteyi-Fars» şöbəsinin lad-intonasiyaları əsasında yaradılmışdır. Havacatın ümumi lad-quruluşu «Rast» ladına əsaslansa da bu havacatın «Şikəsteyi-Fars» şöbəsi üstündə qurulması dastanın ümumi kompozisiyasından irəli gələn tələbatdan doğmuşdur. «Şikəsteyi-Fars» və ya «Xocəstə» şöbələri bir çox muğamlarda, o cümlədən «Rast» muğamında da əsas aparıcı şöbələrdən biri olsa da «Segah» muğamının intonasiyalarına əsaslanır. Bu mənada «Kərəm köçdü» havasını «Şikəsteyi-Fars» üstündə olmasını təsdiq etsək də, bir sıra məqamlarda onun «Rast» lad-intonasiyaları əsasında formalaşmasını da qəbul etməliyik.



«Kərəm köçdü» havasının melodik bünövrəsi, əsasən, «Şikəsteyi-Fars» şöbəsinin «es» istinad pərdəsi əsaında qurulmuşdur. I hissənin vokal partiyasının melodik quruluşunda ladın «es» və «f» səslərindən daha çox istifadə olunması «Şikəsteyi-Fars»ın üstü adlandırılan «es» pərdəsinin (Mübərriqə–N.R.) funksional əhəmiyyətini daha da dərinləşdirir. Aşağıdakı not misalında vokal partiyanın lad quruluşu göstərilmişdir.



Kvarta həcmində olan səs diapazonu daxilində qurulan melodik cümlələr aşıq yaradıcılığı üçün xarakterikdir. Havacatın II hissəsində melodik fikrin formalaşmasında digər istinad pərdələri olan «c» və «f» tonlarından da geniş istifadə olunmuşdur. Təhlillər göstərir ki, həm vokal partiyada, həm də instrumental partiyada əsasən yuxarıda qeyd edilən üç istinad pərdəsindən («c, es, f») daha çox istifadə olunmuşdur. Aşağıdakı not misalında «Kərəm köçdu»nün vokal-instrumental partiyasının lad quruluşu göstərilmişdir. Vokal partiyadan fərqli olaraq instrumental partiyanın diapazonu geniş olduğu üçün burada lad quruluşunun daha geniş səslərlə əhatə olunması təbiidir.



«Kərəm köçdü»nün «Şikəsteyi-Fars» şöbəsi üstündə olması melodik quruluşun emosional dairəsinə də öz təsirini göstərmişdir. Melodiyanın «Alleqretto» tempində, marşvari, möhtəşəm xarakterdə olması, eyni zamanda «Şikəsteyi-Fars» şöbəsinin yanıqlı intonasiyalarının melodik quruluşda əks olunması havacatın lad-intonasiya quruluşundan irəli gəlir.

«Kərəm köçdü» havasının nəzəri təhlili göstərir ki, melodik fikirin xarakterik xüsusiyyətləri əsərin mənsub olduğu lad-intonasiyalarını tam əks etdirir. Havacatın «Şikəsteyi-Fars» üstündə olması bir tərəfdən «Segah» muğamının intonsaiyalarını, digər tərəfdən isə «Rast»ın müəyyən intonasiyalarını özündə əxz etdirməsi Azərbaycan muğam lad-intonasiyalarının aşıladığı emosional təsirin rəngarəngliyini ifadə edir.

«Kərəm köçdü» havasının **melodik dili**, ənənəvi aşıq üslubundadır. Melodik dilin formalaşmasında lad-intonasiya xüsusiyyətləri ilə yanaşı, metrik ölçülərin də təsiri özünü göstərmək-

dədir. «Kərəm köçdü»nün melodik dilinin formalaşmasında 4/4 və 2/4 ölçüləri, vokal-instrumental partiyanın quruluşunda isə sərbəst metrik ölçülər, «Ad libitum» əsaslı rol oynayır. Əvvəlki təhlil olunan havacatlardan fərqli olaraq, metrik ölçülərin melodik dilin formayaradıcı amillərində müxtəlif metrik ölçülərdən istifadə edərək, melodik dilin arxitektonik quruluşunda rəngarəng ritmik şəkillərin, qruplaşmaların yaradılması hesabına əldə edilirdisə, burada faktiki olaraq stabil, qismən, nadir hallarda dəyişən, metrik ölçülərdən istifadə olunur.

Müşayiət partiyasının dörd çərəyə əsaslanan melodik dilinin ritmik şəkilləri, melodiyanın lirik və qammavari formada quruluşuna geniş şərait yaratmışdır. Verilən not misalında, melodiyanın lirik səpkidə, «meno mosso, kantabile» xarakterində olmasını göstərir (bax: 1-4-cü xanələr).

Vokal-instrumental partiyanın başlanğıcına yaxın, ifaçının melodik dili, bir qədər, dinamik baxımdan gərginləşdirməsi üçün istifadə etdiyi triolların ifaya salınmasını xüsusi olaraq qeyd etmək lazımdır. Not misalında həm melodiyanın milli ornamentlərdən istifadə etməsinin (mordentlər), həm də harmonik cəhətdən zənginləşdirilməsinin şahidi oluruq (bax: 16-19-cu xanələr).

I hissənin vokal partiyası «Ad libitum»la başlayır. Vokal partiyanın bir xanəlik girişindən sonra, ifaçı epizodik olaraq müşayiət partiyalarını, vokal ifaların arasına salır. Bununla da, melodik dilin harmonik səslənməsini təmin edir. Vokal partiyanın ifasında adətən müşayiət partiyasının sadə şəkildə qurulması, bir ənənə kimi qəbul edilirsə, burada ifaçı öz ifasını sazın bütün simlərindən istifadə etməklə zəngin koloritli səslənməni nümayiş etdirir. Əlbəttə, belə ifa tərzində, melodik dilin harmonik baxımından zənginləşdirilməsi ön plana çıxır (bax: 23-cü xanə).

Not misalında göstərildiyi kimi, melodiya ahəngdar səslənən müşayiət partiyasının melodik dili ilə daha da zənginləşdirilir. Yəni, sazın müşayiət simlərinin də iştirak etdiyi səslənmədə, zəngin kvarta-kvinta intervallarının müxtəlif akkordlu kombina-

siyalarından yaranan harmonik səslənmə, melodiyanın ahənginə xüsusi milli kolorit, ahəngdarlıq gətirir.

Müşayiət partiyasının melodik dili qeyd etdiyimiz kimi, səslərin ardıcıl quruluşunu xatırladan qammavari gedişlərin hesabına yaradılırsa, vokal partiyada isə melodik dilin sxematik quruluşu «es» istinad pərdəsinə əsaslanır. Vokal partiyanın melodik dilinin quruluşunda sıçrayışlı və ya böyük intervallı səslərə hərəkəti yoxdur. Melodik dilin formayaradıcı amilində «es» səsinə yaxın məsafədə olan «f» səsindən geniş istifadə olunmuşdur. Faktiki olaraq, «Kərəm köçdü»nün vokal partiyasının melodik dili iki səsin, «es» və «f» səslərinin müxtəlif qruplaşmalarından yaranmışdır.

«Kərəm köçdü»nün II hissəsi 9 xanəlik instrumental girişlə başlayır. İnstrumental partiyanın melodik dili zəngin, koloritli, harmonik baxımdan dolğundur. İnstrumental partiyanın melodiyasında, musiqi dilinin formalaşması üçün geniş diapazondan, ənənəvi aşıq yaradıcılığına xas kvinta diapazonundan istifadə olunur («b–f»).

Vokal-instrumental partiyasının melodik quruluşu əvvəlcə «es», daha sonra isə «c» və «f» istinad pərdələrə əsaslanmışdır. II hissənin vokal partiyasının melodiyasının müxtəlif istinad və mayə pərdəsinə əsaslanması melodik dilin tonal rəngarəgliyini ortaya çıxarmış olur. Burada aşıq yaradıcılığında nadir hallarda istifadə olunan 3/2 metrik ölçüdən də istifadə olunmuşdur. II - ci hissənin melodik dilində diklomasiya üslubundan da istifadə olunur (bax: 68-ci xanə).

«Kərəm köçdü» havasının II hissəsi geniş formaya əsaslanır. Buna görə də ifaçı vokal ifaların arasına instrumental ifaları tez-tez salmaqla vokal partiya ilə solo instrumental partiya arasında dialoq yaratmış olur.

Əsərin sonunda, melodik quruluşun dili artıq mahiyyətcə əvvəlki lirizmi yox, dinamik cəhətdən kodaya xas, daha çevik və möhtəşəm, əzəmətli səslənir (bax: 122-130-cu xanələr). Not mi-

salında verilən melodiyanın inkişaf prinsipi deyilən fikirlərin təsdiqi kimi götürülə bilər.

«Kərəm köçdü»nün melodik dilinin təhlili göstərdi ki, emosional baxımdan daha dolğun və möhtəşəm səslənən instrumental partiyanın melodik dili, ənənəvi aşıq yaradıcılığı prinsiplərinə söykənir. Sazın texniki imkanlarından, harmonik səslənmə ifa metodundan kifayət qədər bacarıqla istifadə olunaraq, havacatın melodik dil xüsusiyyətləri daha geniş, rəngarəng çalarlarda təqdim olunur.

Vokal partiya ilə, instrumental partiya arasında dialoqun yaradılması və II hissədə, vokal partiyanın melodik dilinin formayaradıcı xüsusiyyətlərində tonal qarşılaşdırılmalarından istifadə olunması, havacatın dil zənginliyinə xidmət etmişdir.

«Kərəm köçdü» havasının **metro-ritmik** quruluşunu təhlil etmək üçün onu instrumental və vokal-instrumental partiyalarının metrik ölçüləri aspektindən araşdırmaq daha münasibdir. Onun müşayiət partiyasının metrik quruluşu dəqiq ölçülərə əsaslanır. Əsasən 4/4, 2/4 quruluşda olan metrik quruluş aşıq havacatının melodik quruluşunun geniş əhatəli səslənməsinə zəmin yaratmışır. Adətən, 6/8, 3/8, 5/8 ritmik ölçülərə əsaslanan aşıq havacatlarından fərqli olaraq, burada 4/4 ölçüsündən geniş istifadə olunması havacatın melodik inkişaf xəttini klassik musiqi ənənələrinə xas formada təzahür etməsinə geniş imkanlar açmışdır.

Müşayiət partiyasının ilk xanələrindən başlamış sonuncu xanəyədək metrik ölçülərin quruluşu bir sıra epizodik xanələri çıxmaq şərti ilə, demək olar ki dəyişmir. Məhz buna görə də 4/4 ölçüsünü «Kərəm köçdü»nün melodik quruluşunun əsas formayaradıcı amili hesab etmək olar. Müşayiət partiyasının metrik quruluşunun şəkli, əsasən, verilən not misalında göstərilən formada həyata keçirilmişdir (bax: 1-ci xanə).

Müşayiət partiyasının quruluşunda 11-ci xanədə 2/4, 24-cü xanədə 5/4, II hissənin 17-ci xanəsində 3/2 metrik ölçülərin işlədilməsinə baxmayaraq, bunlar yalnız təkcə bir xanənin metrik

quruluşunda istifadə olunmuşdur. Ona görə də onlar epizodik işlədilən ritmik quruluşlara daxildir. Metrik quruluşun 4/4 şəklində olması «Kərəm köçdü» havasının müşayiətində melodik quruluşun xanədəki zərbələrini faktiki olaraq, iki yerə bölür. Xanədəki güclü zərbələr 1-ci və 3-cü zərbələrə düşür. Fakturanın belə səpkidə yazılması müşayiət partiyasında sazın bəm simlərinin (2-ci və 3-cü simlər) stabil olaraq güclü zərbələrdə işlədilməsinə şərait yaratmışdır. Buna görə də «Kərəm köçdü»nün harmonik baxımından səslənməsində xüsusi vüsət və dinamika hiss olunur.

«Kərəm köçdü»nün vokal-instrumental partiyası bütövlükdə «Ad libitum» sərbəst ölçüyə əsaslanır. Vokal partiyasının sözləri «Ad libitum»la ifadə olunur. Hər vokal partiyasının sonluğunda sətrin hecalarının düzgün gəlməsi üçün «...hey gəl, aman», «...hey ölürəm, ay» ifadələrinin işlədilməsi dəqiq metrik ölçülər əsasında həyata keçirilmişdir. Not misalında bunu əyani olaraq görmək olar (bax: 59-cu; 72-74-cü xanələr).

Vokal partiyanın ifasında deklamasiya üsulundan da istifadə olunur. II hissədə formaca geniş olmayan, faktiki olaraq bir xanə həcmində deklamativ üsuldan istifadə olunmuşdur.

«Kərəm köçdü»nün metro-ritmik təhlili göstərdi ki, melodik quruluşun tərtibində ənənəvi və çox işlədilən aşıq ritmlərindən istifadə olunmamışdır. Burada bütün əsər boyu iki ritmik quruluşdan daha çox istifadə olunmuşdur. Bunlardan biri vokal partiyada «Ad libitum» sərbəst ölçü, digəri isə müşayiət partiyasının melodik quruluşunda olan 4/4 metrik ölçülərdir. Əlbəttə, müşayiət partiyasının bu metrik quruluşu aşıq havasının klassik musiqi səpkisində qurulmasını təmin etmişdir.

«Kərəm köçdü» havası iki **A+B hissəli formadadır.** I hissə (**A**) 22 xanəlik instrumental girişlə başlayır. Giriş sadə fakturalı olub, qammavari melodiya və 4/4, 2/4 metrik ölçüdə keçir. İstifadə olunan melizmlər, triollar melodiyanı daha da dinamik və hərəkətli edir. Girişdən sonra I hissənin vokal partiyası başlayır. Vokal partiya öz növbəsində üç $\mathbf{a+a_1+a_2}$ bölümlərindən ibarətdir. Hər bö-

lümün arasında instrumental ifa verilmişdir ki, bu da formadaxili mövzuları, ayrı-ayrı musiqi epizodlarını bir-biri ilə bağlayır. Cümlələr deklamasiya və reçitativ xarakterlidirlər. Birinci **a** cümləsi üç xanədən ibarət olduğu halda, səs diapazonu iki musiqi tonunu əhatə edir və müşayiət partiyası təkrar edilir. Üç xanəli instrumental ifa ikinci, $\mathbf{a_1}$ cümləni birinci cümlə ilə bağlayır. İkinci cümlə birinci cümləni təkrar edir. Üçüncü $\mathbf{a_2}$ cümləsi isə əvvəldə ifa olunan hər iki cümlələrin bir qədər dəyişdirilmiş və genişləndirilmiş təkrarıdır. Beləliklə, I hissənin forması bu şəkildə verilə bilər:

_________A_________
G + vok. part.
a+a1+a2

Havacatın II hissəsi (**B**) 9-xanəli (49-57-ci xanələr) instrumental girişlə başlayır. Girişin melodiyası qammavari və təkrarlardan ibarətdir. Vokal partiya isə, I hissədə olduğu kimi, üç sümlədən ibarətdir ki, cümlələrin hər biri mətndən irəli gələn deklamasiya xasiyyətlidir:

_________B_________
G + vok.part.
a+a1+a2

Havacat I hissənin bir qədər dəyişdirilmiş təkrarından ibarət olan koda ilə bitir. Nəticədə «Kərəm köçdü» aşıq havasının ümumi musiqi forması belədir.

_________A_________ + _________B_________
G + vok. part. G + vok. part.
a+a1+a2 a+a1+a2

«Kərəm köçdü» aşıq havasının musiqi formasının təhlili onun iki hissəli olmasını göstərdi. Musiqi formasının struktur quruluşundan göründüyü kimi, havacatda mövzuların, müxtəlif musiqi epizodlarının çoxplanlılığı özünü biruzə verir. Bütün musiqi epizodlarını tematik və lad-intonasiya xüsusiyyətlərinə görə vahid strukturda birləşdirən **a** və onun müxtəlif variantları olan **a1+a2** musiqi epizodlarıdır.

## «Keşiş oğlu» aşıq havası

«Keşiş oğlu» aşıq havası klassik ənənəvi havalardan biridir. Bir sıra mənbələrə görə, «Keşiş oğlu»nun qədim adı Cənubi Azərbaycanda yaşayan qaşqay türklərinin bir qolu olan «Keşolu» tayfasının adıdır. Müəyyən dövr keçdikdə ləhcədə olan deyiliş qaydasına görə «Keşiş oğlu» deyilişinə çevirilmişdir. Amma bəzi mənbələrdə, xüsusən də folklorşünas alimlərin yazılarında bu havacatın adının «Əsli və Kərəm» dastanının adı ilə bağlı olub oradan götürülməsi ilə izah olunur.

«Keşiş oğlu»nun lad-intonasiya xüsusiyyətləri 1-1-1/2 tetraxordu əsasında verilmişdir. Bildiyimiz kimi verilmiş tetraxord «Rast» ladının əsasını təşkil edir. İntonasiya xüsusiyyətlirini təhlil edərkən görürük ki, burada bir neçə qohum münasibətində olan lad qarşılaşdırmasından istifadə olunmuşdur. Təhlil olunan havacatın ilk xanələrindən 6-cı xanəyə qədər «Rast» ladı hiss olunursa, 7-ci xanədən başlayaraq 11-ci xanəyə qədər «Şur» ladının intonasiyaları eşidilir. İnkişaf prosesində melodiyanın 12-ci və 13-cü xanələrdə istinad pərdələrinin yeri dəyişdirilərək «f» mayeli «Rast» ladının intonasiya əhatəsinə düşür.

«Keşiş oğlu»nun istinad pərdələri olan «b, f, d» səsləri funksional baxımından xüsusi əhəmiyyət daşıyır. İstər instrumental - müşayiət partiyasında, istərsə də vokal partiyada verilən hər üç istinad pərdə özünü kifayət qədər göstərmişdir.



Təhlil etdiyimiz havacatın bütün melodik-struktur quruluşu məhz bu üç istinad pərdələri əsasında qurulmuşdur. İstinad pərdələrinin hər biri ayrı-yarı musiqi fikirlərinin formalaşmasında bir dayaq, özək funksiyasını daşımışdır. Ona görə də bu pərdələri havacatın melodik struktur quruluşunun formayaradıcı amili saymaq olar.

«Keşiş oğlu»nun vokal partiyası kiçik oktavanın «b» səsindən birinci oktavanın «f» səsinə qədərdir. Vokal partiyanın daha təravətli səslənməsi üçün ifaçı ilk olaraq «f» istinad pərdəsindən daha sonra «d» və sonuncu olaraq «b»dən istifadə etməklə bir növ lad qarşılaşdırmasını həyata keçirmişdir.



Yuxarıdakı not misalında vokal partiyanın lad strukturundan göründüyü kimi burada, 1-1-1/2 ənənəvi «Rast» ladının strukturu yox, «Şur» ladının 1-1/2-1 tetraxordundan əmələ gələn lad quruluşundan istifadə olunmuşdur. Aşıq musiqisi üçün ənənəvi olan bu kimi metodlardan, yəni qohum ladların qarşılaşdırılmasından geniş istifadə olunur. Əsər başlandığı «b» istinad pərdəsiylədə sona yetir. Havacatın əsas mayə pərdəsində bitməməsi təsadüfi hal deyil. Belə havacatlar, ifa formaları aşıq yaradıcılığında tez-tez rast gəlinir. Belə hallar, əlbəttə ki, milli lad təfəkkürü ilə bağlı olub aşıq musiqisinin bəzi spesifik xüsusiyyətləri ilə bağlıdır.

«Keşiş oğlu»nun **melodik quruluşu** əvvəl təhlil olunan havacalardan bir qədər fərqlidir. Burada instrumental partiyanın ifasında beş xanədən ibarət giriş xarakterli melodiya səsləndirilir. Üst mizrablarla calınan 1-ci xanədə göstərilən konfiqurasiya dörd xanə həcmində uzadılaraq «b» istinad pərdəsinə həll olunur (bax: 1-6-cı xanələr). Sonuncu 6-cı xanə dinamik cəhətdən öz həllini tapmış «b» istinad pərdəsindən «d» pərdəsinə keçid epizodu rolunu oynayır. İnstrumental partiyanın əsas melodiyası 7-ci xanədən başlayır (bax: 7 – 8-ci xanələr).

Vokal ifanı başlamaq üçün ifaçı-aşıq 12-13-cü xanələrdən istifadə edərək yenə istinad pərdəsinin «d» dən «f» səsinə dəyişir (bax: 12–13 xanələr). Havacatın melodik cümlələri, frazaları ayrı-ayrı istinad pərdələrinin oxunması ilə yarandığı üçün hər bir musiqi fikri müəyyən səs tonunun mərkəzləşdirilmiş funksional əhəmiyyətindən, onun formayaradıcı xüsusiyyətlərindən yaranır.

Ənənəvi havacatların nəzəri təhlillərindən fərqli olaraq vokal partiyasının ifası «Ad libitum»da dəqiq metrik ölçüsüz həyata keçirilir. Belə ifa tərzi ifaçıya sərbəstlik verir və o, dastanın mətnini istədiyi metro-ritmik formullarda ifa edə bilir. Bu cür ifa üslubu, aşıqlar tərəfindən xüsusən dastan söyləmələrində daha çox istifadə olunur.

«Ad libitum»un ikinci gedişindən sonra ifaçı vokal partiyanın ifasını 6/8, 2/4, 6/8, 2/4 dəqiq metrik ölçülərlə həyata keçirir. Hər metrik ölçü ayrı-ayrı melodik fikir və cümlələri formalaşdırdığı üçün melodik rəngarənglik əldə edilmiş olur.

«Keşiş oğlu»nun melodik quruluşunda ifaçı «Ad libitum» və metrik ölçü qarşılaşdırmasını da verməyə müvəffəq olmuşdur. Dəqiq metrik ölçüdən sonra gələn yenə də növbəti «Ad libitum»u verən ifaçı, bu dəfə deklamasiya üslubundan istifadə etmişdir (bax: 48-ci xanə).

Təhlil olunan əsərin II hissəsindən instrumental müşayiətdə əvvəlkindən fərqli olaraq «b» istinad pardəsi yox, «f» və «d» pərdələri istifadə olunur. Belə ifa tərzi dinamik cəhətdən özünü doğruldur və melodik strukturda tembr rəngarəngliyi yaradır.

II hissədə ifaçı vokal partiyanı ifa etdikdə «Ad libitum» dan epizodik olaraq istifadə edir. Burada əsasən 3/8, 2/4, 3/4, 3/8, 6/8, 2/4 metrik ölçülərdən istifadə olunur. Ritmik formullar dəyişdikcə melodiyanın formayaradıcı strukturları da müxtəlif çeşidli melodik frazaları, cümləlri meydana çıxarır.

Beləliklə, sərbəst oxumaq üsulu ilə dəqiq ölçülü ostinatlı müşayiətə əsaslanan oxuma üslubu qarşı-qarşıya qoyulur. Fikrimizcə, bu ifa tərzi effektli təsir göstərir. Həmin üslubdan əsərin son III hissəsində də istifadə olunur. II hissədən fərqli olaraq burada metrik ölçülər mürəkkəbləşir, yəni 6/8, 8/8, 9/8 kimi ölçülərdən istifadə olunur. Metrik və ritmik formullar kiçildikcə, yəni xanədə səkkizliklərin sayı 6-dan 9-a qədər dəyişdikcə melodiyanın quruluşu, arxitektonikası da zərifləşir. Belə halda, incə

zərif melodiya özünü qabarıq şəkildə göstərmiş olur. Əsər «b» istinad pərdəsində bitir (bax: son sətir).

Vokal partiyası tembr və səs yüksəkliyi, yəni dinamik cəhətdən aşağıda, kiçik oktavanın «b» səsində bitsə də instrumental sonluq, bir oktava zildə həllini tapır. İnstrumental partiyanın koda xarakterli gedişi melodik fikrə məntiqi yekun vurmaq üçün dinamik səslənməni, melodik sonluğu vertikal olaraq yuxarı səslərə gətirir. Bu isə aşıq dastan yaradıcılığına xarakterik xüsusiyyətdir.

«Keşiş oğlu» havasının **metro-ritmik** ölçüləri digər aşıq havalarının metrik ölçülərindən, demək olar ki, fərqlənmir. Yəni aşıq yaradıcılığı üçün xas olan metrik ölçülərdən 2/4,3/4, 6/8, 3/8 və «Ad libitum» «Keşiş oğlu» üçün də xarakteriktir. «Qoşma misralarında adətən aşağıdakı heca qruplaşmaları olur: 4+4+3 və 6+5. Onlar havalarda özlərinin formayaradıcı emosional xarakterlərini şərtləndirən müvafiq ritmik strukturlarla təcəssüm oluşmuşlar. Şeir quruluşunun qanunauyğunluqları havaların ritmik-melodik quruluşunda da nəzərə çarpır və aşağıdakı ölçülərdə öz əksini tapır: 6/8, 3/4, (3/8) 2/4. Səkkizheçalı poetik strukturlarda olduğu kimi, burada da dördbölgülü ölçülərə təsadüf edilmir, üstünlük təşkil edən əsas ölcü 6/8-dir. Məsələn: «Əfşarı», «Qarabağ qaytarması», «Aşıq Cəlili», «Aşıq Hüseyni», «Naxçıvani», «Duraxanı», «Keşiş oğlu» və s.»[1]

Havacatın giriş instrumental hissəsi 17 xanədən ibarətdir. Həm instrumental partiyanın və həm də vokal instrumental partiyanın metrik ölçüləri qarışıq, təzadlı şəkildə verilmişdir. 2/4 ölçüsü ilə başlayan instrumental partiyanın 5-ci və 13-cü xanələrində 3/4 metrik ölçülərdən istifadə olunur. Digər xanələrdə isə 2/4 ölçüsündən istifadə olunmuşdur. Bu xüsusiyyət onu göstərir ki, havacatın əsas musiqi fikri 2/4 metrik ölçü əsasında qurulmuşdur. İnstrumental partiyanın giriş hissəsində hər xanənin da-

[1] Axundov Ə. Azərbaycan xalq dastanları: 2 cilddə, II cild. Bakı: Azərnəşr, 1961, s.140

xili konfiqurasiyasında metrik ölçülərin triollardan, səkkizliklərdən, bir səkkizlik iki onaltılıq quruluşlarda olması, havacatın səslənməsində öz əksini ritmik baxımdan zəngin çalarlarda tapmışdır. İnstrumental girişdən sonra 18-ci xanədə «Ad libitum», vokal instrumental partiyası gəlir. Havacatda 27-31-ci xanələr yenə də instrumental müşayiətin ifasında səslənir. 32-ci xanənin yenidən «Ad libitum» sərbəst metrik ölçülərdə səsləndirilməsi intsrumental müşayiətlə vokal partiyanın dialoq şəklidə qurulmasına zəmin yaratmışdır. 37-ci xanədən etibarən vokal partiya 6/8 və 2/4 metrik ölçülərdə səsləndirilir. Artıq havacatda vokal partiyanın sərbəst metrik ölçüdə olan «Ad libitum»la, 6/8 metrik ölçü əsasında olan melodik epizod arasında qarşılaşmadan istifadə olunmasının şahidi oluruq. Burada, deklamasiya xarakterli səslənmədən də istifadə olunur.

Aşıq havacatının ikinci kupleti 10-xanəli instrumental girişlə başlayır. Əvvəlki instrumental giriş partiyasından fərqli olaraq burada 2/4-dən başqa, metrik ölçüdən istifadə olunmur.

Vokal partiya isə 3/8, 2/4, 3/4 metrik ölçülərin müxtəlif kombinasiyalarından istifadə olunmaqla səsləndirilmişdir. Birinci kupletin vokal partiyasından fərqli olaraq, ikinci kupletdə «Ad libitum» yoxdur. Bu, vokal partiyanın ostinatlı ritmlər əsasında qurulmasına zəmin yaratmışdır.

«Keşiş oğlu»nun üçüncü kupletində 13 xanəlik giriş instrumental partiya metro-ritmik baxımından maraqlı səpkidə qurulmuşdur. Əvvəlki metrik ölçülərdən fərqli olaraq, burada 138-ci xanədə 2/8 ölçüdən istifadə olunmuşdur və sonrakı 139-141-ci xanələr ənənəvi olaraq «f» səsinin ostinatlı şəkildə əvvəlki kupletlərdə olduğu tərzdə səslənməsi ilə sona yetir. Bu ifaçının eyni üsluba üstünlük verməsi dəstxəttidir.

Üçüncü kupletin vokal-instrumental partiyası birinci kupletin vokal-instrumental partiyası ilə oxşarlıq təşkil edir. Burada da vokal və instrumental partiyaların dialoqu yaradılmışdır. Əsər vokal partiyanın müşayiəti ilə bitir.

«Keşiş oğlu» aşıq havasının metro-ritmik quruluşunun təhlili göstərir ki, bu hava da klassik ənənəyə xas formadadır. Aşıq yaradıcılığı üçün xarakterik olan dialoq «Ad libitum» və rəngarəng metrik ölçülərdən istifadə olunması, onun ənənəvi aşıq musiqisinin zəngin melodik amillərinin üzə çıxarılmasını təmin etmişdir.

«Keşiş oğlu»nun **musiqi forması** III hissəlidir. Hər bir hissə öz-özlüyündə instrumental giriş və vokal partiyadan ibarətdir.

I hissə (**A**) 17-xanəli instrumental girişlə başlayır (**G**) və dörd bölmədən, yəni vokal epizoddan ibarət olan (**a+b+c+d**) vokal partiya ilə davam olunur. Havacatın **a** bölməsi improvizasiya xarakterli olub vokal patiyanın əsas məğzini, semantikasını təşkil edir. Ayrı-ayrı müstəqil epizodların bir araya gəlməsindən ibarət olan birinci hissədə **b** bölməsi on xanəli dəyişkən: 6/8, 2/4- ölçülü melodik quruluşlu fakturadan ibarətdir. Havacatın **c** bölməsində beş xanəli improvizasiya üslubu davam olunur. Birinci hissənin son musiqi epizodu **d** deklamasiya xarakterli bölmədən ibarət olub bir qədər geniş ifa olunur. Bölmələr öz aralarında instrumental çalğı ilə birləşdirilir. I hissənin formasını bu şəkildə yekunlaşdırmaq olar:

________A__________
G + vok. part
a+b+c+d

II hissəni (**A1**) 10-xanəli (79-88-ci xanələr) 2/4 ölçülü instrumental giriş başlayır. Burada vokal partiya üç bölmədən təşkil olunmuşdur: **a+a1+a2**. İkinci hissənin **a** bölməsi on iki xanəlidir, **a1** isə improvizasiya xarakterli epizoddur. Sonradan ifa olunan yeddi xanəli **a2** bölməsi əvvəl səslənən **a** və **a1** bölmələrinin mövzusu üzərində qurulmuşdur. Hər bir bölmə bir-biri ilə kiçik instrumental çalğı ilə bağlanılır. II hissə üç xanəli instrumental ifa ilə tamamlanır. Beləliklə, II hissənin musiqi formasını bu şəkildə təqdim etmək olar:

_________A1__________
G + vok. part
a + a1 + a2

III hissə (**A2**) 13-xanəli (129-141-ci xanələr) instrumental grişlə başlanır və iki bölmədən **a+b** ibarət olan vokal partiya ilə davam edilir. I və II hissələrin vokal partiyalarının mövzusu əsasında qurulan **a** bölməsi improvizasiya xasiyyətlidir. Beş xanəli instrumental ifadan sonra **b** bölməsi başlayır. Bu, öncə səslənən bölmələrdən fərqli olaraq, bir qədər genişdir və daxilində instrumental ifaya da yer verilmişdir. Ümumiyyətlə, bu əsər deyişmə formasında yazılmışdır:

_______A2_________
G + vok. par.
a + b

«Keşiş oğlu»nun ümumi musiqi forması bu şəkildədir:

| _______A_______ | + | ________A1________ | + | ______$A_2$______ |
|---|---|---|---|---|
| G + vok. part | | G + vok. part | | G + vok. part |
| a+b+c+d | | a+a1+a2 | | a + b |

«Keşiş oğlu»nun musiqi formasının nəzəri təhlili göstərdi ki, o üç hissəli formadadır. Adətən üç hissəli formada olan musiqi havaları üç ayrı-ayrı hissələri özündə birləşdirir. Bu havanıfn təhlilindən görürük ki, hər üç hissə eyni mustiqi materialından tərtib olunmuşdur. Yəni avropa musiqi nəzəriyyəsindən bizə məlum olan A+B+A və ya A+B+C əvəzinə, «Keşiş oğlu» da A+ A1 + $A_2$ forması ilə rastlaşırıq. Bu onu göstərir ki, havacatın bütün musiqi materialı birinci hissənin əsasında yaradılmışdır. İkinci və üçüncü hissələr birinci hissənin improvizasiyalı variantı olub onun melopoetikası, məzmun və semantikası əsasında yaranmışdır. Havacatın formasından göründüyü kimi, **G** bölməsi və **a** epizodunun və onun ayrı-ayrı variantlarının ifaya ardıcıl olaraq salınması «Keşiş oğlu»nun ümumi melo-poetik strukturunda əsas özək musiqi materialının xüsusi rol oynamasını bir daha təstiq edir.

## «Köhnə qaytarma» aşıq havası

«Köhnə qaytarma» qədim klassik aşıq havalarından biridir. Onun melodiyası ənənəvi aşıq üslubunu təcəssüm etdirdiyi

üçün ifaçı sənətkarları özünə cəlb etmiş və onun geniş xalq kütləsi tərəfindən sevilməsinə zəmin yaratmışdır. Ümumiyyətlə, «Aşıq poeziyası canlı ifa zamanı prosessində yaranan stil, yaradıcı metod şeirlə nəğmənin qarşılıqlı təsiri baxımından kifayət qədər oyrənilməyən sənətdir»[2]. Cəmil Bağdadbəyovun xatirəsindən məlumdur ki, «Qaytarma» havası çobanlara məxsus bir hava olmuşdur. Bu havanı ifa edən çobanlar otarılan sürünün geri çağırardılar, yəni qoyun-quzunun axşam çağı bu havanın ifası ilə geri qaytarardılar. Onun verdiyi məlumata görə, sübh çağı çobanlar başqa bir havanı da ifa edərdilər. Bu havanın da adı «Dağıtma» olmuşdur, yəni qoyun-quzunun otlamaq üçün dağıdılması nəzərdə tutulur. Adından məlum olduğu kimi, «Köhnə qaytarma» daha qədim olan «Qaytarma» havasıdır.

Onun lad quruluşu ümumilikdə «Rast» muğamının «Şikəsteyi-Fars» şöbəsinə əsaslansa da, səsdüzümünə və səslər arasındakı məsafələrin 1+1+1/2 olmasına görə «Rast» muğamının lad quruluşunu vermiş olur. Dastan yaradıcılığında «Gülabi» ilə «Köhnə qaytarma»nın ardıcıl ifa edilməsi, eyni quruluşa malik, lakin müxtəlif səslənmələri verən eyni adlı «Şikəsteyi-Fars» şöbəsinin mikrolad quruluşunun ayrı-ayrı tonal səsləri ifadə etməsi nəticəsində səslənmədə müxtəlif intonasiyaların eşidilməsinə gətirib çıxarır. Aşağıdakı lad quruluşunda «Rast»ın lad quruluşu göstərilmişdir. Burada «es, c» səsləri istinad pərdələrin rolunu oynayır.



Vokal partiyanın həcmi kiçik tersiya («c–es») intervalı hüdudundadır. Sözsüz ki, bu kimi kiçik diapazonlu məsafədə melodiyanın inkişafı üfüqi xətt üzrə həyata keçirilir. İnstrumental partiyada isə diapazon oktava həcmindədir. Burada intonasiyaların

---

[2] Aşıq Qərib. Gəncə: Əbilov və Haqverdiyev mətbəəsi, 1912. Milli kitabxananın arxivi № 422 (m.f).

inkişafından asılı olaraq melodik xətt həm yüksələn, həm də enən xətt üzrə özünü göstərir. Havacatın diapazonunun əsasən kiçik tersiya məsafəsində olması havacatın qədimliyinə dəlalət edir.

İki hissədən ibarət olan «Köhnə qaytarma»nın ayrı-ayrı melodik fikirləri «es» istinad pərdəsindən başlayır, sonluq isə «c» pərdəsində yekunlaşır. Melodiyanın quruluşunda bəzən «f» səsindən də istifadə edilir və bununlada diapazon kvarta həcminə qədər genişləndirilir.

«Köhnə qaytarma» havacatının lad-intonasiya quruluşunun təhlli göstərir ki, havacatın lad bünövrəsi «Rast» muğamı əsasındadır. Lakin havacatın melodik quruluşlarının təhlili göstərir ki, əsasən «es» və «c» istinad pərdələri əsasında formalaşdırılan melodik dil «Şikəsteyi-Fars» şöbəsinin əsasındadır.

«Köhnə qaytarma» havasının **melodik dilinə** nəzər salaq. Havacatın I hissəsinin instrumental müşayiət partiyası 16-xanəli giriş partiyası ilə başlayır. Melodik fikir səsləndirilməzdən öncə ritmik formulların iki xanə ifası, melodik dilin hansı səpkidə qurulumasını və hansı xarakterik, səciyyəvi xüsusiyyətlərə malik olmasını göstərir. İki xanəli ritmik formulların arxiteknonik quruluşunda bir çərəyin, bir səkkizlik, bir triol və bir səkkizlik-iki onaltılıq formasında verilməsi melodik dilin formayaradıcı amillərdə də özünü göstərmişdir. Məhz bu struktur havacatın sonrakı melodik inkişafında da öz əksini tapmışdır. Melodik dilin formalaşmasında, əsasən, 2/4, 3/4 metrik ölçülər böyük rol oynayır. Buna baxmayaraq, melodik fikrin ifadə olunmasında bir sıra hallarda 3/8, 5/8 metrik ölçülərə də rast gəlirik.

«Köhnə qaytarma»nın melodik dili lirik obrazlarla zəngindir. Vəsf xarakterli musiqi fikirləri həm ritmik komponentləri, həm də musiqi ifadə obrazlarının axıcı strukturu ilə paralel şəkildə verilmişdir. Not misalında əsas mövzunun melodik dilinin quruluşuna baxsaq, birinci 7 xanədə ritmik formulların, sonrakı xanələrdə isə, melodiyanın lirik obrazlarını təcəssüm etdirən ifadə vasitələrinin şahidi olarıq (bax: 3 –11-ci xanələr).

«Köhnə qaytarma»nın vokal-instrumental partiyasının melodik dilin formalaşmasında «Şikəsteyi-Fars»ın kiçik oktavanın «es, c» səsləri xüsusi rol oynayır. Vokal partiyanın müşayiətində, onaltılıq notlarının fasiləsiz olaraq ostinantlı imitasiya şəklində davam etdirilməsi havacatın fakturasında xüsusi olaraq nəzərə çarpır. Vokal partiyalar arasında ifa edilən instrumental epizodların hamısı ritmik xarakterdədir. I hissənin vokal partiyasında Borçalı aşıq ifaçılıq ənənəsinə xas «Hi» sözləri ilə zənguləyə bənzər texniki boğaz imkanlarına da rast gəlinir.

II hissə 8-xanəli instrumental giriş partiyası ilə başlayır. Burada əsas melodik dil ritmik formullar əsasında qurulmuşdur. I hissədən fərqli olaraq 2/4 metrik ölçüyə əsaslanan ritmik formullar daha xırda uzunluqlarda olan qruplaşmalar şəklində ifadə olunmuşdur. Not misalının giriş partiyasında birinci iki xanədə bunun şahidi olmaq olar (bax: 61-62-cü xanələr).

II hissənin vokal partiyasının musiqi dili kvarta intervalı həcmindədir. Həm vokal, həm də müşayiət partiyasının fakturası və struktur quruluşu I hissə ilə eynilik təşkil etdiyi üçün onun üzərində xüsusi olaraq dayanmırıq.

III hissə 13-xanəli instrumental girişlə başlayır. Onun melodik dili I hissədə olduğu kimi, həm dəqiq ritmik formullar əsasında, həm də lirik obrazları vəsf edən, axıcı formada olan ifadə vasitələrindən ibarətdir. Bu giriş partiyasının melodik dili I və II hissələrdən fərqli olsa da, hər üç hissədə istifadə edilən eyni elementlər, ifadə tərzləri melodik dilin ümumi zümrədə, vahid kompozisiyada birləşməsini şərtləndirmişdir. III hissənin vokal partiyası əsasən kiçik tersiya intervalı həcmində qurulmuşdur. «Aşıq Qərib mənəm, ey» təsdiqləyici ifadəsinidə, həm kvarta intervalından, həm də qlissandolu ifa tərzindən istifadə olunmuşdur. Vokal partiyanın sonrakı inkişaf epizodlarına diqqət yetirsək, burada müxtəlif ritmik formullardan və mordentdən, qısa forşlaqlardan istifadə olunduğunun şahidi olarıq. Yuxarıda qeyd etdiyimiz kimi, vokal partiyanın müşayiətində onal-

tılıq notlarının arası kəsilmədən istifadə olunması üsulu və forması burada da tədbiq edilmişdir (bax: 128-130-cu xanələr).

«Köhnə qaytarma»nın melodik dilinin nəzəri təhlili onu göstərdi ki, melodik dilin formayaradıcı strukturunda müxtəlif metrik ölçülərdən istifadə olunmuşdur. Zəngin melos həm monodik formada, həm də harmonik səslənmədə xüsusi təravətlə səslənir. Bu da onu göstərir ki, melodik dilin formayaradıcı amilində həm harmonik ifa üslubundan, həm də monodik ifa tərzinin təqdimatında, əsasən, ritmik formullardan və lirik obrazları tərənnüm etmək üçün bir növ dalğavari formada olan inkişaf xəttindən istifadə olunmuşdur.

Onun **metrik ölçüləri** 2/4, 3/8, 3/4-də əsaslanır. II və III hissələrdə bu metrik ölçülərə 5/8 ölçüsü də əlavə edilib. Havacatın «Mahur» üstə olması da, onun sadə xalq tərəfindən yaradılması və istifadə edilməsini göstərir. Muğam tarixindən məlumdur ki, «Mahur-Hindi» muğamını sadə əmək adamları daha çox sevər və ondan öz məişətlərində geniş istifadə edərdilər.

«Köhnə qaytarma»nın xanədaxili ritmik quruluşları müxtəlif şəkillərdədir. Nümunələdən görünür ki, ritmik formulların müxtəlif quruluşlarda verilməsi nəticəsində xanələrdəki aksentlərin yerləri də dəyişdirilmiş şəkildə verilmişdir (bax: 1-7-ci xanələr).

Vokal-instrumental partiyanın ritmik formulları sadə şəkildə qurulsa da, müşayiət partiyasının ritmik formulları stabil olaraq onaltılıq notlarla verilir. Vokal partiyanın quruluşunda «Hi» sözləri ilə zəngulə xarakterli boğaz texnikasının da verilməsi ənənəvi olaraq 2/4 metrik ölçüyə əsaslanır.

Havacatın II hissəsi 2/4-də əsaslansa da, qeyd etdiyimiz kimi, 5/8, 3/4, 3/8-lik metrik ölçülərdən də istifadə olunur. İnstrumental partiyanın giriş hissəsində texniki ifaya üstünlük verildiyi üçün ritmik formulların qruplaşmasında iyirmialtılıqla yanaşı, otuzikilik notlar da öz əksini tapmışdır. Burada bir sıra havalarda olduğu kimi, eyni ritmik formulun güzgülü əksini də xanədaxilində verilməsinin şahidi oluruq (bax: 61-65-ci; 72-ci; 85-ci; 122-ci xanələr).

II hissənin vokal partiyası texniki cəhətdən inkişaf etmiş müşayiətlə verilir. Hissənin sonluğu ritmik formulların müxtəlif qruplaşmalarından ibarət yaradılmış epizodik musiqi parçası ilə bitir. Bu nümunə də göstərir ki, havacatın quruluşunda ritmik formullar xüsusi əhəmiyyət daşıyır. Burdaki aksentlərə diqqət yetirsək, həmin aksentlər, ifa edilən epizodun xarakterini və onun təntənəliyini birüzə verdiyinin şahidi olarıq. Nümunədə hər xanənin eyni metrik ölçüyə əsaslanan, lakin müxtəlif ritmik şəkillərini görürük (bax: 86-90-cı xanələr).

III hissənin metrik ölçüsü II hissədə olduğu kimi 2/4, 5/8, 3/8, 3/4 ölçülərinə əsaslanır. Fakturada, metrik ölçülərin bir-birini tez-tez əvəz etməsi nəticəsində melodiyada oynaqlığın əldə olunmasının şahidi oluruq. Metro-ritmik quruluşların bu hissədə tez-tez dəyişdirilməsi dastanın məzmunu ilə sıx bağlıdır. Şahsənəmin başqasına verilməsi epizodunda Qəribin keçirdiyi həyacan, təşviş ritmik formulların vasitəsi ilə ifaçı tərəfindən kifayət qədər ustalıqla verilmişdir. Həmin hissənin not nümunəsində bu təlatümü ritmik formulların fasiləsiz olaraq və gərgin formada ardıcıl verilməsində görə bilərik (bax: 117-123-cü xanələr).

Metro-ritmik formullarının nəzəri təhlili göstərdi ki, burada verilmiş ritmik formullar melodik bünövrənin əsasını təşkil etməklə yanaşı dastanın məzmununun açımında da xarakterik obrazların yaradılmasında yaxından iştirak edir. Ritmik formullardan bu şəkildə istifadə metro-ritmik amillərin xarakteristikasının ortaya çıxarılmasında xüsusi əhəmiyyətə malik olmasını göstərir.

«Köhnə Qaytarma» havası üç **A+B+C** hissəli **musiqi formasında** yazılıb. Hər bir hissə ənənəvi olaraq instrumental girişlə başlayır. I hissə, (**A**) 16- xanəli instrumental girişlə başlayır. Girişin son xanələrində təhlil etdiyimiz son iki havacatlarda rast gəldiyimiz kimi vokal partiyaya yer verilib. Giriş çox mürəkkəb və dəyişkən ölcülərlə inkişaf edir. Belə ki, məhz 2/4, 3/8, 3/4, 2/4, 3/8, 2/4 ölçülərdən və melizmlərdən geniş istifadə etməklə melodiya tez-tez dəyişdirilir. Müşayiət partiyasında faktura

onaltılıq notlarla, texniki baxımdan daha da inkişaf etmiş, iti tempdə verilir.

I hissənin vokal partiyası üç, **a + b + c** musiqi gümlələrindən təşkil olunmuş vokal bölmədən ibarətdir. Birinci cümlə **a** dörd xanəlidir və tersiya diapazonu çərçivəsində verilir. İki xanəli intsrumental ifa ikinci, **b** cümləsinin başlanğıcından xəbər verir. Cümlə səkkiz xanədən ibarətdir. Müşayiət partiyası birinci cümlənin müşayiət partiyasını davam edir. Altı xanədən ibarət olan üçüncü **c** cümləsi 3/8 ölçüdə verilir və həm melodiya, həm də müşayiət partiyasının mövzusu baxımından yenidir. Burada da tersiya diapazonu saxlanılır. I hissə 7- xanəli yekunla tamamlanır.

_______A________
G + vok. part.
a + b + c

II hissə (**B**) 8-xanəli (61-68-ci xanələr) instrumental girişlə başlayır. 2/4 ölçüdə verilən girişin melodik şəkili I hissənin instrumental ifasına bənzəyir. Vokal partiya iki cümlədən təşkil olunub. Birinci **a** cümləsi doqquz xanədən ibarətdər, ölçüsü 2/4 və yenə burada da melodiya və müşayiət (e –d- c) tersiya diapazonunda hərəkət edir. İkinci **b** cümləsi isə bir qədər genişdir və 14 xanədən ibarətdir. Burada 3/4, 2/4, 3/8 ölçü dəyişkənliyi müşahidə olunur. Hər iki cümlələrin sonunda instrumental ifa verilir.

________B________
G + vok. part.
a + b

Havacatın III (**C**) hissəsi 13-xanəli (92-104-cü xanələr) instrumental ifa ilə başlayır. Melodika-intonasiya, ritmik formullar baxımından bu hissənin giriş partiyası əvvəlki hissələrin girişlərinə bənzəyir. Vokal partiya isə iki cümlədən ibarətdir. Birinci cümlə **a** on xanə içərisndə verilir. Ritmik formulların tez-tez dəyişdərəlməsinə baxmayaraq (2/4, 5/8, 2/8), melodiya sadə şəkildədir. İkinci **a1** cümləsi isə birinci cümlərin təkrarıdır.

______C________

G + vok. part.

a + a1

Beləliklə, «Köhnə Qaytarma»nın musiqi formasını sonda bu şəkildə vermək olar.

_______A_________+______B________+_______C________

G + vok. part. G + vok. part. G + vok. part.

a + b + c a + b a + a1

«Köhnə Qaytarma»nın musiqi formasının nəzəri təhlili göstərdi ki o, üç hissəli formadadır. Havacatın melodik dilinin zənginləşməsində müxtəlif ritmik formullardan geniş istifadə olunması özünü bariz şəkildə göstərir. Onu da qeyd etmək lazımdır ki, havacatın səslənməsində istifadə olunan akkordlu, kvarta-kvinta kök sisteminə daxil olan səslərdən geniş istifadə olunması ifa üslubu havacatın harmonik səslənməsinə də öz müsbət təsirini göstərmişdir. Hər üç hissə formaca müstəqil olsa da, onların tematik mövzularınnın ifada ardı sıra təkrar olunması bütün hissələri lad-intonasiya baxımından vahid strukturda birləşdirir.

## «Kürdü gəyarlı» aşıq havası

«Kürdü gəraylı» havasına aşıq yaradıcılığında «Sallama gəraylı» da deyirlər. Onun lad-intonasiya quruluşu 1-1-1/2 tetraxordu əsasında qurulmuşdur. Tetraxordun zəncirvari birləşməsi «Rast» ladının səs düzümünü verir. Lakin ifaya diqqət yetirsək onun melodik quruluşu «Kürdü»nün lad-intonasiya dairəsi hesabına «Mahur» muğamının intonasiyalarına yaxın olmasını bizə aşılayır və dinləyici də ifada bunun şahidi olur. «Kürdü gəraylı»nın lad quruluşu aşağıdakı şəkildədir.



İnstrumental partiyanın lad quruluşunda ifa müxtəlif səslərin müşayiəti ilə zənginləşdirilmişdir. «Kürdü gəraylı» havası

sabit dayaqların dinamik əlaqələnməsi və onlardan irəli gələn mövzudaxili inkişafı ilə seçilir. Dayaqların genişlənən hərəkəti «Rast» məqamının iki tetraxordu vasitəsilə yaranır»[3]. Adətən belə ifa ladın daha rəngarəng şəkildə səslənməsini ortaya çıxarmış olur. İnstrumental partiyanın səsdüzümündə «b, f, es» və «d» səsləri özünü daha çox göstərir.

«Kürdü gəraylı»nın vokal partiyasının lad quruluşunun diapazonu əvvə təhlil olunan havacatların vokal partiyalarının diapazonundan fərqlidir. Səs imkarlarını göstərmək üçün ifaçı-aşıq, havanın II hissəsində keçid xarakterli səslənmələri oktava yuxarıda «a» səsindən icra etməyə başlayır. Bu, təbii ki, epizodik xarakterli olduğu üçün «Kürdü gəraylı»nın səs diapazonunun bir oktava həcmində olması demək deyil. Buna baxmayaraq vokal partiyanın lad quruluşunun diapazonu aşağıda göstərilən şəkildədir:



Ənənəvi olaraq «Kürdü gəraylı»da da diklamasiya üslublu, yəni «Ad libitum»dan istifadə olunur. Bu xüsusiyyət aşıq yaradıcılığında dastan söyləmələrinə xas ifa formasıdır. «Kürdü gəraylı»nın instrumental partiyasının təqdimatında «Rast»ın lad-intonasiyasının zəngin harmonik səslənməsi saz alətinin kök sistemi ilə bağlı olsa da burada ladın özünün ahəngdar səs çalarlığı qabarıq şəkildə özünü biruzə verir.

«Kürdü gəraylı»nın **melodik dili** ənənəvi aşıq musiqi dilindən fərqli deyil. İnstrumental partiyanın melodiyası harmonik baxımından daha zəngin, lad-intonasiya xüsusiyyətlərinə görə isə daha rövnəq səslənir. Əsərin əsas leytmotivi, birinci iki xanə üzərində qurulmuşdur. Bu iki xanənin birinci xanəsi, ənənəvi üsulda, musiqi fikrinin əsas özəyini, ikinci xanə isə onun davamını təşkil edir (bax: 1-3-cü xanələr).

---

[3] Allahmanlı M. Türk dastan yaradıcılığı. Bakı: Ağrıdağ, 1998, s.44

«Kürdü gəraylı»nın melodiyasının formayaradıcı amilində sazın 2-ci, 3-cü («b, es») simlərinin və birinci simdə isə akkordvari ifadan irəli gələn harmonik səslənmədə punktirli və ostinatlı səslərin ardıcıl şəkildə ifası əsas həlledici rol oynayır. Yeddi xanədən ibarət keçid xarakterli epizodik ifadan istifadə etməklə dominant pərdəsinə istinad olunur (bax: 11-12-ci xanələr).

Melodiyanın dominant pərdəsindəki səslənməsinə, əsas özək melodiyanın sekvensiyası kimi baxmaq olar. Sadəcə olaraq, burada notların konfiqurasiyası dəyişdirilmiş halda verilmişdir.

«Kürdü gəraylı»nın instrumental partiyasında, metro-ritmik ölçülər tez-tez dəyişdirilməklə yanaşı, əsərdə ayrı-ayrı xanələrdə aksentlərin yerdəyişmələri melodik dilin, ritmik konfiqurasiyanın dəyişdirilməsinə gətirib çıxardır (bax: 16–19-cu xanələr). Melodiyanın strukturunda aksent 16-cı xanədə xanənin əvvəlinə düşürdürsə, 17-ci xanədə bu aksentin ikinci vurğuya salınması aksak (sinkopalı) ritmin şəklini yaradır. Səfiəddin Urməvi, Əbdül Qadir Marağayı öz nəzəri əsərlərində bu kimi sekvensiyavari ritmləri aksak ritm adlandırmışdılar. Melodik dilin bu səpkidə qurulması, qədim milli musiqi ənənəmizdən xəbər verir.

İnstrumental partiyanın vokal partiyalar arasındakı melodik qedişləri də, fikrimizcə maraqlı şəkildə qurulmuşdur. Yenə D-nt pərdəsində səsləndirilən melodik dil həm özək melodiyanın, həm də 7-ci xanədə qeyd etdiyimiz kiçik erizodlu elementlərdən istifadə olunmaqla həyata keçirilmişdir. 14 xanədən ibarət olan kiçik giriş xarakterli olan melodik dil epizodik olaraq vokal partiya ilə sual-cavab formasında qurulmuşdur (bax: 97-120-ci xanələr). I hissənin sonunda instrumental ifadan sonra, ənənəvi şəkildə dörd xanədən ibarət «Ad libitum» diklamasiyalı ifa verilmişdir.

Vokal partiyanın müşayiəti ənənəvi şəkildə sadə müşayiətlə həyata keçirilir. Deklamasiyadan sonra sonıncu ifada yenə müşayiətlə vokal partiyası arasında dialoqdan istifadə olunmuşdur.

«Kürdü gəraylı»nın melodik dilinin təhlili göstərdi ki, onun formalaşmasında ənənəvi olaraq, melodik frazalardan, metro-rit-

mik xüsusiyyətlərdən, lad-intonasiya zənginliklərindən geniş şəkildə istifadə olunmuşdur. Təhlil etdiyimiz havanın melodik dilində vokal və instrumental partiyalar arasında dialoq forması da əks etdirilmişdir. Belə ifa tərzi aşıq yaradıcılığı üçün xas olduğuna görə o özü-özünü muşayiət edən aşığın ifasını harmonik cəhətdən daha təravətli və gözəl səslənməni təmin edir.

Havanın metro-ritmik quruluşuna nəzər salaq. «Kürdü gəraylı»nın instrumental giriş bölməsində, əsasən, 2/4 metrik ölçüdən istifadə olunsa da, burada 5/8, 2/8, ölçülərinə də rast gəlirik. Əsərin səslənməsində aksentlərin vurulması bir sıra hallarda xanələrin ayrı-ayrı, yəni güclü və zəif zərbələrə düşməsi nəticəsində melodik frazaların oynaqlığına gətirib çıxarmışdır. 2-ci xanədə aksentlər 1, 2, və 3-cü zərbələrə düşürsə, 4-cü xanədən sonra aksentlər 1-ci və 3-cü zərbələrə düşür. Metrik ölçü dəyişəndən sonra 5/8-də aksent 4-cü zərbəyə edilir.

Havacatın 18-ci xanəsində ölçü 2/4 olsa da aksentin sinkopa şəklində birinciyə yox, ikinciyə vurulması ağsak ritm xüsusiyyətini ortaya qoymuş olur (bax: 18-ci xanə). Bu ritmik fiqurasiya müasir ifaçılıq sənətində işlədilməsə də ondan orta əsrlərdə geniş istifadə olunmuşdur. Bu haqda S.Urməvi, Ə.Q.Marağainin əsərlərində kifayət qədər məlumatlar vardır.

Vokal partiyanın metrik ölçüsü əksərən stabil olaraq 2/4 ölçüdədir. Lakin 45 və 47-ci xanələrdə 2/8 və 3/8 metrik ölçüdən də istifadə olunmuşdur. Vokal partiyanın sonrakı gedişində «Ad libitum»dan istifadə olunur.

Üç hissədən ibarət olan «Kürdü gəraylı»nın II hissəsinin başlanğıcında, instrumental partiyasında, artıq 2/4, 2/8, 3/8 və yenədə 2/4 metrik qarşılaşdırması ilə rastlaşırıq. Vokal partiya isə ənənəvi olaraq, əsasən, 2/4 metrik ölçüdə səsləndirilir.

«Kürdü gəraylı»nın **musiqi forması** şeirdə verilən mətnlə sıx əlaqədardır. Hər bir şeir bəndində verilən sətirlər, demək olar ki, əsərin əsas formasını təşkil edir. «Kürdü gəraylı» III hissədən ibarətdir: **A+B+A1**. Hər bir həssə instrumental giriş (**G**) və vo-

kal partiyadan ibarətdir. Vokal partiyanın hər cümləsi bəndin sətirləri ilə bağlıdır. Ana ilə oğulun deyişməsini yaradan dörd sətirli bənd vokal partiyanın dörd cümləsində əks olunmuşdur.

I həssə (**A**) instrumental girişlə başlayır. Sıx faktura, saz havası, dəyişkən ölçülü bu musiqi parçası 26 xanədən ibarətdir. İnstrumental giriş **a+b** hissələrinə bölünüb; **a** hissəsi on xanəlidir, melodiyada əvvəl keçən onaltılıq notlar kvarta-kvintalarla müşayiət olunur, **b** hissədə mövzu və ölçü dəyişkənliyi müşahidə olunur (16-cı xanələr arası): 5/8, 2/4, 2/8. Girişin forma sxemi nəticədə bu şəkildədir:

___G___
a + b

I hissənin (**A**) vokal partiyası deklamasiya xarakterli girişlə başlayır (on xanə), sonra isə dörd xanədən ibarət instrumental parça səslənir ki, bu da I hissənin giriş mövzusundan götürülmüşdür. Vokal partiya dörd cümlədən ibarətdir və mətnlə əlaqədardır: **a+a1+a2+b.** Burada, **a+a1+a2** musiqi cümlələri mövzu etibarı ilə oxşardırlar (**a**-on xanə, **a1**-səkkiz xanə, **a2**-beş xanə), **b**-deklamasiya xarakterlidir və vokal partiya məhz bu cümlə ilə tamamlanır. Hər bir cümlə bir-biri ilə dörd xanəlik instrumental çalğı ilə bağlanır. Beləliklə I hissənin forması belədir:

__________A___________
___G___ + vok part
a + b a+a1+a2+b

II hissə (**B**) 18 xanəlik girişlə başlayır və mövzunun özəyi I hissənin giriş hissəsinin mövzusu üzərində verilmişdir. Girişdə həmçinin vokal partiya səslənir (15-16-cı xanələr)- «Dərdli olan necə yatar». Vokal partiyanın forması dörd cümlədən ibarətdir: **a+a1+a2+b** (**a**-altı xanə, **a1**- səkkiz xanə, **a2**- yeddi xanə), **b** cümləsi isə deklamasiyalıdır. Hər bir cümlədən sonra instrumental parça səslənir. I hissədən fərqli olaraq, bu hissədə deklamasiyalı ifa daha genişdir və II hissəni tamamlayır. II hissənin strukturu bu şəkildədir:

________B________
G + vok. part.
a+a1+a2+b

III hissə (**A1**) 12 xanəlik instrumental girişlə başlayır. Girişin doqquzuncu xanələrində I və II hissələrdə olduğu kimi, vokal parça - «Əlində dəstə gül tuta» - səslənir.

Vokal partiya üç musiqi cümləsindən ibarətdir: **a+b+c** (**a**-yeddi xanə, **b**- doqquz xanə, **c**-beş xanə)**.** Hər üç musiqi cümləsi müstəqil musiqi fikrini ifadə etsə də, musiqi cümlələrinin semantik quruluşu I hissənin vokal partiyasındakı cümlələrin dəyişkənli təkrarıdır (xüsusi ilə müşaiyət partiyada). Musiqi cümlələrini bir-biri ilə üç xanəli instrumental ifada olan musiqi epizodu bağlayır. Bu cür ifa formasına digər havacatların ifasında da rast gəlmək olur.

III hissə 9 xanəli instrumental koda ilə tamamlanır. Beləliklə, III hissənin forması belədir:

________A1__________
G + vok. part. + koda
a+b+c

«Kürdü gəraylı» nın ümumi musiqi forması aşağıdakı kimidir:

_______A______+______B________+_____A1________+kod
a_G_ + vok. partiya G + vok.part G + vok.part
a + b a+a1+a2+b a+a1+a2+b a+b+c

«Kürdü gəraylı» nın musiqi formasının nəzəri təhlili onun mürəkkəb üç hissəli formada olmasını üzə çıxardı. Musiqi formasının özək mövzusu olan **G** və **a** epizodları formanın arxitektonik bünövrəsini yaradan əsas mövzu kimi diqqəti cəlb edir. Bütün musiqi forması qeyd edilən epizodların lad-intonasiyalarının ardıcıl təkrarları nəticəsində əsas musiqi fikrinin və məzmunun təməlini yaradan struktur quruluşundan ibarətdir.

## «Qaraçı» aşıq havası

«Qaraçı» aşıq havası klassik aşıq havalarından biridir. Bu hava saz ifaçılıq sənətində geniş yayılmış havalardandır. «Qaraçı» adının bu havaya həm aşıq sənətində, həm də muğam ifaçılıq ənənəsində verilməsi onu göstərir ki, vaxtı ilə bu havadan muğam ifaçılıq ənənəsində də istifadə olunmuşdur. Bu həm də onu göstərir ki, aşıq və muğam sənətləri arasında genetik əlaqə olmuşdur. Təhlil etdiyimiz «Qaraçı» havası «es» mayəli tonallıqda 1-1-1/2 tetraxordu əsasında qurulumuşdur. Lad-intonasiya xüsusiyyətlərinə görə bu hava da «Rast» ladındadır.

İnstrumental partiyanın diapazonu ladın bütün səslərini əhatə edir. Onun üçün də ifa zamanı ladın bütövlükdə intonasiya xüsusiyyətləri birüzə verir. Ladın ahəngdar səslənməsi üçün sazın digər simlərindən də istifadə olunmuşdur. Ladın əsas istinad pərdələri «es, d, c» pərdələridir.



«Qaraçı» havasının I hissəsinin lad-intonasiya xüsusiyyətləri bütün diapazon boyu özünü göstərdiyi üçün lad-tonal qarşılaşdırılmalarına geniş yer verilmişdir. Bu kimi ifa tərzi növbəti hissələrdə də özünü göstərir.

Giriş partiyasının və əsas mövzunun istinad pərdələrinin «es» səsinə düşsə də, burada ifaçı melodiyanın milli lad çeşidlərindən məharətlə istifadə edərək istinad pərdələrini «c» və «a» səslərində də verməyə müvəffəq olur (bax: 1-9-cu; 16-19-cu; 21-ci xanələr).

Vokal ifa əsas tonallıq üzərində qurulmuşdur. I hissənin vokal partiyasının diapazonu xalis kvarta üzərində qurulmuşdur. Bu, o deməkdir ki, ladın bir tetraxordu vokal partiyasının diapazonunu təşkil edir. I–ci hissənin lad-intonasiya xüsusiyyətlərini təhlil edərkən tonal qarşılaşdırmanı qeyd etmək lazımdır. Tonal

qarşılaşdırmanı həyata keçirmək üçün «ges, fes» işarələrindən istifadə edilir.

«Qaraçı» havasının vokal-instrumental xüsusiyyətləri ənənəvi aşıq kök sistemində mövcud olan sekundalı və kvartalı akkordların səslənməsi ilə daha da zənginləşdirilmişdir. Havacatın lad-intonasiya zənginliyi melodik dilin harmonikliliyinə, ahənginə də müsbət təsir göstərmişdir.

«Qaraçı» havasının **melodik dili** əvvəlki aşıq havalarının melodik dilindən bir qədər fərqlidir. «Qaraçı»nın instrumental ifa tərzinin melodik dili ənənəvi şəkildə bütün simlərdən istifadə edilməklə ifa olunduğu üçün səslənmədə daha zəngin çalarları, ifadə vasitələrini tərənnüm edir. «Qaraçı»nın ilk xanələrindən triollardan və muğam ifaçılıq üslublarından istifadə olunması havanın həm aşıq, həm muğam sənətində fərqli variantlarının mövcud olmasına dəlalət edir. İlk xanələrdən (1-12-ci xanələr) melodik fikri ifadə edən musiqi cümləsi aşıq yaradıcılığı üçün yox, muğam sənəti üçün xarakterikdir. Digər tərəfdən 16-29 - cu xanələrdə verilmiş melodik dil muğam ifaçılığı üçün xasdır.

Nəzəri təhlil göstərir ki, «Qaraçı» havasının melodik dilinin inkişaf strukturları klassik aşıq havalarında mövcud olan ifadə formalarına uyğun deyil.

«Qaraçı»nın II hissəsinin melodiyasında muğam və aşıq musiqi ifa üslubunda olan melodik dil xüsusiyyətlərinin qarşılıqlı istifadə olunması ilə qarşılaşırıq. Məsələn: II - ci hissənin 79-81, 86-91-ci xanələrində melodik fikir muğam ifaçılığına xasdırsa, 82–85-ci xanələr aşıq yaradıcılığına xarakterikdir (bax: 79–90-cı xanələr). Metro-ritmik xüsusiyyətlər dəyişdiyi üçün musiqi fikrində oynaqlıq, tembr rəngarəngliyi özünü göstərir.

III hissənin instrumental partiyasında da melodiyanın struktur quruluşu dediyimiz kimi muğam ənənəsinə daha çox yaxındır.

Vokal-instrumental aşıq havası olan «Qaraçı»nın **metro-ritmik** quruluşu ənənəvi aşıq musiqisinə əsaslanır. 47 xanədən ibarət instrumental müşayiət partiyasının giriş hissəsində artıq

çoxfunksionallı mürəkkəb metrik ölçülərlə, sadə metrik ölçülərin qarşılıqlı şəkildə işlənilməsinin şahidi oluruq. 6/8, 9/8, 3/4, 4/4, 2/4 metrik ölçülərin müşayiət partiyasında bir-birini əvəz etməsi deyilən fikrin təsdiqi kimi götürülə bilər. Müşayiət partiyasından sonra, ifaçı vokal-instrumental partiyasını «Ad libitum»la başlayır. Vokal partiyanın sərbəst metrik ölçüdə olmasına baxmayaraq, ifaçı müşayiət partiyasında ostinatlı ifa tərzini burada da qoruyub saxlamağa müvəffəq olmuşdur. Vokal partiyanın ifa tərzi giriş xarakterlidir və burada aşıq öz ifasının arasına da dəqiq 2/4 metrik ölçüdə olan ifa tərzini salmışdır. Maraqlısı budur ki, ifaçı bütün vokal partiyalar arasında müşayiət partiyasının ifasını ayrı-ayrı metrik ölçülər əsasında həyata keçirir. İfaçı «Ad libitum» vokal partiyalarının aralarına birinci dəfə 2/4 ritmik quruluşda olan müşayiət partiyasını salırsa, ikinci halda 6/8, üçüncü halda isə 3/8 metrik ölçülərdən istifadə edir. Not misalında bu metrik ölçülərin rəngarəngliyi açıq şəkildə görünür (bax: 50–52-ci; 57–59-cu xanələr).

«Qaraçı» havasının II hissəsində sadə metrik ölçülərdən istifadə olunsa da, sonrakı inkişaf prossesində 2/8, 3/4, 2/4 metrik ölçülərdən qarşılıqlı şəkildə istifadə olunur. I hissədə olduğu kimi, ifaçı öz ifa üslubuna sadiq qalaraq «Ad libitum» sərbəst metrik ölçüdə ifa etdiyi vokal partiyanı ostinatlı müşayiətlə həyata keçirir.

Təhlil etdiyimiz havacatın III hissəsində müşayiət partiyasında metrik ölçülər aşıq yaradıcılığının spesifik xüsusiyyətlərini nəzərə almaqla həyata keçirir. 2/4, 2/8, 5/8 və yenə də 2/4 metrik ölçülərin müxtəlif qrüplaşdırılmış formasından istifadə olunması səslənmənin metrik ornamentlərinə görə zənginləşdirir (bax: 114-118-ci xanələr).

Müşayiət partiyasının melodik xəttinin bu səpkidə verilməsi melodiyanın oynaqlığına, rövnəqliyinə gətirib çıxarmışdır. Aşıq ənənəvi olaraq vokal partiyasını «Ad libitum» formasında ifa edir. O, vokal partiyalar arasında yenə müşayiət partiyasını salır.

«Qaraçı» havasının metro-ritmik təhlili göstərir ki, bu aşıq havasının da metro-ritmik quruluşu ənənəvi aşıq yaradıcılığına xas şəkildə keçirilmişdir. Müxtəlif ritmik ölçülərin əsasında icra edilən bu havanın melodik quruluşu da öz təravətinə və dil zənginliyinə görə seçilir.

«Qaraçı» havasının **musiqi forması** üç hissəlidir (**A+B+C**). I hissə (**A**) giriş və vokal partiyadan ibarətdir. Geniş instrumental girişin əsasını 3 mövzu təşkil edir **a+b+c.** Burada **a** mövzusu 6/8 ölçüyə əsaslanan 18 xanəli musiqi materialından ibarətdir. Arpecio, melizmlər, forşlaqlar mövzuya melodiklik gətirir. **b** mövzusu 4/4 ölçüyə əsaslanaraq 10 xanəyə (19-28-ci xanələr), **c** mövzusu isə 6/8 ölçüyə qayıdaraq 17 xanədən (29-46-cı xanələr) ibarətdir. Girişin formasını bu şəkildə göstərmək olar:

___G___
a + b + c

Vokal partiya şeir bəndinin dörd sətirli mətni ilə əlaqədardır və üç bölmədən ibarətdir: **a+a1+a2.** Deklamasiya xarakterli **a** bölümündə şeir bəndinin iki sətri ifa edilir. İnstrumental çalğıdan sonra **a1** bölümü başlayır. Burada bəndin dörd sətirinin mənti ifa olunur. Kiçik instrumental parçadan sonra gələn **a2** bölümü **a1** bölümünün təkrarıdır. Beş xanəlik yekunla tamamlanan I hissənin forma sxemi belədir:

__________A___________
____G____+ vok. part.
a + b + c      a + a1 + a2

II hissə (**B**) I hissənin giriş mövzusunun elementlərinin təkrarından ibarət olan, lakin bir mövzulu 14 xanəlik (79-92-ci xanələr) instrumental girişlə başlayır. Vokal partiya I hissədə olduğu kimi, üç bölmədən ibarətdir (**a+a1+a2**) və bölmələr bir-biri ilə kiçik instrumental parça ilə birləşirlər. II hissənin formasının strukturunu bu sxemlə vermək olar:

__________B___________
G + vok. part.
a + a1 + a2

III hissə (**C**) 14-xanəli (114-127-ci xanələr), dəyişkən ölçülü və bir yeni mövzu üzərində qurulmuş instrumental girişlə başlayır. I və II hissələrdə olduğu kimi, burada da vokal partiya üç bölmədən ibarətdir: **a+b+b₁.** Deklamasiya xarakterli **a** bölməsi ilə **b** bölməsini kiçik 5 xanəli instrumental çalğı birləşdirir. **b** mövzusu II hissənin vokal partiyasının **a** mövzusunun üstündə qurulmuşdur. Vokal partiyanın deklamasiya xasiyyətli **b1** mövzusu isə öncə ifa olunan **b** mövzusunun təkrarıdır. Beləliklə, III hissənin forması aşağıdakı şəkildədir:

__________C___________
G + vok. part.
a + b + b1

Aparılan təhlildən irəli gələrək «Qaraçı» havasının musiqi formasını son olaraq bu halda cəmləşdirmək olar:

| _______A________ | + ________B________________ | C_______ |
|---|---|---|
| G + vok. part. | G + vok. part. | G + vok. part. |
| a + b + c  a + a1 + a2 | a + a1 + a2 | a + b + $b_1$ |

«Qaraçı» havasının musiqi formasının təhlili onun klassik üç hissəli formada olmasını üzə çıxardı. Havacatın ümumi kompozisiyasında istifadə olunan mövzular içərisində **a** bölməsi əvvəlki havacatlarda ollduğu kimi, birləşdirici xassəyə malik olub bütün mövzuları vahid lad-intonasiya çərçivəsində birləşdirmişdir.

## «Quba Kərəmi» aşıq havası

«Quba Kərəmi» aşıq yaradıcılığında geniş şəkildə, yəni, bir o qədər də tez-tez ifa edilməyən havacatlardandır. Bu aşıq havası da, bir çox başqa havacatlar kimi, məhz «Mahur» muğamının intonasiyaları üstündədir. Yuxarıdakı təhlillərdə qeyd etmişdik ki, musiqi nəzəriyyəsindən məlum oldluğu kimi «Mahur» muğamının lad quruluşu «Rast» muğamının lad quruluşu ilə eynidir. Ona görə də biz aşağıda göstərilən ladın səsdüzümünü «Rast» kimi qeyd edəcəyik.



İfaçılıq sənətinin nəzəriyyədən fərqli olaraq, bir sıra hallarda öz spesifik xüsusiyyətləri var ki, məhz onların səslənməsi nəticəsində eyni lad bünövrəsinə malik olan muğamların ayrı-ayrı melodik quruluşlara malik olmasını şərtləndirir və üzə çıxardır. Yəni, «Mahur»un melodik quruluşu «Rast»ın melodik quruluşundan fərqləndiyi kimi, onların intonasiyaları da bir-birindən fərqlidir. Melodiyanın formayaradıcı xüsusiyyətlərini müəyyənləşdirən ladın intonasiyalarından başqa ayrı-ayrı muğam dəstgahlarının melodik fikirlərinin, cümlələrinin məhz xüsusi ayaqlar vasitəsi ilə verilməsi nəticəsində melodik cümlələr, intonasiyalar bir-birindən fərqlənir. Faktiki olaraq «Mahur» muğamının lad quruluşunun «C dur»a tam mənada uyğun gəlməsi də onu «Rast» muğamından fərqləndirir. Bu mənada təhlil etdiyimiz «Quba Kərəmi» lad quruluşuna görə «Rast»ı tərənnüm etsə də musiqi cümlələrinin, fikirlərinin melodik quruluşu «Mahur»un intonasiyalarını özündə ehtiva edir.

Fakturanın təhlili göstərir ki, «Des dur» tonallığında olan «Quba Kərəmi»də «Mahur»un istinad pərdəsi kimi əsasən «des» və «f» pərdələrindən daha çox istifadə olunur. «Des» mayə pərdəsi olduğu üçün funksional baxımından «f» səsi özünü daha çox göstərir və ladın istinad pərdəsi kimi çıxış edir. Musiqi cümlələrin əksəriyyəti mayə pərdəsi əsasında qurulmuşdur. Burada melodik fikirlərinin quruluşu üfüqi istiqamətdə öz həllini tapır. Bu da vokal partiyasının məhdud diapazonundan irəli gəlir. Ladın ayaq funksiyası rolunu oynayan bir xanə həcmində olan musiqi fraqmentində epizodik verilmiş «c» və «b» səslərini nəzərə almasaq vokal partiyanın diapazonunun böyük tersiya («des–f») hüdudunda olduğunun şahidi olarıq (bax: 106-cı xanə). Musiqi nəzəriyyəsinə görə böyük və kiçik tersiya diapazonunda olan

melodik quruluşlu mövzular və ya musiqi fikirləri, cümlələri folklor musiqisinə aid olub qədim ənənələrə məxsusdur.

«Quba Kərəmi»nin lad-intonasiya xüsusiyyətlərinin təhlili göstəridi ki, major xarakterli olan lad quruluşu melodik fikirlərin formalaşmasına da təsir göstərmişdir. Havacatın fakturasından göründüyü kimi, texniki ifa tərzi, musiqi fikirlərinin cəld, mərdanə xarakterdə olması məhz «Mahur»un lad-intonasiyalarının hesabınadır.

«Quba Kərəmi» havası aşıq yaradıcılığında geniş istifadə olunsa da, bir çox aşıqlar, bu havanı öz repertuarına nadir hallarda salırlar. «Quba Kərəmi»nin **melodik dili** həm kontilenliyinə, həm də instrumental-müşayiət partiyasının texniki cəhətdən mürəkkəb və dolğun ifadə xüsusiyyətlərinə görə başqa havacatlardan seçilir. Əvvəl təhlil etdiyimiz havacatda olduğu kimi, «Quba Kərəmi»sində də, instrumental partiya sazın bir səsli solosu ilə başlayır. Burada «Moderato» tempində ifa olunmuş «Ad libitum», dəqiq ritmik quruluşda olan «Alleqro»nun ifası ilə qarşı-qarşıya qoyulur. Əlbəttə, birinci halda da melodik bünövrə «Alleqro»da ifa olunan melodiyaya əsaslanır. Ondan qabaq ifa edilən bir səsli melodik fraza, bir növ giriş xarakterli olduğu üçün məclisi ələ almaq, yəni dinləyicilərin diqqətini öz ifasına cəlb etmək məqsədini güdür. Not misalında tək səsli ifada olan melodik fraza verilmişdir (bax: 1-ci xanə).

«Quba Kərəmi»nin əsas melodik dili sadə metrik ölçüyə əsaslansa da, o, xanədaxili qruplaşmalarda istifadə olunan 32-lik və 16-lıq notlar hesabına bir qədər də mürəkkəbləşdirilmiş və bununla da melodik dildə mövcud olan oynaqlıq, təravət əldə edilmişdir (bax: 10 – 17-ci xanələr).

Not misalında verilən müşayiət partiyasının melodik quruluşunun formalaşmasında iki amilə, cəhətə diqqət yetirmək istərdim. Müşayiət partiyasının 10–12-ci xanələrində melodiyanın müşayiəti tək səsli şəkildə, «des» ostinatlı şəkildə ifası ilə verylirsə, 15–17-ci xanələrdə isə, melodik dildə oynaqlıq yaratmaq üçün həm stakkatolardan, həm də interval sıçrayışlardan istifadə

edilir. Göstərilən not nümunəsi sazın iki simindən istifadə olunmaqla həyata keçirilmişdir.

Ümumiyyətlə, xüsusi olaraq qeyd edim ki, müşayiət partiyasının fakturası, vokalı müşayiət zamanı ostinatlı ifa formasına üstünlük verir. Vokal partiyalar arasında solo ifalar zamanı isə texniki cəhətdən sazın tam harmonik səslənməsi nümayiş etdirir. Not misalında deyilənlərin təzahürünü görmək olar (bax: 49-50-ci; 59-60-ci xanələr).

«Quba Kərəmi»nin I hissəsinin müşayiət partiyasında səsləndirilən melodik dil II hissənin girişində təkrar edilmir. Hər iki hissənin melodik dilinin ortaq xüsusiyyəti onun eyni 2/4 metrik ölçüsüə əsaslanmasıdır.

II hissənin müşayiət partiyasının melodik dilinin tərənnümü dəqiq ritmik quruluşa malik iki xanəli girişlə başlayır. Bu isə ənənəvi aşıq yaradıcılığına xas olmasını ortaya qoyur. Verilən not misalında istifadə olunan ritmik komponentlərin və milli ornamentlərin formalaşdırdığı melodik dilin zənginliyini görmək olar (bax: 71-82-ci xanələr).

II hissənin sonunda ifaçı «a tempo» hissəsində həm II, həm də I hissələrin melodik dilinin əsas elementlərindən istifadə etməklə hər iki hissəni, eyni melodik fikirlə bağlayır. Not misalında bunu əyani olaraq görmək olar (bax: 118-124-cü xanələr).

«Quba Kərəmi»nin III hissəsinin melodik dili, əvvəlki hissələrdən fərqli şəkildə verilmişdir. Faktiki olaraq ifaçı hər üç hissənin melodik dilinin aftonom olaraq müstəqil şəkildə qurmağa müvəffəq olmuşdur (bax: 130-133-ci xanələr).

III hissənin müşayiət partiyasının melodik dilinin formalaşmasında əvvəlki hissələrdən fərqli, yeni metirk ölçülərin, məsələn: 3/8, 5/8, 6/8, 8/8 ölçülərin ifaya daxil edilməsi olmuşdur. İnstrumental partiyanın melodik dilinin təhlili göstərir ki, hər dəfə yeni melodik frazaların ifaya daxil edilməsi nəticəsində yeni musiqi fikirləri, çalarlar, havacatın ümumvahid melodik dilinin formalaşmasında xüsusi əhəmiyyət daşımışdır.

III hissənin giriş hissəsində əslində hər biri dörd xanədən ibarət olan səkkiz xanəlik iki musiqi fikri verilmişdir. Melodik dilin fakturasından göründüyü kimi, bu yeni mövzudur. Not misalında həmin mövzunun əvvəlkilərdən fərqli cəhətləri nəzərə çarpır (bax: 130-137-ci xanələr).

III hissənin vokal-instrumental partiyasının melodik dili dəqiq metrik ölçülərə əsaslanır. Melodik dilin quruluşunda, 3/4, 3/8, 5/8, 6/8, 8/8 metrik ölçülərin iştirak etməsi, mövzunun ənənəvi aşıq yaradıcılığına xas formada yaradılmasına geniş imkan açmışdır. Fakturadan göründüyü kimi, vokal partiyasını, ifaçı birinci simdə olduğu kimi təkrar edir və bununla da vokal ifalarda olan boşluğu doldurur.

«Quba Kərəmi»nin melodik dilinin təhlili göstərir ki, hər üç hissədə yeni mövzular verilsə də, onların formalaşmasında istifadə olunan ümumi elementlər, melodik frazalar, vahid melodik dilin formayaradıcı xüsusiyyətlərini ortaya çıxarmış olur. Havacat dinlənilərkən hiss olunur ki, onun melodiyasının formalaşmasında lad-intonasiya və müxtəlif çeşidli zəngin metrik ölçülərdən istifadə olunması, ənənəvi aşıq ifa tərzinin, musiqi dilinin səciyyəvi cəhətlərinin daha qabarıq şəkildə üzə çıxarılmasına öz təsirini göstərmişdir.

Aşıq ifaçılıq ənənəsinin zəngin repertuarında özünə məxsus yer tutan «Quba Kərəmi»nin rəngarəng ritmik komponentlər əsasında yaradılması ilk növbədə onun melodik dilinin **metro-ritmik** quruluşunun zənginliyini üzə çıxarmış olur. Maraqlısı burasıdır ki, bir çox hallarda mürəkkəb olmayan ritmik quruluşlarda, xanədaxili qruplaşmalar, mürəkkəb ifa tərzi formasında həyata keçirilmişdir.

«Quba Kərəmi»nin birinci melodik cümləsi, 9/4 metrik ölçü əsasında verilmişdir. Adətən belə ölçü aşıq yaradıcılığında nadir hallarda rast gəlinir. Not misalında 2/4 və 3/4 metrik ölçülərə əsaslanan quruluşların rəngarəng metrik qruplaşmaları göstərilmişdir (bax: 1–3-cü; 5–6-cı; 11-ci; 13–14-cü xanələr).

Not misalında göstərilən ritmik komponentlər, sözsüz ki, melodik dilin oynaqlığına, rəqsvariliyinə xüsusi olaraq imkan yaratmışdır. «Quba Kərəmi»nin instrumental-müşayiət partiyasının ritmik komponentləri, onun melodik dilinin formalaşmasının, interval sıçrayışlarının, stakkatoların, forşlaqların, mordentlərin istifadə olunması nəticəsində rövnəqliyinə təsir yaradırsa, vokal-instrumental partiyada isə, diapazon məhdudiyyəti nəticəsində həmin ritmik ünsürlər xanədaxili ritmik vəznlərin rəngarəngliyinə geniş imkan açmışdır.

Vokal partiyalar arasında istifadə olunan melodik frazaların melodik quruluşlarında nöqtəli notlardan istifadə olunması nəticəsində oynaq xarakterli melodik frazalar ifaya daxil edilir (bax: 58-59-cu xanələr).

I hissənin sonunda, «Moderato» tempində və «Ad libitum» sərbəst ölçülü vokal partiyalar da ifaya salınmışdır. I hissənin metrik ölçülərindən fərqli olaraq, II hissədə daha mürəkkəb ritmik komponenlər ifaya daxil edilmişdir. Sözsüz ki, belə ritmik şuruluşlu ölçülər melodik dilin formalaşmasında öz əksini tapmışdır. Göstərilən not nümunəsində ayrı-ayrı xanələrin ritmik quruluşların formulları verilir (bax: 66-74-cü xanələr).

II hissənin vokal partiyasının metrik ölçüləri də fərqli şəkildə verilmişdir. Burada 6/8, 2/8, 6/16, 2/4, 5/8 metrik vəznlərə əsaslanan qruplaşmalarda zəngin melodik ifadə tərzinin meydana çıxmasını şərtləndirir. Vokal partiyasının metrik quruluşlarına diqqət yetirsək görərik ki, bu metrik vəznlər vokal xəttin lirik emosional formada inkişafına geniş imkan yaratmışdır (bax: 97-ci; 99-cu; 101-ci xanələr).

«Quba Kərəmi»nin III hissəsinin vokal partiyasının metrik ölçüləri II hissə ilə uyğunluq təşkil etsə də, burada 3/8, 5/8, 8/8 ritmik quruluşlardan istifadə olunması əvvəlki rəngarəngliyi bir qədər də genişləndirmiş olur. III hissənin vokal partiyası sona qədər dəqiq ritmik ölçülər əsasında ifa edilir. Not misalının fakturasından göründüyü kimi, istər vokal, istərsə də müşayiət

partiyasının eyni ritmik komponentlərdən istifadə olunması melodik dilin emosional təsir bağışlamasında öz əksini tapmışdır.

«Quba Kərəmi»nin metrik ölçülərinin təhlili göstərir ki, vokal partiyada eyni metrik ölçülərdən istifadə olunması vokal partiyanın lirik-emosional səslənməsinə təsir edirsə, instrumental-müşayiət partiyasında həmin metrik ölçülərdən yararlanan ifaçı, melodiyanın formayaradıcı xüsusiyyətlərindən dinamizmin, oynaqlığın və ehtiraslı ifadə xüsusiyyətlərinin verilməsində məharətlə istifadə etmişdir.

«Quba Kərəmi» havası üç **A+A1+A2** hissəli **formada** yazılıb**.** I hissə instrumental girişlə başlayır. İyirmi üç xanəli girişdən əvvəl 9/4 metrik ölçüdə olan bir səsli solo melodiya səslənir. Melodiyadan sonra «Alleqro» tempində dəyişkən ölçü və xarakter etibarı ilə cəld və hərəkətli instrumental giriş başlayır. Giriş partiyasının tonallığı «Des dur»du. Onun fakturası texniki ifa xüsusiyyətlərinə görə 16-lıq və 32-lik notlarla verilmişdir. Girişin sonunda 2- xanəli vokal mövzu ifa olunur.

I hissənin vokal partiyası dörd **a+ a1+ b+ c** bölmələrindən ibarətdir. Bölmələr bir-biri ilə instrumental ifa ilə birləşirlər. Birinci, **a** bölməsi yeddi xanəli, dəyişkən ölçülü və kiçik diapazonda verilib. İkinci **a1** bölməsi isə 8-xanəli olduğu halda, mövzu etibarı ilə **a** bölməsinə oxşar olub onun başqa variantıdır. Üçüncü, melizmlərlə zəngin və on xanədən ibarət olan **b** bölməsidir. Dördüncü **c** bölməisi isə deklamasiya üslubunda verilmişdir. Beləliklə, I hissənin musiqi formasını aşağıdakı şəkildə göstərmək olar:

________A________
G + vok. part.
a+a1+b+c

Havacatın II hissəsi, rəqsvari melodiya əsasında qurulumuş və dəyişkən 2/4, 2/8, 2/4 metrik ölçülərdə xırda ritmlərlə verilən on beş xanədən ibarət olan instrumental girişlə başlayar.

II hissənin vokal partiyası üç **a+a1+a2** bölmədən ibarətdir. Bölmələr mövzu etibarı ilə bir-birinə oxşar və kiçik diapazon

həcmində verilib, yəni birinci **a** bölmə səkkiz xanə, ikinci **a1** bölməsi on bir xanə, üçüncü **a2** bölməsi isə səkkiz xanədən təşkil olunmuşdur. II hissəni on bir xanəli instrumental ifa tamamlayır.

________A1________
G + vok. part.
a+a1+a2

III hissə 10-xanəli (130-139-cu xanələr) «Des dur» tonallığında verilmiş kiçik instrumental girişlə başlayır. Girişin mövzusu əvvəlki hissələrin giriş mövzusundan fərqli şəkildə olub struktur quruluşuna görə nisbətən sadədir.

Vokal partiya burada da üç **a+b+c** bölmədən, lakin əvvəlkindən fərqli üç müstəqil musiqi epizrodlarından ibarətdir. Birinci, **a** bölməsi 3/4, 2/4 metrik ölçülər əsasında verilir və I hissənin vokal partiyasının birinci bölməsinin mövzusu ilə oxşarlıq təşkil edir. İkinci **b** bölməsi **a**-dan bir qədər fərqlidir. Hər iki bölmədən dəyişkən 6/8, 2/4, 6/4, 8/8, 6/8 metrik ölçülərə görə fərqlənən üçüncü **c** bölməsidir. Havacat vokal partiya ilə bitir.

________A2________
G + vok. part.
a+b+c

Beləliklə, təhlil etdiyimiz havacatın musiqi forması belədir.

| ______A______ + | _______A1_______ + | _______A2_________ |
|---|---|---|
| G + vok. part. | G + vok. part. | G + vok. part. |
| a+a1+b+c | a+a1+a2 | a+b+c |

«Quba Kərəmi» havasının musiqi formasının təhlili göstərir ki, bu hava dastan yaradıcılığında istifadə olunduğuna görə onun musiqi forması mətnin məzmunundan irəli gələn tələbata uyğun şəkildə uzadılmış və üç hissəli formada təqdim olunmuşdur. **A+A1+A2** formasının struktur quruluşu faktiki olaraq göstərir ki, hər üç hissənin struktur quruluşu birinici hissənin eynidir. İkinci və üçüncü hissələr mövzunun işlənməsinə və inkişafına görə müstəqil olmayıb birinicinin nisbətən dəyişdirilmiş

variantıdır. Bu da onu sübut edir ki, «Quba Kərəmi» havasının klassik ifada musiqi forması bir hissəlidir.

## «Mansırı» aşıq havası

«Mansırı» klassik aşıq havacatlarından biridir. O həm ifaçılar, həm də aşıq sevərlər tərəfindən rəqbətlə qarşılanır. Lad-intonasiya quruluşuna görə muğamın «Rast» muğamının «Şikəsteyi - Fars» şöbəsinin əsasındadır. Ümumiyyətlə, qeyd edim ki, aşıq yaradıcılığına xarakterik olan müştərək lad-intonasiya çeşidləri bir çox havalarda özünü göstərdiyi kimi «Mansırı»da da özünü birüzə verir. Bir tərəfdən «Şikəsteyi-Fars» şöbəsinin «Rast» ladı üstündə olması, digər tərəfdən «Segah» muğamının intonasiyaların burada qabarıq özünü göstərməsi qeyd etdiyimiz müştərək lad-intonasiya məkanını yaratmış olur. Əgər buna biz elmi-nöqteyi nəzərdən yanaşsaq, o zaman onun aralıq lad və yaxud lad daxili yönəlmə olduğunu iddia edə bilərik. Hər halda «Mansırı»nın «Şikəsteyi-Fars» üstündə olması bir fakt kimi qalır və burada melodik fikirlərin, cümlələrin, əsasən, üç istinad pərdəsi «f, es, d» əsasında yaradılması təhlillər nəticəsində təsdiq olunur. Aşağıdakı not misalında «Mansırı»nın lad quruluşu göstərilmişdir.



«Mansırı»nın vokal partiyası, əsasən, əksidilmiş kvarta diapazonundadır. «Mansırı» havasının kvarta diatonikasının kəsişmə nöqtəsində-oxumada müstəqil kiçildilmiş (əskidilmiş) məqam əmələ gəlir ki, onun mühüm nişanələrindən əskidilmiş kvarta, məqamın yüksək dərəcədə mərkəzləşməsi və son bəm səs pərdəsinin tək-tək intonasiya ilə oxunması kimi qeyd olunmalıdır» (9, s.42). «D,  ges» pərdəsinə enharmonik «d, fis» kimi baxsaq bunun major üçsəsliyi olması göz önündə canlanacaq. Bu isə «Segah» muğamının əsas səs sırasını birüzə verir.

İnstrumental partiyanın fakturasında da səslərin vokal partiyada olduğu kimi hərəkət etməsi onun adekvat olaraq «Segah» üstündə olmasını sübut edir. İnstrumental partiyanın girişində melodik cümlələr «es» istinad pərdəsi əsasında formalaşmışdır. Vokal partiyanın ifasında isə ilk musiqi intonasiyaları «f» və «d» istinad pərdələrinə əsaslanır. Maraqlısı burasıdır ki, əsər bütövlükdə qeyd olunan üç istinad pərdə əsasında formalaşsa da instrumental partiyanın «es», vokal partiyanın isə «f» və «d» səsləri əsasında yaradılması  tonal rəngarəngliyini ortaya çıxarılmasına şərait yaratmışdır. Ümumiyyətlə qeyd edək ki, «Mansırı»nın kiçik diapazonunda tonal effektlərini yaratmaq bütün kompozisiya boyu müşahidə olunur. Hətta diklomasiya ifa üslubundan istifadə olunduğu halda belə, yenə «es, d» daha sonra isə «f» səsi qarşılaşdırılır.

«Mansırı»nın lad-intonasiya xüsusiyyətlərinin təhlili göstərir ki, əsər eyni bir lad üstündə qurulsa da, istinad pərdələrinin yerinin tez-tez dəyişdirilməsi nəticəsində ifada tonal effektləri yaradılmışdır.

«Mansırı» aşıq havasının **melodik dili** ənənəvi aşıq musiqisinə xas şəkildədir. «Mansırı»nın baş mövzusuna başlamamışdan öncə üs xanədən ibarət, aşıq yaradıcılığına xas ritmik quruluşun səsləndirilməsi verilir. 2/4 metrik ölçüyə əsaslanan bu ritmik quruluşda xanənin güclü zərbələrinin forşlaqlarla və aksentlərlə başlanması, melodik dilin qəhrəmani şücaət xarakterik xüsusiyyətlərini ortaya çıxardır. Maraqlı burasıdır ki, «Mansırı»nın melodik dilinin formalaşmasında girişdə verilən metrik ölçülər əsas aparıcı rol oynayır (bax: 1–2-ci xanələr).

Not misalında göstərilən ritmik quruluş melodik bünövrənin formayaradıcı amili kimi 8, 9, 13, 15, 17, 19, 22, 26, 29-cu və sairə xanələrdə tez-tez işlədilməsi, melodik quruluşun məhz həmin ritmik bünövrə əsasında yaradılmasını təmin etmişdir. Göstərilən metrik ölçünün quruluşu leytintonasiyanın əsasını təşkil edir.

«Mansırı»nın instrumental müşayiət partiyası melodik dil xüsusiyyətlərinə görə zəngin və koloritlidir. Musiqi dilinin formalaşmasını harmonik və müxtəlif ritmik komponentlər baxımından təhlil etsək, onun, əsasən, milli lad-intonasiya xüsusiyyətlərindən geniş istifadə olunmasının şahidi olarıq. Burada mordentlərdən, tremolalardan, qısa forşlaqlardan mütamadi istifadə olunması onun milli koloritini də zənginləşdirir.

İnstrumental partiyanın melodik dili, 3 xanəlik metrik ölçülərin nümayişi ilə və 4 xanəlik triollardan ibarət dalğavari quruluşa malik hərəkət formasından sonra yenə də 1 xanədən ibarət, əvvəlki metrik ölçünün təkrarından sonra gələn əsas mövzunun səsləndirilməsi ilə başlayır. Qeyd etdiyimiz epizodlar, təksəsli formada ifa edilirdisə, əsas mövzunun başlanğıcı isə, sazın bütün texniki imkanlarından, zəngin harmonik dilindən istifadə olunmaqla həyata keçirilmişdir. İnstrumental partiyasının melodik quruluşunun formalaşmasında əsasən iki metrik ölçü: 2/4, 3/4-dən istifadə olunmuşdur. «Mansırı» havası instrumental müşayiət partiyası ilə başlayır və onun ifası ilə də tamamlanır.

«Mansırı»nın vokal-instrumental partiyası, öz təzahürünü, geniş formada tapır. Vokal partiyası, ənənəvi olaraq, həm dəqiq metrik ölçülərə əsaslanan formada, həm də «Ad libitum» sərbəst şəkildə ifadə olunmuşdur. Vokal partiyanın melodik dilinin diapazonu kiçik tersiya hüdudundadır («d–f»). Adətən kiçik diapazon quruluşu olan melodiyaların rəngarəngliyindən, melodik dil zənginliyindən danışmaq çətindir. Çünki adi bir məntiqdir ki, üç musiqi tonunun iştiraki ilə qurulan melodik dil geniş, əhatəli olmadığı üçün onun özündə cəmləşdirdiyi rəngarənglik, lad-intonasiya xüsusiyyətlərinin çalarlarını göstərmək çətindir.

Vokal partiyanın melodik dilinin zənginləşdirilməsi üçün ifaçı-aşıq müxtəlif ifa priyomlarını ifaya daxil edir ki, bu da ümumi harmonik səslənmədə öz əksini tapmış olur. Vokal partiyanın fakturasından görünür ki, ifaçı vokal ifanı, eyniliklə sazın birinci simində təkrarlayır. İfada istinad pərdələrinin intonasiya-

larının arası kəsilməməsi üçün müşayiət partiyasında həmin səslər daha kiçik ölçülərə (onaltılıqlara) bölünərək ifa edilir (bax: 102-104-cü xanələr).

Vokal-instrumental partiyasının icrasında deklomativ ifa üsulundan da istifadə olunur. «Mansırı»nın vokal-instrumental partiyaları arasına solo-instrumental ifaların salınması, ənənəvi formada həyata keçirildiyi üçün vokal və instrumental partiyalar arasında xüsusi bir intonasiya körpüsü yaradılmış olur. İnstrumental partiyanın melodik dili ilə vokal partiyanın melodik dili arasında üzvü əlaqə, məhz bu epizodların ifaya salınması ilə yaranır.

«Mansırı»nın melodik dilinin təhlili göstərdi ki, instrumental partiyasının melodik dili geniş diapazonda verilsə də, vokal partiyanın diapazonu kiçik tersiya hüdudundadır. Ənənəvi aşıq ifa üslubuna xas ifa formasına uyğun ifa üslublarından istifadə olunması instrumental ifanın melodik dilini zəngin formada təqdim etməyə şərait yaradırsa, vokal partiyanın melodik dili sadə və anlaşıqlı şəkildə verilmişdir. Burada vokal və instrumental partiyaların melodik dilinin zənginliyi, eyni zamanda müşayiət partiyasının harmonik dilinin zəngin milli çalarlara əsaslanması nəticəsində havacatın melodik dilinin ümumi planda gözəl və təravətli səslənməsinə zəmin yaratmışdır.

«Mansırı» aşıq havasının 2/4 **metrik quruluşu** ilə başlayan ilkin xanələrindən aşıq ənənəsinə xas intonasiyaların melodik quruluşunun şahidi oluruq. «Mansırı»nın əsas mövzusunun əsas bünövrəsi aşağıdakı not misalında göstərilən metrik quruluş əsasında yaradılmışdır (bax: 1-ci xanə).

Müşayiət partiyasının metrik quruluşları arasında 3/4, 5/8, 3/8, 6/8 metrik quruluşlara da rast gəlmək olur. «Mansırı»nın melodik quruluşunun müxtəlif şəkillərdə olmasına ritmik quruluşların böyük təsiri var. Müşayiət partiyasının ayrı-ayrı xanələrindən götürülmüş aşağıdakı not nümunəsində metro-ritmik quruluşların musiqi dilinin çoxplanlı şəkildə qurulmasında oynadığı rolunu açıq aşgar görə bilərik (bax: 1-ci; 4–5-ci; 9–10-cu; 20-ci; 37-ci xanələr).

Misaldan göründüyü kimi, müxtəlif ritmik şəkillərə milik olan qruplaşmalar, melodik dilin həm quruluşuna, həm üslubuna, həm də ritmik ifadə vasitələrinə təsir göstərir.

Vokal-instrumental partiyanın metro-ritmik quruluşu daha sadə şəkildədir. I hissənin vokal partiyasının metrik quruluşu 2/4-ə əsaslansa da, o, beş xanəlik giriş xarakterli uzadılmış səslərlə başlayır. Yəni vokal partiyanın ilk xanələrində metrik quruluşun musiqi dilinin quruluşunda hiss olunmaması müraciət xarakterli «...ey balam» ifadəsi ilə bağlıdır.

Vokal partiyanın melodik quruluşu 2/4 ritmik ölçüyə əsaslanır və burada deklamativ ifa üslubundan («Ad libitum») da istifadə edilir. Maraqlı burasıdır ki, ifaçı deklamativ ifa tərzini, ritmik ifaların arasına salmışdır. Bu da onu göstərir ki, ritmik komponentlər melodik bünövrənin əsas özəyini, quruluşunu təşkil etmişdir. «Mansırı»nın son koda hissəsi, 6/8, 5/8 və 2/4 metrik ölçülərin əsasında qurulmuş melodiya ilə sona yetir.

«Mansırı»nın metro-ritmik quruluşunun təhlili göstərdi ki, onun melodik bünövrəsinin əsasını 2/4 ritmik quruluş təşkil etsə də, burada, digər ritmik quruluşlaradan da geniş istifadə olunmuşdur. Rəngarəng metrik ölçülər müşayiət partiyasının melodik dilini zənginləşdirdiyi kimi, vokal-instrumental partiyada da 2/4 metrik quruluşa əsaslanan ritmintonasiyaların əmələ gətirdiyi melodik dil xüsusi əhəmiyyətə malikdir. Musiqi fikrinin formalaşmasında orta bölməyə deklamativ «Ad libitum» ifa tərzinin salınması, metro-ritmik strukturun qarşılaşdırılması, bununla da, ritmformulların təzadlığının artırılması ilə nəticələnmişdir. Əlbəttə, belə səpkidə qurulan melodik dil öz təravətinə görə seçilir və milli ənənənin özəlliklərini ortaya çıxarmış olur.

«Mansırı» aşıq havası dastanda üç hissəli **A+B+$A_1$ formada** təqdim olunur. Havacatın ifasında ayrı-ayrı mövzuların vahid forma çərçivəsində mətnlə əlaqədar təkrarlarla verilməsi onun forma konturlarının dəqiqləşdirilməsini bir qədər çətinləşdirir. Çünki havacatda verilən dörd sətirdən ibarət olan şeirin mətni müəyyən

musiqi cümlələrilə tərənnüm olunarkən fasiləsiz, yəni vokal ifalar arası instrumental epizodların olmadan verilməsi ilə səslənir. Musiqinin semantikası lirik xarakterdə olub durna qatarına müraciətdir, mətndə onların hara köçmələri, hara uçmaları soruşulur.

Havacat böyük, 39 xanəlik instrumental girişlə başlayır. Girişin 26 xanəsi yalnız instrumental ifa, on üç xanəsi isə artıq vokalla ifa olunur. İnstrumental giriş qarışıq ölçüdə yazılıb. 2/4 ölçüdə başlayan giriş, sonradan 3/4-ə keçir və sonda yenə də 2/4 ölçü ilə tamamlanır. Üç xanə sazın bir simində «e» səsində forşlaqla gedir. Ümumiyyətlə, girişdə triol, mordent, trellərdən ibarət melizmlərdən geniş istifadə olunub. Girişin ikinci hissəsi «Ey balam ey» sözləri ilə verilib.

Havacatın I hissəsi (**A**) vokal partiyası üç cümlədən ibarətdir. 11 xanədən (40-50-ci xanələr) ibarət olan **a** cümləsi 2/4 metrik ölçüdə verilir və harmonik cəhətdən sadədir. Aşıq musiqisi üçün xarakterik olan harmonik səslənmədən bu havacatın ifasında az istifadə olunur. 8 xanəlik instrumental ifadan sonra gələn **b** cümləsi, birinci cümlədə olduğu kimi, on bir xanədə tersiya diapazonunda keçir. Burada müşayiət partiyası, **a** cümləsinin müşayiət partiyasının təkrarıdır. On xanəli üçüncü **c** cümləsi də əvvəlki cümlələr kimi kiçik diapazonlu, lakin reçitativ üslubda verilib.

A

G + vok. part.

a+b+c

«Mansırı»nın II hissəsi (**B**) bütövlüklə «Ad libitum»dan ibarətdir (90-cı xanə). Deklamasiyalı və reçitativli bu hissənin müşayiət partiyası I hissədəkinin təkrarıdır.

B

«Ad libitum»

III hissə (**A1**) 23-xanəli (115-137-ci xanələr) instrumental girişlə başlayır. I hissədə olduğu kimi, burada da giriş həm instrumental, həm də vokal hissələrdən ibarətdir. Buradakı vokal hissə I hissənin girişində keçən vokal hissəni təkrar edir. Vokal

partiya üç musiqi cümləsindən ibarətdir. Bir-biri ilə kiçik instrumental ifa vasitəsi ilə birləşən cümlələr **a**-12 xanə, **b**-10 xanə, **c** cümləsi isə 11 xanədən ibarətdirlər. Beləliklə, «Mansırı»nın ümumi forması bu şəkildədir.

| A | + | B | + | A1 |
|---|---|---|---|---|
| G + vok. part. | | «ad libitum» | | G + vok. part. |
| a+b+c | | | | a+b+c |

«Mansırı»nın musiqi formasının təhlili göstərdi ki, dastanda havacat üç hissəli formada təqdim olunur. Solo ifada yalnız **A** hissəsindən ibarət olan havacat dastan yaradıcılığında daha geniş formada verilib. Ümumiyyətlə, klassik ifa formasında olan qədim aşıq havaları dastan yaradıcılığında mətnin, məzmunun xüsusiyyətlərindən irəli gələn spesifik cəhətlərə görə daha geniş formada ifa olunur. Bu da həmin dastanın melo-poetik xüsusiyyətlərinin səciyyəviliyini, forma strukturunu müəyyənləşdirmiş olur. «Mansırı»nın ikinci hissəsinin sırf «ad libitum» şəklində ifası forma baxımından yenidir. Dastanın mətninin məzmununu, onun poetik semantikasını dinləyiciyə çatdırmaq üçün ifaçı-aşıq üçüncü hissəni A1-i faktiki olaraq ifaya əlavə etmişdir. Yəni «Mansırı»nı bir və ya iki hissəli formada da ifa etmək olardı. Təhlil göstərir ki, aşıq havalarının forma xüsusiyyətləri imkan verir ki, onun harada və hansı məclisdə ifasından asılı olaraq ifaçı-sənətkar onun ifa forma strukturunda müəyyən artırmalar və azaltmalardan istifadə etsin.

## «Məmmədbağırı» aşıq havası

«Məmmədbağırı» aşıq havası «Şikəsteyi-Fars» şöbəsinin lad bünövrəsi əsasındadır. Bir çox aşıq havaları kimi, «Məmmədbağırı»nın melodik strukturu da lad-intonasiya quruluşuna görə həm «Şikəsteyi-Fars» şöbəsinin, həm də «Rast» muğamının lad səsdüzümünün pərdələri əsasında formalaşmışdır. Aşıq yaradıcılığında eyni bir lad quruluşuna məxsus, lakin həmin ladın digər funksional pərdəsi əsasında formalaşan şöbənin lad xü-

susiyyətlərini özündə əxs etdirmək məhz «Rast» ladı üçün xarakterikdir. «Lad problemi müasir peşəkar və xalq musiqisində o qədər geniş, mürəkkəb anlayışdır ki, təbii ki tədqiqatçılar ilkin olaraq onun həllini müxtəlif cəhətlərdə və ayrı faktlarda axtarmalıdırla»[4]Musiqi nəzəriyyəsindən bildiyimiz kimi, «Rast»ın «Şur» və «Segah» muğamlarının qohumluq əlaqələrini göstərmək üçün və yaxud «Şur»a və ya «Segah»a keçmək üçün eyni səsqatarında istinad pərdələrin yerini dəyişmək kifayətdir. «Xalq musiqi janrları və formalarının təhlili göstərir ki, məqamtonallıqların qarşı-qarşıya qoyulması səs tərkiblərinə görə uyğun olan müəyyən məqam qrupları ilə əlaqədar olaraq ciddi qanun qaydalara tabedir. Böyük sekunda yuxarı münasibətdə olan Rast, Şur, Segah kimi üç məqamın səs sırasına nəzər yetirsək, tərkib etibarılə bunların eyni olub, lakin mayə pərdələrinə görə bir-birindən fərqləndiyini görərik» (7, s.55). Bu baxımdan araşdırılan «Məmmədbağırı» havasında 1-1-1/2 tetraxordu əsasında qurulmuş lad bünövrəsinə baxmayaraq havacatın melodik quruluşu «f» mayəli «Şikəsteyi-Fars» şöbəsinə əsaslanır.

Havacatın I hissəsinin əvvəlində «Ad libitum» (muğam parçasının) «Şikəsteyi-Fars»ın melodik quruluşunun verilməsi də qeyd edilən fikiri təstiq edir (bax: 14-cü xanə).

Aşağıda «Məmmədbağırı»nın lad quruluşu göstərilmişdir.



Yuxarıda göstərilən not misalında «Məmmədbağırı» havasının ritmik quruluşunun və melodik dilinin nümayişindən sonra 14-cü xanədə muğam parçasının verilməsi havacatın melodik bünovrəsinin məhz «Şikəsteyi-Fars» əsasında qurulmasını ön plana çıxarır. Maraqlısı burasıdır ki, ifaçı havacatın ortasında muğam parçasını işlədərək instrumental ifadan vokal ifaya keçir. İnstru-

[4] Aşıq Hüseyn (Cavan). Qoşmalar. Bakı: Azərnəşr, 1959, s.9

mental ifa ilə vokal ifa arasında «Şikəsteyi-Fars»ın vurğulanması muğam intonasiyaların havacatda üstünlük təşkil etməsini göstərir.

Havacatın instrumental partiyasının fakturasında, o cümlədən, vokal-instrumental partiyasının quruluşunda melodik quruluşun üfüqi istiqamətdə hərəkəti diqqəti cəlb eləyir. Havacatın melodik quruluşunun sıçrayışlı və ya müxtəlif intervallara hərəkəti müşahidə olunmaması ilk növbədə «Segah» muğamının «Şikəsteyi-Fars» şöbəsinin intonasiyalarına istinad etməsindən irəli gəlir. Havacatın melodik quruluşu, əsasən, «f» istinad pərdəsi əsasında qurulmuşdur. Deyilən fikirləri vokal partiyada daha aydın şəkildə görə bilərik. Həm vokal, həm də instrumental partiyalarda «qes» səsindən istifadə olunması «Şikəsteyi-Fars»ın lad quruluşu ilə bağlıdır. Aşıq havalarının, o cümlədən təhlil etdiyimiz havacatın lad-intonasiya quruluşunun «Rast» olmasına baxmayaraq, burada «Şikəsteyi-Fars» şöbəsinin lad quruluşunun xüsusi olaraq özünü göstərməsi aşıq yaradıcılığına xarakterik olsa da onun nə ilə bağlı olması nəzəri baxımdan maraq doğurur. Bu məsələyə aydınlıq gətirmək üçün L.S.Muxarinskayanın fikrinə diqqət yetirək. O yazır ki, inamlı şəkildə təsdiq edə bilərik ki, bu və ya digər ladın stabil ifadəlilik strukturu və ona uyğun olan səs sistemi başlanğıc etaplarında melodik dövriyyənin kəskin mənalılığını təkcə «xarakter lad intervalı»nda tapmır, melodik dönmənin məişətdə öz fuksionallığı ilə mövcud dayaqları öz səlistliyi, semantikası ilə lad səssırasındakı intervala, hətta keyfiyyətcə rəngarəng olan onun ayrı bir tonuna ifadəlilik və stabillik gətirir [5] .

Melodik cümlələrin başlanğıcı «f» maya səsinə əsaslanırsa musiqi fikrin sonluğu əsasən «es, d» və sonda isə «c» səsində tamamlanır. Belə kadensiyalar melodik xəttin enən xətt üzrə inkişafını göstərir.

---

[5] Aşıq İsfəndiyar.Baş sarıtel:Ustadnamə, gəraylılar, qoşmalar, deyişmələr və s. Bakı: Səda, 2007, s.30

I hissənin sonuna on xanə qalmış vokal partiyada kadensiyada «c, as» səslərinin işlədilməsi «Segah» muğamının lad quruluşuna işarədir. Burada faktiki olaraq I hissənin sonu vokal partiyada «c» səsində bitdiyi üçün ona yönəltmə kimi və yaxud mayenin dominant pərdəsi kimi də baxmaq olar. Maraqlısı burasıdır ki, qeyd edilən pərdələr klassik harmoniya nəzəriyyəsi baxımından söylənilmişdir. Muğam lad quruluşuna görə isə «c» pərdəsi «Segah»ın əsas maye pərdəsini xarakterizə etmiş olur.

Əsərin II və III hissələrində də eyni prosessi izləmək olar, lakin musiqi fikirlərin sonluğu ilkin gedişlərdə «des» səsinə sonda isə əsər tamamlandığı üçün yenə «Segah» pərdəsində tamamlanır.

Verilən təhlildən görünür ki, «Məmmədbağırı»nın lad-intonasiya quruluşu 1-1-1/2 tetraxordu əsasında formalaşsa da, burada «Segah» muğamının lad-intonasiya quruluşu özünü daha çox göstərir və havacatın melodik dili sırf «Şikəsteyi-Fars» şöbəsinin üstündə qurulmuşdur.

«Məmmədbağırı» aşıq havasının **melodiyası** aşıq ritmik formulları əsasında yaradıldığı üçün özündə oynaqlığı, rövnəqliyi ehtiva etmişdir. Havacat 21-xanəli instrumental partiyanın girişi ilə başlayır. Digər aşıq havacatlarında olduğu kimi, burada da əsas mövzunun bünövrəsi havacatın giriş-instrumental partiyasının özülündə qoyulmuşdur. Əsas mövzunun melodik dili instrumental müşayiət partiyasının birinci iki xanəsinin ritmik formulları əsasında yaradılmışdır. Bu baxımdan əsas melodiyanın dilini formalaşdıran bu ritmik formullar sonradan bütün əsər boyu leytritm formulası kimi özünü göstərmişdir. Əsas mövzunun quruluşu not nümunəsinə diqqət yetirsək, onun əsasən iki səsli formada həyata keçirildiyinin şahidi olarıq (bax: 3–8-ci xanələr).

İnstrumental-müşayiət partiyasının fakturasında solo şəklində ifa edilən melodiyalar arasında «Ad libitum»a (muğam ifası –N.R.) keçidin verilməsi ilk dəfədir ki, rast gəlinir. Adətən instrumental giriş partiyaların əvvəlində səsləndirilən «Ad libitum»dan (muğamdan) sonra dəqiq ritmik ölçülərə əsaslanan müşayiət parti-

yası verilirdisə, burada müşayiət partiyasının içində belə metotdan istifadə olunması giriş partiyasını üç hissəyə ayırır. Düzdür, burada «Şikəsteyi-Fars»ın simvolik olaraq ifası, sadəcə muğam leytintonasiyaların ifaya nüfuz etməsinin göstəricisi kimi qəbul olunmalıdır. «Məmmədbağırı»nın əsas mövzusu hansı ritmik formullara əsaslanırdısa, həmin elementlərin muğam parçasının ifasından sonra da verilməsi havacatın melodik dilinin bünövrəsini ritmformullar əsasında yaranmasını ön plana çıxardır.

Vokal partiyasının ifasını müşayiətdə yenə də ritmik formullar davam etdirir. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, vokal partiyanın müşayiəti harmonik cəhətdən zəngin çalarlarla həyata keçirilmişdir (bax: 19–21-ci xanələr).

Vokal partiyasının fakturasından göründüyü kimi, səs texnikasının işlədilməsi üçün boğazda qısa forşlaqlardan, tremolalardan, mordentlərlən geniş istifadə olunmuşdur. Vokal partiyasının I hissəsinin sonunda dəqiq ritmik formullar, triollar əsasında oxunması bu vaxta qədər təhlil etdiyimiz havacatlar arasında rast gəlinməmişdir. Bu, bir daha sübut edir ki, həm vokal, həm də müşayiət partiyasının melodik dilinin bünövrəsini ritmik formullar təşkil edir (bax: 50-52-ci xanələr).

«Məmmədbağırı» havasının II hissəsi 12 xanəlik instrumental giriş partiyası ilə başlayır. I hissədə olduğu kimi, burada da eyni elementlərdən, ritmik formullardan istifadə olunması əsərin ideya-bədii xüsusiyyətlərini eyni materialdan yoğurulmasını büruzə çıxarır. İnterval baxımından kiçik tersiya münasibətində olan vokal partiyanın dili sadə şəkildədir. Müşayiət partiyası isə harmonik dil xüsusiyyətlərinə və texniki ifasına görə daha zəngin çalarlara malikdir. Həcmcə qısa olan II hissədən sonra III hissənin intsrumental müşayiət partiyası gəlir. Burada da 12 xanəlik instrumental giriş partiyası verilir. Həm melodik dil xüsusiyyətlərinə görə, həm də müşayiət partiyasının fakturasına görə III hissənin əvvəli II hissənin eyni materialı əsasında verilmişdir. Sonrakı inkişaf mərhələsində həm melodik dil, həm də müşayiət

partiyasının fakturasında eyni metod və üslublardan istifadə olunması ilə rastlaşırıq.

Havacatın melodik dilinin nəzəri təhlili göstərdi ki, əsas mövzunun formayaradıcı amilləri havacatın ritmformulları əsasında yaradılmışdır. Melodik dilin formalaşmasında həm də «Şikəsteyi-Fars»dan istifadə olunması, onun muğam lad-intonasiyaları ilə zəngin olmasına dəlalət edir. Melodik dilin müşayiət partiyası texniki cəhətdən inkişaf etmiş ifa üslublarından və harmonik cəhətdən zəngin çalarlardan ibarətdir.

Nümunənin **metro-ritmik** quruluşuna diqqət yetirsək, onun 2/4, 3/4, 3/8 və sərbəst metro-ritmik «Ad libitum»dan istifadə olunmasının əyani şahidi olarıq. Onu da xüsusi olaraq qeyd edək ki, əsas mövzunun 2/4 metrik ölçü əsasında yaradılması havacatın sonrakı inkişafında da özünü göstərmişdir. Müşayiət partiyasının və əsas mövzunun bünövrəsini təşkil edən ritmik formullar not misalında göstərilmişdir (bax: 3 – 4-cü xanələr).

Müşayiət partiyasının quruluşunda «Şikəsteyi-Fars» şöbəsindən muğam parçasının salınması burada «Ad libitum» dan istifadə olunmasını təmin etmişdir. Muğam parçasından sonra yenə də qeyd etdiyimiz ritmik formullardan istifadə olunmuşdur. Vokal-instrumental partiyanın ifasında isə müxtəlif qruplaşmalarda olan ritmik formullara rast gəlirik (bax: 19-20-ci xanələr).

Vokal partiyalar arasında istifadə edilən instrumental partiyaların ritmik formulların quruluşunda qeyd edilən ritm formullardan da istifadə olunmuşdur. I hissənin son musiqi cümləsində vokal partiyanın dəqiq ritmik formullar əsasında icrası və onların mətnin sözləri ilə ifası, ifa tərzinə xüsusi rövnəqliq və təravət gətirir. Bu ritmik formullar, müxtəlif formullarda təqdim olunduğu üçün ifada xüsusi rəngarəngliyi yaratmışdır. Not misalında həmin ritmik formulları əyani olaraq görə bilərik (bax: 50-ci; 52-53-cü xanələr).

Not misalında göründüyü kimi, vokal partiya triollar əsasında müşayiət partiyası isə onaltılıq notların əsasında verilmiş-

dir. İfa üçün bir qədər mürəkkəb olan belə ritmformullar melodiyanın səslənməsində rəngarənglik yaradır.

II və III hissələrdə melodik xəttin və müşayiət partiyasının quruluşları eyni formada olduğu üçün onların ritmformulları da eyni şəkildə ifada öz əksini tapmışdır. Sadəcə olaraq onu qeyd edək ki, xanədaxili ritmik qruplaşmaların şəkillərinin tez-tez dəyişdirilməsi nəticəsində melodiyanın zəngin ritmik komponentlər əsasında yaranması ortaya çıxmış oldu (bax: 65-70-ci; 71-73-cü xanələr).

Ritmik formulların müxtəlif şəkilləri müşayiət partiyasının sonrakı inkişafında formayaradıcı amil kimi özünü göstərmişdir.

Metro-ritmik quruluşunun nəzəri təhlili göstərdi ki, melodiyanın formalaşmasında və formayaradıcı amilində giriş partiyasının ilkin ritmik formulları xüsusi rol oynamışdır. Xanədaxili ritmik şəkillərin müxtəlifplanlı şəkildə qurulması melodik dilin səslənməsində öz təzahürünü tapmışdır.

Hava üç **A+B+C** hissəli **formada** təqdim olunur. On beş xanəli instrumental giriş partiyasından sonra I hissə (**A**) ifa edilir. Melodiyası «Moderato» tempində onaltılıq və səkkizlik notlarla keçən girişin fakturası sadə şəkildədir. Sonda isə «Andante» tempində sərbəst ritmli melodiya səslənir.

Girişin yekunundan sonra I hissənin vokal partiyası başlanır. Vokal partiya üç bölmədən ibarətdir. Birinci **a** bölmə on xanəlidir. Olduqca sadə ritm, akkordlu faktura, dəyişkən ölçü bölməni xarakterizə edir. Altı xanəli intsrumental ifadan sonra ikinci bölmə **a1** başlayır ki, burada müşayiət partiya birinci bölmənin müşayiət partiyasını davam etdirir. Vokal partiyanın mövzu dəyişkənliyi isə müşahidə olunmur. Lakin üçüncü **b** bölməsində əvvəlki bölmələrdən fərqli olan şərti ölçülərdən, melizmlərdən istifadə edilir.

A

G + vok. part.

$a+a_1+b$

Havacatın II hissəsi (**B**) 12-xanəli instrumental giriş partiyası ilə başlayır. Giriş I hissənin giriş partiyasının mövzusu üzərində qurulub. Sonradan gələn vokal partiya I hissədən fərqli olaraq, iki cümlədən ibarətdir. Birinci, **a** cümləsi 16 xanə içərisində verilir. Burada dəyişkən ölçülərdən, xırda ritmikadan, şərti ölçülərdən və melizmlərdən geniş istifadə edilib. Üç xanəli intsrumental ifa ikinci **b** cümləsi ilə birləşdirir. İyirmi bir xanəni əhatə edən ikinci cümlənin müşayiəti birinci cümlənin davamıdırsa, melodiyanın ritmik şəkili isə yenə də birinci cümləyə bənzəyir. Lakin burada melodika-intonasiya quruluşu bir qədər dəyişkəndir.

________B________
G + vok. part.
a + b

III hissə II hissədə olduğu kimi, 12 xanəli, melodiya-intonasiya baxımındın və eyni ritmik formullar əsasında təkrar olunur. Vokal partiya isə yenə də II hissənin vokal partiyasının hər iki cümləsinin təkrarı üzərində qurulub.

________C________
G + vok. part.
a + b

Beləliklə, «Məmmədbağırı» aşıq havasının musiqi forması bu şəkildədir.

| _______A________ | + | ________B________ | + | _____C_______ |
|---|---|---|---|---|
| G + vok. part. | | G + vok. part. | | G + vok. part. |
| $a+a_1+b$ | | a + b | | a + b |

«Məmmədbağırı» aşıq havasının musiqi formasının təhlili göstərdi ki, dastanda üç hissəli formada təqdim edilən bu havacatın bütün hissələrinin musiqi epizodları faktiki olaraq birinci hissənin musiqi materialı üzərində qurulmuşdur. Lakin, onu da qeyd etmək istərdim ki, əvvəlkilərdən fərqli olaraq, hər bir hissə burada müstəqildir. Onları vahid melodik intonasiya çərçivəsində və bir formada birləşdirən a + b epizodlarıyla yanaşı giriş və vokal paritiyalarının forma xüsusiyyətləridir.

## «Misri» aşıq havası

«Misri» aşıq havası aşıq yaradıcılığında sevilən havacatlardan biridir. Onun lad-intonasiya xüsusiyyətlərinin təhlili göstərir ki, bu havacat «Rast» muğamının «Şikəsteyi-Fars» şöbəsi üzərində qurulmuşdur. «Misri»nin istinad pərdələri «b, es, f, as» səsləridir. Havacatın lad strukturunu təhlil etmək üçün onun həm vokal partiyanın, həm də müşayiət partiyasının struktur quruluşu və diapazonunda təhlil etsək, daha düzgün nəticə əldə etmək olar.



Vokal-instrumental partiyanın diapazonu ikinci oktavanın «b» səsindən birinci oktavanın «b» hüduduna qədərdir. Bir oktava həcmində olan ladın strukturunda ifa zamanı «Şikəsteyi–Fars»ın lad quruluşunda edilmiş xromatik gedişlərlə də rastlaşırıq. Məsələn, «Misri»nin vokal-instrumental partiyasının «Ad libitum» deklamasiya ifa tərzindən sonraki partiyasında «ges, g» səslərinin bir-birini əvəz etməsi lad daxili xromatizmi meydana çıxarmış olur (bax: 41-44-cü xanələr- vokal partiya).

«Misri»nin vokal partiyasının lad quruluşunda əsasən «as, b, es» istinad pərdələrindən daha çox istifadə olunmuşdur. Havacatın sonuna yaxın isə vokal partiyada «f» istinad pərdəsindən də istifadə edilir. Qeyd etdiyimiz kimi melodik quruluş əsasən «as» istinad pərdəsinin ətrafında yaradılıb. İnkişaf prosessində melodik xəttin aşağı enməsi nəticəsində istinad pərdələr «f» və «es» səslərinə keçdiyi üçün melodiyanın formayaradıcı elementləri də bu istinad pərdələr ətrafında qurulumuşdur.

«Ad libitum» hissəsində deklamasiya üslubundan istifadə olunmuşdur. Deklamasiya şəkilində oxunan musiqi tonu «f» istinad pərdəsi əsasında qurulmuşdur. Nəzəri təhlillər göstərir ki, «b» mayə pərdəsindən əsasən musiqi fikirlərinin sonluğunda istifadə olunur. Koda xarakterli melodik quruluşlarda mayə pərdəsinə isti-

nad olunması adi bir haldır. Lakin hər dəfə «b» pərdəsinə enmək üçün «ces» səsindən istifadə olunması aşıq musiqinin və milli musiqinin lad-intonasiya xüsusiyyətlərindən irəli gəlməsini göstərir.

«Misri»nin instrumental-müşayiət partiyasının lad quruluşuna və diapazonuna diqqət yetirsək onun geniş olmadığının şahidi olarıq. Yəni vokal partiya ilə müşayiət partiyasının diapazonu faktiki olaraq üst-üstə düşür. Vokal partiyadan fərqli olaraq, instrumental-müşayiət partiyasında «ges» səslərinə daha çox müraciyət olunmuşdur. İnstrumental partiyanın lad təzahürü milli ifa xüsusiyyətlərinin intonasiyaları baxımından da maraq doğurur, yəni istinad pərdələrinin ətrafında melodik dilin arxitektonik quruluşunda rəngarəng 3/4, 2/4, 8/8, 6/8, 5/8, 7/8, 9/8 metrik ölçülərdən istifadə olunması milli musiqi ornamentikasını zənginləşdirdiyi kimi, ladların da intonasiya xüsusiyyətlərini tez-tez dəyişməsi nəticəsində rəngarəngliyini təmin etmişdir.

«Misri» havasının lad quruluşunun təhlili göstərdi ki, «Şikəsteyi-Fars» şöbəsi üzərində olan bu havacatın lad strukturundan sadəcə olaraq bir bünövrə kimi istifadə olunmamışdır. Ladın intonasiyalarını zənginləşdirmək üçün müxtəlif forşlaqlı ifa formasından, xromatik səs gedişlərindən geniş istifadə olunmuşdur.

**Melodik quruluş** «Şikəsteyi-Fars» şöbəsi üzərində qurulduğu üçün ladın bir sıra keyfiyyətlərini özündə əks etdirmişdir. Havacatın melodik ifadə vasitələrinə diqqət yetirsək, burada «Segah» ladının intonasiya xüsusiyyətlərinə və «Rast» muğamının intonasiyalarına rast gəlmiş oluruq. «Şikəsteyi-Fars»ın bu özəlliyi melodiyanın zəngin milli intonasiyalara əsaslanmasına geniş şərait yaratmışdır.

«Misri»nin instrumental giriş partiyasının mövzusu bütövlükdə «Misri» havasının melodik özəyinin bünövrəsini təşkil edir. Elə ilk xanədən başlanmış melodik quruluş sonrakı inkişaf prosessində də özünü göstərmiş olur. Not misalında göstərilmiş melodik struktur «Misri» havasının əsas leytmotivinin özəyini təşkil edir (bax: 1–2ci xanələr).

Not misalında göstərilən leytintonasiya «Misri» havasının 9, 11, 13, 15, 16, 30, 43, 57-ci və sairə xanələrində dəfələrlə ya eyni quruluşda, ya da ki bir qədər dəyişirilmiş şəkildə təkrar ifa edilməsi leytmotivin sədalarının davamlı şəkildə xatırlanmasını təmin edir. Yəni, eyni bir leytintonasiyaların bütün hissələrdə təkrar-təkrar işlədilməsi leytmotivin əsas xarakterik cəhətlərinin obrazlarını dinləyiciyə təlğin etməklə bir daha melodik özəyin məhz həmin ifadə vasitəsinin olmasını göstərməsidir. «...Leytintonasiya, bəzən isə «ladın motivi» əsər boyu nəinki mərkəzdə olaraq hökmranlıq edir, hətta «ladın modeli» kimi, sonrakı inkişafın formalaşmasına təsir etmə gücünə malikdir»[6]. Deyilən fikri bir qədər də inkişaf etdirsək, deyə bilərik ki, havacatların melodik quruluşunun kökü leytintonasiyaların cəmindən, o da öz növbəsində ladin modelinin səslənməsindən yaranan leytmotivin quruluşunu formalaşdırır. Yəni melodiyanın meydana çıxmasında ladın modal quruluşu, leytintonasiya və leytmotivlərin formayaradıcı amil kimi xüsusi rolu vardır.

Melodiyanın quruluşunda sazın harmonik ifadə vasitələrindən, akkordlu səslənmədən geniş istifadə olunmuşdur. Müşayiət partiyanın 1-ci xanəsindən 16-cı xanəyə qədər melodiyanın formayaradıcı strukturunda «es» istinad pərdəsindən geniş istifadə olunmuşdur. Melodiyanın sonrakı gedişində 17-ci xanədən etibarən istinad pərdənin yeri dəyişdirilərək «f» səsinə keçirilir.

Vokal-instrumental partiyanın melodik bünövrəsi «f» istinad pərdəsinə əsaslansa da melodiyanın ilkin başlanması «as» səsi ilə həyata keçirilmişdir (bax: 31–33-cü xanələr).

Melodiyanın formayaradıcı strukturunda, yəni melodiyanın arxitektonik quruluşunda müxtəlif metrik ölçülərdən istifadə olunması öz əksini tapmışdır. Vokal-instrumental partiyaya qədər olan müşayiət partiyanın melodik quruluşunda əsasən 2/4, 3/4

---

[6] «Aşıq Kərəm». Aşıq Həsən Qara Dəvəçi. Nizami ad. Ədəb. İnstit., 1936, Arxiv № 713.

metrik ölçülərdən geniş istifadə edilmişdirsə, vokal-instrumental partiyanın başlanğıcından bu metrik ölçülərdən başqa, daha mürəkkəb olan metrik ölçülərdən də istifadə olunmuşdur. Vokal-instrumental partiyanın 3/4, 2/4, 8/8, 6/8, 5/8, 7/8 ölçülərdən istifadə olunması «Misri»nin melodik ornamentikasının strukturuna da öz müsbət təsirini göstərmişdi.

I hissənin vokal partiyası ilə müşayiət partiyası dialoq şəklində həyata keçirilmişdir. Buna misal olaraq not misalını göstərmək olar (bax: 56-68-ci; 65-70-ci xanələr).

«Misri»nin II hissəsi I hissədən fərqli olaraq, melodik bünövrəsi «f» istinad pərdəsi əsasında qurulmuşdur. Burada da, instrumental-müşayiət partiyası ilə başlayan II hissənin melodik dili, milli lad-intonasiya çeşidlərinin özəlliklərinin zəngin harmonik səslənmədə birgə həmahəng formada verilməsi ilə nəticələnmişdir.

Vokal-instrumental partiyanın melodik quruluşu dəqiq metrik ölçülərə əsaslandığı üçün müşayiətdə ostinatlı ifa formasından geniş istifadə olunmuşdur. Məsələn, II hissədə verilən nümunədə, bas səslərin ostinatlı ifasının şahidi oluruq (bax: 128-132-ci xanələr).

II hissədə «Ad libitum»dan da istifadə olunur. Maraqlısı burasıdır ki, eyni səs intonasiyası üzərində davam edən vokal partiyasını sadələşdirilmiş ifa formasına məxsus instrumental partiya müşayiət edir. Vokal-instrumental partiyalar arasında istifadə edilən solo ifaların melodik dilin tərənnümündə sazın bütün texniki ifadə vasitələrindən istifadə olunmuşdur.

«Misri» havasının melodik quruluşunda xromatik girişlərdən də istifadə olunmuşdur. Belə ifa laddaxili strukturdan irəli gəldiyi üçün milli musiqi ornamentikasının özəlliyi kimi qiymətləndirilməlidir (bax: 174-177-ci xanələrin melodiyası).

«Misri» havasının melodik quruluşunun təhlili göstərdi ki, onun formayaradıcı amillərində rəngarəng metrik quruluşlardan, melodik bünövrənin strukturunda xromatik gedişlərdən istifadə olunması melodik dilin zənginliyinə geniş imkan açmışdır. Ha-

vacatın melodik dilinin quruluşunda istinad pərdələrinin yerinin dəyişdirilməsi tonal-intonasiya xüsusiyyətlərinin rəngarəngliyinə şərait yaratmışdır.

«Misri» aşıq havası, klassik aşıq yaradıcılığına xas olduğu üçün burada zəngin **metro-ritmik** xüsusiyyətlərdən istifadə olunmuşdur. 31 xanəli müşayiət partiyanın girişi ilə başlayan «Misri»-nin ifası əsasən 2/4 metrik quruluş əsasında həyata keçirilmişdir. İfaçı vokal-instrumental partiyanın ifasında «Ad libitum» sərbəst metrik ölçüdən istifadə etməmişdir. Bu, vokal partiyanın dəqiq metrik ölçülər əsasında formalaşdığını göstərir. Onu da xüsusi olaraq qeyd edək ki, «Misri»nin vokal-instrumental partiyasında 3/4, 2/4, 8/8, 6/8, 5/8, 7/8 metrik ölçülərin müxtəlif quruluşlarından istifadə olunması, melodik dilin zəngin ritmik çalarlıqlara əsaslanmasını göstərir (bax: 37-40-cı; 45-50-ci xanələr).

Not nümunəsindən göründüyü kimi, zəngin metro-ritmik quruluşa malik olan «Misri»də melodiyanın da milli çalarlıqları zəngin metrik ölçülərə əsaslanmışdır.

«Misri»nin I hissəsi, rəngarəng ritmik quruluşlara malik olsa da, onun sonluğu sadə 2/4 ritmik quruluşda həyata keçirilmişdir.

Havanın II hissəsi sadə 3/4 metrik quruluşda başlasa da, sonrakı inkişaf, 2/4 metrik ölçüdə davam etdirilmişdir. I hissədən fərqli olaraq, burada «Ad libitum»dan istifadə edilməklə deklamasiya üsulundan istifadə olunmuşdur.

Vokal partiya 3/4, 4/4, 2/4, 6/8, 5/8 rəngarəng metrik ölçülərdən istifadə edilməklə icra olunmuşdur. Burada metrik ölçülərin, melodiyanın ifadə vasitələrinə, formayaradıcı amillərinə xüsusi təsir etməsini vurğulamaq istərdim (bax: 100-106-ci; 112-122-ci xanələr).

Vokal partiyalar arasında ifaçı, müşayiəti dəqiq 2/4 ritmik ölçülər əsasında həyata keçirir. Müşayiət partiyaların bu səpkidə qurulması aşığın ifa üslubunun musiqi təfəkkür tərzini ortaya çıxarmış olur. Eyni zamanda 2/4 ritmik ölçü musiqi obrazlarının konkret dəqiq ifadə forması deməkdir.

Son vokal partiyasının icrasında, ifaçı yenə də zəngin metrik ölçüləri ifaya daxil edir və bununla bir daha milli musiqi irismizin zəngin çalarlarını ortaya çıxarmış olur. Not misalında vokal və müşayiət partiyalarının qarşılıqlı şəkildə müxtəlif ritmik quruluşlardan istifadə etməklə icra olunması deyilən fikrin təsdiqi kimi götürülə bilər (bax: 187-189-cü; 193-197-ci xanələr).

Sonuncu hissə müşayiət partiyasının üç xanəlik sonluğu (koda) ilə bitir. Təhlillər göstərdi ki, «Misri» aşıq havasının zəngin melodik dilinin formalaşmasında ritmik amillərin böyük rolu və əhəmiyyəti vardır. Aşıq yaradıcılığında istifadə olunan ənənəvi ritmik formullar, melodik dilin çalarları ilə yanaşı, aşıq musiqisinin harmonik dilinin də formalaşmasına zəmin yaratmışdır. Bu onu göstərir ki, melodiyanın milli çalarlıqlarını özündə əks etdirməsində ənənəvi ritmik formullar xüsusi rol oynayır.

«Misri» havası iki hissəli **A+A1 musiqi formasında** yazılmışdır**.** Hər bir hissə instrumental giriş və vokal partiyadan ibarətdir.

I hissə (**A**) 31-xanəli instrumental girişlə başlayır («Es dur» tonallığında). Girişin mövzusu 2/4 ölçüdə variasiya vasitəsi ilə inkişaf etdirilir. Əsərin adına uyğun olaraq mövzu cənqi xasiyyətli və qətiyyətlidir. Sonra gələn vokal partiya üç cümlədən **a+b+c** ibarətdir. Hər bir musiqi cümləsi bir-biri ilə instrumental ifa vasitəsi ilə birləşir. «Misri» havasının girişinin orta hissəsi də bir sıra dəyişikliklərlə (motiv əvvəlcə artırılmış halda keçirilir) birinci hissənin variasiya edilmiş motivinin bir kvarta yuxarı keçirilməsindən ibarət olan kulminasiyada ifa edilir. Reprizə keçid də eyni yolla olur»[7] .

Doqquz xanədən ibarət olan **a** cümləsini dəyişkən ölçü (3/4, 2/4, 3/4, 2/4, 2/8) üzərində qurulan mövzu təşkil edir. Dörd xanəli instrumental çalğıdan sonra **b** cümləsi gəlir ki (doqquz xanə), o da **a** cümləsinin mövzusunu dəyişdirilmiş şəkildə da-

---

[7] Axundov Ə. Azərbaycan xalq dastanları: 2 cilddə, II cild. Bakı: Azərnəşr,1961, s.133

vam edir. Burada da ölçü dəyişkənliyini müşahidə etmiş oluruq 6/8, 5/8, 8/8, 2/4, 6/8 metrik ölçülər melodik dilin formalaşmasında xüsusi rol oynayır. Kiçik instrumental çalğıdan sonra (dörd xanə) gələn vokal partiyanın **c** cümləsi, əvvəlki cümlələrdən fərqli olaraq, deklamasiya xarakterlidir. Yenə də ölçü dəyişkənliyinə rast gəlmiş oluruq. Bu dəfə 2/4, 6/8 metrik ölçülərdən əlavə 3/4, 7/8 ölçüləri də ifaya daxil edilir. I hissənin vokal partiyası, yeddi xanəli tamamlayıcı hissə ilə bitir. Qeyd etmək lazımdır ki, cümlələrarası ifa olunan instrumental çalğılar girişin mövzusu üzərində qurulmuşdur. Beləliklə, I hissənin musiqi forması aşağıdakı şəkildə özünü göstərmiş olur:

________A________
G     + vok. part.
a+ b+ c

II hissə (**A1**) 20-xanəli (80-99-cu xanələr) və mövzu cəhətdən iki cümlədən (**a+b**) ibarət olan intsrumental girişlə başlayır. Yeni mövzu üzərində qurulan doqquz xanəli **a** cümləsini, girişin mövzusunu davam edən on bir xanəli **b** cümləsi əvəz edir.

Vokal partiya, **a+b+c+d** sxemi əsasında olan dörd musiqi cümləsindən ibarətdir. Burada **c** cümləsi bir qədər fərqlidir, yəni cümlədaxili verilən instrumental çalğı(epizod) vokal partiya sayəsində genişlənir, səslər isə təkrar olunur. Beləliklə, II hissənin forması bu sxem üzərində qurulmuşdur:

_______A1__________
__G__   + vok. part.
a + b      a + b + c + d

Yekunda bütöv musiqi formasını aşağıda göstərilən sxemlə vermək olar:

________A__________ + ______A1________
G     + vok. part.          G + vok. part.
a + b+ c          a+b    a+b+c+d

Musiqi formasının təhlili onun sadə iki hissəli formada olmasını üzə çıxardı. Sxemdən göründüyü kimi, faktiki olaraq

ikinci hissə birinci hissənin başqa variantıdır. İnstrumental partiyada isə musiqi epizodları ayrı-ayrı bölmələrdə cəmləşib. Belə formada səslənən ifa heç vaxt monoton olmur. Mövzuların tez-tez yeniləri ilə əvəz olunması, ifanı ahəng və tembr baxımından yeni zənginliklərlə doldurur.

## «Təcnis» aşıq havası

Ustad aşıqlar dastan yaradıcılığında adətən «Təcnis»i, «Baş divani» havasından sonra ifa edirlər. «Təcnis» lad-intonasiya quruluşuna görə bir növ «Baş divani»nin davamıdır. «Mahur» muğam-dəstgahının lad-intonasiya əsasında verilmiş «Təcnis»in strukturu 1-1-1/2 tetraxordunun zəncirvari birləşməsiylə verilmişdir. Tonal baxımından «h moll»da olan «Təcnis»in instrumental partiyasının «Mahur» dəstgahı üzərində qurulmasına baxmayaraq nəzəriyyəyə görə onun rast ladına söykəndiyini deyə bilərik:



Muğam ifasılığında «Mahur» muğam-dəstgahı lad baxımından «Rast»a əsaslansa da onun spesifik intonasiya gedişləri, havacatın kadensiyalarını məhz «Mahur» əsasında olmasını diktə edir. Bunu aşağıdaki xanələrdən də görmək olar. Məsələn, girişin birinci altı xanəsində verilmiş melodik quruluş həm «Rast», həmçinin «Mahur» üçün məqbul olunandırsa 7-9; 12,13; 23-27-ci xanələrdəki intonasiyalar və melodik gedişlər sırf «Mahur» muğamına məxsusdur (bax: 7-9-cu; 12-ci; 13-cü; 23-27-ci xanələr).

«Təcnis»in səs düzümündə kiçik oktavanın «a, h», birinci oktavanın «d» pərdəsi funksional baxımından özünü geniş şəkildə göstərir. Lakin «d» mayə pərdəsi rolunu oynasa da, instrumental ifada «a» ilə «h» pərdələri qabarıq göstərilir.

İnstrumental partiyanın giriş hissəsində verilmiş melodiyanın intonasiyalarında «d» mayə pərdəsi kimi oxunmursa, II

hissədə birinci oktavanın «a» pərdəsi intonasiya baxımından daha çox eşidilir. İfaçı istinad pərdəsinin yerini dəyişməklə 76-ci xanədə «fis» səsinə keçməkdə «Segah»ın intonasiya xüsusiyyətlərini vuruqlayır (bax: 76-ci xanə).

Xanənin sonraki melodik gedişində yönəlmə elementləri-intonasiyalarından istifadə edilməklə 77-cü xanədən «Mahur»un lad-intonasiyalarına keçirilir.

Vokal partiyanın sonu ladın lad aparıcı tonu olan «cis»lə bitməsinə baxmayaraq instrumental müşayiət «Təcnis»i «h moll» tonallığına yönəldir və əsər orada bitir (bax: son sətir).

«Təcnis»in lad-intonasiya təhlili göstərdi ki, onun struktur quruluşu rast ladında olsa da melodik səslənmə «Mahur-Hindi» muğamı intonasiyaları əsasında qurulmuşdur. Burada lad – intonasiya çeşidləri havacatın inkişaf prosesində modulyasiya elementləri hesabına müvəqqəti «Segah»ın lad-intonasiya dairəsinə keçməklə «Rast» - «Segah» qarşılaşmasını təmin etmişdir. Belə ifa forması aşıq havacatları üçün xarakterik olduğuna görə onu ənənəvi ifa forması kimi qəbul etmək lazımdır.

«Təcnis» havasının **melodik dil** xüsusiyyətləri Qoşma şeir forması əsasında formalaşmışdır. «…Qoşma yeganə poetik formadır ki, onun özünə uyğun gələn eyni adlı havası yoxdur. Bu da qoşma janrının daha geniş mövzu və obrazlarla bağlılığından, həmin janr əsasında çoxlu müvafiq havaların yaranmasından irəli gəlir. Təcnis isə yalnız bir hava ilə bağlı olan yeganə poetik formadır. Saya təcnis, qara təcnis, cığalı təcnis, gedər-gəlməz təcnis adları janrın bu və ya digər poetik xüsusiyyəti ilə bağlıdır, lakin onların hamısı bir hava üstündə ifa olunurlar. Təcnis anlayışı yalnız şeirin zahiri forması (strukturu) ilə deyil, həm də onun məzmunu ilə əlaqədardır» (8, s.136).

Aşıqların poetik mətndən istifadə qaydalarını şərh edən Bülbül yazır ki, adətən aşıqlar 50-60-dək əsas melodiya və ya təranədən istifadə edirlər; onlar öz repertuarlarını həmin melodiya və bu təranələri həm öz emosional tonuna, həm də musiqi ölçü-

sünə görə fərqlənir. Adətən, poetik əsərin müəyyən janrına müəyyən melodik formalar uyğun gəlir. Məsələn: aşıqlar çox zaman bayatını «Şikəstə» üstündə oxuyurlar... Aşıq poeziyasının bütün xarakteri vokal improvizasiyası üçün uyğunlaşdırıldığından danışıq mətni ilə musiqinin əlaqələndirilməsi çətinlik törətmir. Aşıq şeirlərinin adi forması kupletdən ibarətdir. Bu kupletlərə adətən 4-11 misra daxil olur. Məsələn, «Müxəmməs», «Təcnis» və «Dübeyt» melodiyaları bir cür qurulmuşdur[8].

«Təcnis»in melodik quruluşunu təhlil etmək üçün onu iki qismə, yəni instrumental və vokal partiyaların melodik inkişaf strukturuna diqqət yetirmək lazımdır. İnstrumental partiyanın melodik dili aşıq sazının digər iki siminin iştirakı ilə həmahəng ifa edildiyi üçün daha zəngin və cazibədardır.

«Təcnis»in girişində verilmiş melodik quruluşunda xanələrə düşən aksentlər aşıq yaradıcılığı üçün spesifik aşıq musiqi intonasiyalarının formalaşmasını təmin etmişdir. « Əgər melodik intonasiya bir diqqət anı ilə əhatə olunursa, o, iki səsdən də çox səsi özündə hifz edə bilər»[9]. Bu fikri aşıq musiqisinə şamil etmək olar. Çünki aşıq musiqi melodiyalarının intonasiyaları milli ladlara əsaslandığı üçün melodik dilin strukturunda bir neçə musiqi səsi hökmən iştirak edir. Melodik intonasiyaların formayaradıcı xüsusiyyətləri isə xanələrdə mövcud aksentlərin tez-tez yerini dəyişməsi ilə əlaqədardır. Məsələn: «Təcnis»in ikinci xanəsində vurğu birinciyə yox, ikinci zərbəyə, 3–4-cü xanələrdə birinci zərbələrə, 5-cidə yenədə ikinci, 6-cı xanədə isə birinci və üçüncü zərbələrə düşür (bax: 1- 6 xanələr). Beşinci və altıncı xanələrdəki melodik dil sual-cavab şəkilində qurulmuşdur. Bütün əsər məhz bu iki xanənin özəyi əsasında verilmişdir. Bunu 10, 11, 14, 15, 16, 22, 28, 29, 32, 33, 34-cü xanələrdə ayrı-ayrı konfiqurasiya şəklində müşayiət etmək olar. «Təcnis»in melodik quruluşunun leytmoti-

---

[8] Abdulla K. Sirr içində dastan və yaxud gizli Dədə Qorqud-2. Bakı: Elm,1999, s.141-142

[9] Aşıq Nəsib. Bakı: Səda, 2004, s.154

vini özündə cəmləşdirən bu epizoddan axıra qədər istifadə olunur. Təsadüfi deyil ki, sonuncu iki xanə də bu elementlərlə bitir.

«Təcnis»in II - ci hissəsinin instrumental partiyasının melodik dili «tempo I», yəni 54-cü xanədən etibarən yeni tonal sferaya, birinci oktavanın «a» səsinə istinad etdiyi üçün yeni məna kəsb edir və 59-cu xanədən etibarən yönəlmə elementləri əsasında sekvensiya formasından istifadə edilərək ton-ton aşağı enərək 64-cü xanədən «Təcnis»in əvvəlindəki intonasiya çeşidlərinə müraciət olunur. İfaçı ilkin melodik quruluşdan 11 xanə istifadə etdikdən sonra 76-cı xanə «Segah»ın istinad pərdəsinə («fis») müraciət etməklə melodik dilin intonasiya çeşidlərini bir daha yeniləşdirir.

«Təcnis»in vokal partiyası 31-ci xanədən «Ad libitum»dan başlayır. Vokal partiyanın melodik dili aşıq yaradıcılığına xas, yəni sadə dildə verilmişdir. Vokal partiyanın melodik dili «d» istinad pərdəsi ətrafında yaxın məsafələrlə öz əksini tapır. «D» pərdəsinin oxunması kiçik oktavanın «h» birinci oktavanın isə «f» səsləri arasında öz həllini tapır. Bu da melodik dilin qədim ənənələrə söykəndiyini göstərir.

Vokal partiyasının diapazonu kvinta çərçivəsindən kanara çıxmır. Vokal partiyanın 3-cü gedişi «Ad libitum» deklamasiya şəklində verilmişdir (bax: 49-cu xanə-«Ad libitum»). Bu partiyanın müşayyiətində sekundaların istifadə olunması melodik dili bir qədər də zənginləşdirir. Cingiltili səslənmə bütün diklamasiya boyu verilir.

«Təcnis»in II hissəsinin vokal partiyasının 72- ci xanəsı, «Ad libitum», birinci oktavanın «fis» səsinə istinad etsə də sonradan yenə öz həllini əsas mayə pərdəsi olan «d» pərdəsində tapır.

«Təcnis»in vokal partiyasının təhlili göstərdi ki, onun musiqi dili sadə şəkildə qurulmuş, melodik dildə intonasiya çeşidlərini əldə etmək üçün isə, «d, a, fis» səs məkanlarından qarşılıqlı şəkildə istifadə olunmuşdur. Bu kimi qarşılaşdırma aşıq musiqisinin daha təravətli səslənməsini təmin etmişdir.

«Təcnis-konkret şeir və musiqi məzmunu, konkret emosional surətləri ilə seçilən, ritmik modulyasiyaların zənginliyi, dinamikliyi və patetik ifadəliyi ilə fərqlənən havadır» (8, s.136). Təhlil edəcəyimiz «Təcnis»də ənənəvi olaraq rəngarəng zəngin **metro-ritmik** xüsusiyyətlərdən istifadə olunmuşdur.

Vokal-instrumental şəkildə ifa edilən «Təcnis»in 30 xanəlik instrumental giriş bölməsində aşıq yaradıcılığında tez-tez rast gəldiyimiz 3/8, 2/4, 5/8 metro-ritmik ölçülərdən istifadə olunmuşdur. Onu da xüsusi olaraq qeyd edim ki, instrumental giriş bölməsində, əsasən, 2/4 ölçüsündən daha çox istifadə olunmuşdur. 2/4 metro-ritmik quruluşun əsaslı olaraq havacatda istifadə olunması metro-ritmik quruluşun dəqiq ostinatlı ifa tərzini ön plana çəkmişdir. Birinci beş xanədə 2/4 və 3/8 qarşılaşdırmasından yaranan melodik quruluşda xanədəki aksentlərin tez-tez yerlərini dəyişməsi nəticəsində aşıq ənənəsinə xas cəhətlərin qabardılması ilə nəticələnmişdir. İkinci xanədə sözün strukturunu yaradan hecalarda fonetik səslərin işlədilməsi formasından asılı olaraq, aksent ikinci zərbəyə düşdüyü halda 3-4-cü xanələrdə xanənin əvvəlində verilir, son beşinci xanədə isə aksentin yeri dəyişərək yenədə ikinci zərbəyə düşür (bax: 1–5-ci xanələr). Xanələrin müxtəlif, zəif və güclü zərbələrinə düşən aksentlər vokal ifada olan sözlərin ifa formasından irəli gəlir.

Sonrakı xanələr faktiki olaraq 2/4 metro-ritmik ölçü əsasında ifa olunmuşdur. Stabil metro-ritmik quruluşda yazılmış melodiya dinləyici tərəfindən asanlıqla qavranılır. «Təcnis»ə aşıq sevərlər tərəfindən geniş diqqət ayrılması məhz bu amillə bağlıdır.

İnstrumental girişin son 27-30-cu xanələrində 5/8, 2/4 və 3/8 ölçülərindən istifadə olunmuşdur. Vokal-instrumental partiyanın əvvəli («Ad libitum») sərbəst metro-ritmik quruluşda ifa olunur. Sonrakı üç xanəli müşayiət partiyasında yenə də 2/4, 3/8 qarşılaşdırmasından istifadə olunur. Növbəti «Ad libitum» da həm sərbəst metro-ritmik quruluş həm də vokal partiyanın ifasında 2/4, 3/8 metro-ritmik quruluşlardan istifadə olunmuşdur.

«Təcnis»in ifasında vokal partiyalar arasında instrumental ifalar müxtəlif ritmik ölçülərə əsaslanır. Burada 2/4, 3/8, 2/8 ritmik quruluşlara rast gəlinməsi melodik dilin rəngarəngliyini göstərir. Onu da xüsusi olaraq qeyd edim ki, instrumental intermediyaların metro-ritmik quruluşunun əsasını vokal partiyanın strukturunda mövcud olan metrik ölçülər təşkil edir. «Təcnis»in metro-ritmik quruluşunun təhlili göstərir ki, ifaçı sənətkar metrik ölçüləri dəyişməklə səslənməyə və melodik dilin ahənginə xüsusi təravət gətirir. Bu kimi ifa tərzi aşıq musiqi havacatlarını, o cümlədən «Təcnis»in harmonik səslənməsini rövnəqləşdirir və onu milli musiqinin çalarlarını bir qədər də zəngindəşdirmiş olur.

«Təcnis» kiçik epizodlu, iki hissəli **formada** yazılmışdır. Hər bir hissə instrumental improvizasiya – giriş və vokal partiyadan ibarətdir. Hər iki hissəni kiçik deklamasiya xüsusiyyətli (**c**) epizodu birləşdirir. Beləliklə, «Təcnis»in formasını belə qəbul etmək olar:

**A+C+B.**

I hissə (**A**) instrumental improvizasiyalı girişlə başlayır (**G**). İnstrumental improvizasiya («D dur» tonallığında) əsas mövzunun müxtəlif inkişaf işləmələrindən ibarətdir (30 xanə). Girişi dörd epizodun vahid kompozisiyası müəyyən edir:

**a+a1+a2+a3.**

**a** quruluşunda verilən əsas mövzu doqquz xanədən ibarətdir. Dəyişkən ölçü (2/4, 3/8) xırda ritmika-triol mövzunu qərarlı və çevik edir. Əvvəldən verilən kvarta-kvinta müşayiəti sırf saz kokündədir.

**a1** quruluşu beş xanədən ibarətdir (10-14-cü xanələr). Burada əsas mövzu dəyişməz olaraq qalır, təkrar və sekvensiyalarla hərəkət edir. Müşayiət partiyada dəyişikliklər baş vermir.

**a**2 quruluşu yeddi xanədən ibarətdir (15-21-ci xanələr). **a** quruluşundan fərqli olaraq, **a2** quruluşunun ölçüsü (2/4) dəyəşirilmir. Burada, mövzu daha artıq inkişaf etdirilir. Triol, trel, forşlaq mövzunu oynaq edir. Müşayiət partiya qabaqdakı quruluşları təkrar edir.

**a3** quruluşunda əsas mövzu dəyişirilərək təkrar olunur. Doqquz xanədən (21-29-cu xanələr) ibarət olan bu quruluşda 5/8, 2/4, 3/4 ölçü dəyişkənliyi baş verir.

Beləliklə, girişin (**G**) formasının sxemi bu şəkildə əmələ gəlir:

_____ G_____

a +a1+a2+a3

I (**A**) hissənin vokal partiyası üç quruluşdan ibarətdir: **a+b+c**. Hər quruluşun arasında üç xanəli instrumental çalğı verilmişdir.

**a** quruluşu deklamasiya xarakterlidir. Tersiya diapazonunda keçən mövzu əsasən, bir səs üzərində qurulmuşdur. Mövzu monotondu. Üç xanəlik instrumental çalğı **a** quruluşunu, **b** quruluşu ilə bağlayır. Həmin çalğı əsas mövzunun (girişin) üzərində qurulmuşdur.

**b** quruluşu, **a** quruluşunun mövzusu üzərində qurulmuşdur və bir neçə səsin əhatəsindədir. Üç xanəli instrumental çalğı **c** quruluşuna gətirib çıxarır.

**c** quruluşu mövzu etibarı ilə **a** və **b** quruluşundan fərqlidir. Altı xanədən ibarət olan və dəyişkən ölçülü (2/4, 3/8) piano səslənişində keçən instrumental çalğı I (**A**) hissəsini tamamlayır. Bununla, I hissənin forma baxımından sxemi bu şəkildədir:

______A____________ G____ +

vok. part a +a1+a2+a3 a + b + c

I hissəni II hissə ilə birləşdirən **c** epizodu deklamasiya xarakterlidir və saz havasına uyğun instrumental çalğı müşayiəti ilə verilir.

